BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# ERMƏNİ MİLLƏTÇİ İRREDENTİZMİ VƏ QARABAĞ MÜHARİBƏLƏRİ

Dr. Cavid Vəliyev

Oktyabr - 2024

Kitab, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin
30 sentyabr 2024-cü il tarixli 003 nömrəli qərarı il nəşr olunmuşdur.

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

AZ 1100, Bakı şəhəri, Mirzə İbrahimov 8
Telefon: (+994 12) 596-82-39, (+994 12) 596-82-41,
E-poçt: info@aircenter.az | www.aircenter.az

# MÜNDƏRİCAT

**Xülasə** .................................... 4
**Giriş** .................................... 7

**I fəsil. Irredentizm üçün müttəfiq axtarışı (1920-1953)** .................................... 15
1.1. Erməni təşkilatlarının fəaliyyəti: 1920-1945-ci illər .................................... 15
1.2. İkinci Dünya müharibəsindən sonra "Böyük Ermənistan" düşüncəsinin canlanması .................................... 23
1.3. "Böyük Ermənistan" üçün yeni müttəfiq axtarışı .................................... 29

**II fəsil. Ermənistanda milli reabilitasiya dövrü və artan millətçilik** .................................... 33
2.1. Erməni dissidentlərində millətçilik xüsusiyyətləri .................................... 33
2.2. Ermənistan SSR daxilində daşnakların təsirinin artması .................................... 40
2.3. Erməni dissident təşkilatlarının irredentist hədəfləri .................................... 49

**III fəsil. 1965-ci il mitinqi və irredentizmin sürətlənməsi** .................................... 52
3.1. 1965-ci il mitinqi və gizli təşkilatlanmanın artması .................................... 52
3.2. Erməni "gizli" təşkilatlarının yayılması .................................... 59
3.3. Dağlıq Qarabağda gizli fəaliyyətlərin canlanması .................................... 66

**IV fəsil. "Miatsum"a gedən yol** .................................... 70
4.1. Mixail Qorbaçov dövrü: erməni irredentizminin artan ümidləri .................................... 70
4.2. Qorbaçovun "beyin komandası"ndakı ermənilər .................................... 74
4.3. Qarabağda separatçıların açıq şəkildə təşkilatlanması .................................... 79
4.4. 1987-ci il: separatizm hücuma keçdi .................................... 86
4.5. İlk çaxnaşmalar: Çardaxlı .................................... 89
4.6. 1988-ci il: Qarabağda ilk qan töküldü .................................... 92
4.7. Azərbaycanlıların dördüncü dəfə Ermənistandan qovulması .................................... 96

**Nəticə** .................................... 99

**İstifadə edilmiş ədəbiyyat** .................................... 105

## XÜLASƏ

- Son 30 ildə Cənubi Qafqazın iki ölkəsi - Azərbaycan və Ermənistan arasında iki böyük müharibə yaşandı. Bu müharibələr regionda on minlərlə insanın ölümünə, Azərbaycanın beynəlxalq səviyyədə tanınan təxminən 13 min $km^2$ ərazisinin 30 il ərzində Ermənistanın işğalı altında qalmasına və bu bölgələrin dağıdılmasına, 1 milyon insanın öz torpaqlarından qovulmasına, nəhayət, xarici qüvvələrin regiona müdaxilə edərək burada qütbləşmə yaratmasına səbəb oldu.
- Erməni millətçiləri bu hadisələrin yeni dövrdə - 1988-ci il fevralın 28-də Sumqayıtda yaşanan hadisələrlə başladığını iddia edirlər. Onlara görə, Sumqayıt hadisələri Qarabağ ermənilərinin azərbaycanlılarla birgə yaşaya bilməyəcəklərinin bariz sübutu idi. Halbuki, Cənubi Qafqazda yaşanan iki müharibəyə ermənilər arasında yüksələn millətçilik səbəb olmuşdu.
- 1920-ci ildə bolşeviklərin Ermənistanda hakimiyyəti ələ keçirməsi ilə birlikdə millətçiləri təmsil edən Daşnaksütyun Partiyası Ermənistanı tərk edərək, Yaxın Şərqə və ABŞ-a yerləşdi. Bu regionlarda qatı millətçi daşnaklarla nisbətən yumşaq mövqe tutan "Hınçaq" və "Ramqavar" partiyalarının nümayəndələri arasında liderlik uğrunda mübarizə başladı. Siyasi olaraq başlayan bu mübarizə bəzən qarşılıqlı silahlı münaqişəyə də çevrildi və tərəflər bir-birini öldürməkdən belə çəkinmədilər. Bu səbəbdən erməni millətçiliyində şiddət öz daxili məsələlərinin həllində belə tətbiq edilmişdir. Lakin eyni zamanda istər Yaxın Şərqdəki digər terror qruplaşmaları, istərsə də İkinci Dünya müharibəsi zamanı Faşist Almaniyası ilə əməkdaşlıq bu şiddət meyillərini artırmışdır.

- Burada diqqət çəkən digər bir məsələ odur ki, erməni millətçiliyi İkinci Dünya müharibəsindən sonra Stalinin Türkiyədən ərazi tələbi ilə birlikdə yenidən canlanmışdır. Bu millətçilik hissləri yalnız diaspor erməniləri arasında deyil, 1920-1945-ci illərdə bəzi erməniləri millətçilikdə günahlandıraraq öldürən kommunist erməni xadimlərində də canlanmışdır.
- İkinci Dünya müharibəsindən sonra yaşanan bu hadisələrin ilk qurbanları Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar olmuşdur. 1948-ci ildə Ermənistanda yaşayan azərbaycanlılar Azərbaycan SSR ərazisinə köçürülərək, öz tarixi torpaqlarından məhrum edilmişdir.
- 1953-cü ildə Stalinin ölümü ilə birlikdə azərbaycanlılar öz torpaqlarına geri dönsələr də, Ermənistan SSR-də irredentist millətçilik yüksəlməyə davam etmişdir. Stalindən sonrakı dövrdə diaspor ermənilərinin Ermənistan SSR-ə köçməsi bu millətçiliyi artıran səbəblərdən biri olmuşdur. Bir çox sovet respublikalarında dissident hərəkatların yüksəlişi ilə yadda qalan bu dövr Ermənistan SSR-dən də yan keçməmişdir. Lakin digər respublikalardan fərqli olaraq Ermənistan SSR-dəki dissident hərəkat irredentist, milliyyətçi xüsusiyyətə malik olmuşdur. Bu millətçilik yavaş-yavaş Azərbaycan SSR-in tərkibində olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində yaşayan ermənilər arasında da yayılmışdır.
- 1960-cı illərdə bu istiqamətdə ilk təşkilatlarını quran ermənilər daha sonra bu təşkilatların sayını artırmış və bəzən də gizli fəaliyyətlərini terror hadisələri ilə davam etdirmişlər. 1985-ci ildə SSRİ-də Mixail Qorbaçovun hakimiyyətə gəlməsi, Qorbaçov hakimiyyətinin “beyin komandası”nda ermənilərin üstünlük təşkil etməsi və Moskvadakı yeganə azərbaycanlı Heydər Əliyevin vəzifədən uzaqlaşdırılması

"Miatsum" tələblərinin artması ilə nəticələndi. "Miatsum" erməni millətçilərinin tarixi erməni torpaqları olaraq gördüyü ərazilərin Ermənistan SSR-ə birləşdirilməsi mənasına gəlirdi. Bu, eyni zamanda monoetnik bir Ermənistan yaratmaq arzusu idi.

- 1988-ci ildə Qarabağda ixtişaşlar başlayanda erməni irredentist millətçiləri təşkilatlanmış, Qarabağ məsələsini beynəlxalq müstəviyə çıxarmağı bacarmış, ümummilli erməni məsələsi halına gətirmiş və hətta bunun üçün silahlı mübarizəyə hazır olmuşlar.

## GİRİŞ

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı əslində XIX əsrdən etibarən beynəlxalq siyasətin gündəliyini məşğul edən və qanlı müharibələrə səbəb olan irredentizm problemidir. Bunun ən başlıca sübutu 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Sovetinin birləşmə haqqında qanunsuz birgə qərarı və bu qərarın 1990-cı il avqustun 23-də qəbul edilən Ermənistanın Müstəqillik Bəyannaməsində yer alması və Müstəqillik Bəyannaməsinin də hələ də qüvvədə olan Ermənistan Konstitusiyasının bir parçası olmasıdır.

2020-ci ildə İkinci Qarabağ müharibəsinin başlama səbəbi də Ermənistan hakimiyyətinin irredentist siyasətə sahib çıxması və hətta onu davam etdirməsi oldu. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 6-da o vaxt işğal altında olan Xankəndiyə gələrək, "Qarabağ Ermənistandır və nöqtə" deməsi dövlət səviyyəsində irredentizmin davam etməsi mənasına gəlirdi. Nikol Paşinyanın bu açıqlaması onun təyin etdiyi müdafiə nazirinin Azərbaycanın yeni ərazilərini işğal etməklə təhdid etməsi və 2020-ci ilin iyul ayında Ermənistanın Azərbaycan mövqelərinə Tovuz istiqamətində hücum etməsi ilə nəticələndi. Bu hadisələr İkinci Qarabağ müharibəsinə gətirib çıxaran səbəblər oldu.

Bu mənada beynəlxalq siyasətdə irredentizm ilə məşğul olan akademiyanın Qarabağ məsələsini bir irredentizm nümunəsi olaraq araşdırma mövzuları sırasına daxil etməsi təsadüf deyildir.

Ermənistan siyasi ideologiyasında irredentizmin mövcudluğu keçmişə dayanır. İrredentizmin dünya siyasətində baş qal-

dırdığı dövrlə erməni ziyalıları, siyasətçiləri, kilsəsi və xalqı arasında hakim olmağa başladığı dövr əslində üst-üstə düşür. Belə ki, erməni düşüncəsində irredentizm XIX əsrdə erməni ziyalıları, din adamları və cəmiyyəti arasında hakim ideologiya halına gəlmiş "Böyük Ermənistan" düşüncəsi üzərində qurulmuşdur. Ermənilər bir tərəfdən Azərbaycan ərazilərini işğal etmək məsuliyyətindən boyun qaçıraraq, "xalqların öz müqqədəratını təyinetmə hüququ" və ya "məcburi ayrılma" kimi beynəlxalq hüquq terminlərini açıq şəkildə təhrif edərək beynəlxalq ictimaiyyəti yanıltmağa çalışmışlar. Bu mənada oxuculara təqdim edilən bu araşdırmada Ermənistanda baş qaldıran dövlət dəstəkli irredentist millətçiliyin inkişafı, mərhələləri, onun Azərbaycan ərazilərinə yayılması və yol açdığı ağır nəticələr araşdırılmışdır.

Ümumiyyətlə, oxşar müharibələrin və konfliktlərin ortaya çıxmasında akademiyada iki əsas səbəb müzakirə edilir: birincisi, ölkə daxilindəki separatizm, yəni suveren dövlətdən ayrılma; ikincisi isə irredentizm, yəni digər dövlətin ərazisini özünə birləşdirmə. Bu iki anlayış arasında nəticələri baxımından fərqliliklər vardır.

İrredentizm bir dövlət tərəfindən digər dövlətin ərazisinin özünə birləşdirməsinin siyasi-ideoloji əsasını təşkil edir. Bu anlayışın araşdırılması və izahı baxımından ilk tədqiqatçılar kimi qəbul edilən Horovitz[1] və Ambrosio[2] irredentizmi, "yad" etnik idarəetmə altında olan bir dövlətdə yaşayan etnik qrupun, etnik qohumlarının nəzarətində olan qonşu "vətən" dövlətinə birləşməsinə və bununla da onu "ev hakimiyyətinə" gətirməsi üçün etno-milli əsaslı tələb kimi izah edirlər. Bu mənada irredentist

1 Horowitz, D. L. Irredentas and secessions: Adjacent phenomena, neglected connections. In N. Chazan (Ed.), Irredentism and International Politics. Boulder, CO: Lynne Rienner. (1991), p. 9-10.

2 Ambrosio, T. Irredentism: Ethnic Conflict and International Politics. Greenwood Publishing Group. (2001), p. 2.

hərəkatlar üçün hədəf qonşu dövlətin müəyyən bir ərazisinin ayrılaraq müstəqil bir struktur kimi qurulması, yaxud qonşu əsas dövlətlə birləşməsidir. Lakin bəzi mütəxəssislər müstəqil dövlətin qurulmasına irredentist dövlət baxımından müvəqqəti bir hal kimi baxır və burada əsas hədəfin birləşdirilmə olduğunu düşünürlər.

Horovitz növləri baxımından irredentizmi ikiyə ayırır. Birincisi, ana dövlətin varlığı, ona mənsub olan və qonşu dövlətin ərazisində yaşayan azlıq və üstündə  yaşadığı əraziyə qarşı iddia. İkincisi isə fərqli dövlətlərin ərazisində yaşayan etnik qrupların o dövlətlərdən ərazi ilə birlikdə ayrılaraq tək dövlət qurma fəaliyyəti. Horovitzə görə, hökumət dəstəkli qrupların qonşu dövlətin ərazisindəki qruplar adına iddia ilə çıxış etməsini "dövlət tərəfindən idarə olunan irredentizm" adlandırmaq mümkündür[3] Beləcə, irredentizmin üç komponenti mövcud olur: 1. İrredentist dövlət və ya ana dövlət; 2. Hədəf dövlət; 3. Hədəf dövlətin ərazisi və onun üstündə yaşayan, irredentist dövlətlə qohum olan etnik azlıq.

Gigi Gökceke görə[4], dövlət dəstəyi olmadan irredentizm baş qaldıra və uğur əldə edə bilməz. Dövlət bu düşüncənin yayılmasına və qrupların fəaliyyətlərinə göz yummasa, bəzən də dəstəkləməsə, irredentizm yaşaya bilməz. Bu mənada dövlət strateji hədəfinə çatmaq üçün irredentist qrupları bir vasitə olaraq istifadə edir.

"İrredentizm" anlayışı İtaliya dövlətinin XIX əsrin sonlarında Habsburq əyalətindəki Venesiya və Torontodakı italyanları birləşdirmə cəhdindən irəli gəlir. Bu, "irredentizm" anlayışının dünya siyasətinə daxil olduğu dövrdür. E.Gellner

3 Donald L. Horowitz, Ethnic Groups in Conflict, Berkeley : University of California Press, 1985.
4 Gigi Gokcek, "Irredentism versus Secessionism: The Potential for International Conflict", Western Political Science Association Annual Conference, San Francisco, California, April 1-3, 2010.

1815-1918-ci illəri "millətçi irredentizm" dövrü olaraq təsvir edir. Almanya və İtaliyanın birləşməsi dövrü olan bu dövr "bir mədəniyyət-bir dövlət" siyasi prinsiplərindən biri kimi tətbiq edilirdi.[5] Osmanlı imperiyasının şərq vilayətlərini və daha sonra isə Cənubi Qafqazın xüsusən Azərbaycan ərazilərini də özündə birləşdirmək məqsədi daşıyan erməni irredentist təşkilatları olan "Hnçak" və "Daşnaksütyun" da məhz bu dövrdə qurulmuş[6] və üsyanlara başlamışdır.

Lakin günümüzə qədər davam edən bu prosesə Faşist Almaniyasının 1938-ci ildə Çexoslavakiyanın Sudet regionuna, 1977-ci ildə Somalinin Efiopiyaya və Argentinanın 1982-ci ildə Folkland adalarına hücumu kimi nümunələr mövcuddur.[7]

İrredentizm ideoloji əsasda inkişaf edən siyasi proses olaraq qəbul edilir. İrredentistlərin əsas etnik ideologiyası etnik qrupun dominant olduğu "böyük dövlət"in yenidən qurulmasıdır. Bu mənada irredentist layihənin milli ideyaya çevrilmədən tətbiq olunmasına qədər müəyyən mərhələləri vardır. Məsələn, yunan irredentizmi "Enosis" olaraq bilinir. Bu irredentizm XIX əsrin əvvəllərindən etibarən "Megali İdea" ("Böyük ideya") düşüncəsi üzərində formalaşdı və Bizans imperiyası sərhədləri çərçivəsində bütün yunanların birləşdirilməsini proqnozlaşdırırdı.[8] "Böyük Ermənistan" düşüncəsi də Ermənistana qonşu olan bütün dövlətlərin ərazisində yaşayan ermənilərin ərazi ilə birlikdə Ermənistana birləşdirilməsi ilə tək bir dövlətin yaradılmasını nəzərdə tuturdu. Erməni irredendist millətçiləri bunu "Azad, müstəqil və bütöv Ermənistan" olaraq təbliğ etdilər.

5 Natalia Horlo, International Political Context of Irredantism, Scientific Journal of Polina University, 40 (2002) 3. pp. 205-212, p. 208.
6 Hnçak Partiyası 1887-ci ildə, Erməni İnqilabi Federasiyası, yəni Daşnaksütyun Partiyası isə 1890-cı ildə qurulmuşdur.
7 German Kim, Irredentism in Disputed Territories and Its Inluence on the Border Conlicts and Wars, The Journal of Territorial and Maritime Studies, Voluma 1, Number 2. Summer Fall 2014, pp.87-101, p. 89.
8 Natalia Horlo. Göstərilən əsər, s. 207.

İrredentizm hədəf dövlətin suverenliyi ilə yanaşı beynəlxalq nizamı da təhdid edir. Məsələn, Ermənistanın irredentist fəaliyyətləri nəticəsində son 120 ildə Cənubi Qafqazda yaşanan müharibələrdə, milyonlarla insan evlərindən qovuldu və on minlərlə insan həyatını itirdi.

İkinci Dünya müharibəsindən əvvəlki dövrdə irredendist millətçilik müharibəyə rəvac verən səbəblərdən biri olduğu və dünyada sabitliyi pozduğu üçün müharibədən sonra beynəlxalq hüquq, sərhədlərin toxunulmazlığı və konfliktlərin diplomatik yolla həlli prinsipinə üstünlük verdi.[9] Bu dövrdə dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı, dövlətlərin daxili işlərinə müdaxilə etməmək və xalqların öz müqəddəratını təyinetmə prinsipi kimi  müasir dünya siyasətinin əsas prinsiplərini formalaşdırmaq məqsədi daşıyan   beynəlxalq qanuni sənədlər formalaşdırıldı. Məsələn, BMT Nizamnaməsi (1945), Kolonial Ölkə və Xalqlara Müstəqilliyin Təsisi haqqında Bəyannamə (1960), Helsinki Yekun Aktı (1975) və digər beynəlxalq sənədlər müasir beynəlxalq sistemin idarə olunması üçün əsas vasitələrdir. Lakin separatçı hərəkatlar tez-tez xalqların öz müqəddəratını təyinetmə hüququna müraciət etsələr də, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, 1993-cü ildə qəbul edilən Vyana Deklarasiyası bu hüququ xarici işğal altında olan kolonial xalqlara verir.[10]

Elizabet Füzesi irredentizmin bir Avropa fenomeni olduğunu düşünür. Onun hesablamalarına görə, 2000-ci illərdə dünyada qeydə alınan 55 irredentist hərəkatdan 16-sı Qərbi Avropada olmaqla, 45-i Avropada, 5-i Afrikada, 4-ü Asiyada və 1-i Yaxın Şərqdə müşahidə edilib.[11] Bu mənada, 1946-2000-ci illər arasında

9 Arnold N. Pronto, "Irredentist Secession in International Law", The Fletcher Forum of World Affairs, Vol 40: 2. Summer 2016, pp. 103-122, p.107.

10 Natalia Horlo. Göstərilən əsər, s. 208.

11 Julianna Christa Elisabeth Fuzesi, Explaining irredentism: the case of Hungary and its transborder mi-

dünyada yaşanan bütün irredentist münaqişələri araşdıran sorğu İkinci Dünya müharibəsinin bitməsindən sonra ərazi problemlərinin həlli üçün Avropa dövlətlərinin status-kvonun qorunması və fikir ayrılıqlarının dinc yolla həllinə üstünlük verdiklərini iddia edir. Məsələn, almanlar Fransanın Elzas və Lotaringiya əyalətlərində və İtaliyanın Cənubi Tirol əyalətində çoxluq təşkil etmələrinə baxmayaraq, bu millətlərin qalan hissəsində fransız və italyan çoxluqları onların ayrılmalarına mane oldular. Eynilə, slovenlər vətənləri Yuqoslaviya ilə həmsərhəd olan Avstriyanın Karintiya əyalətində üstünlük təşkil edirlər, lakin Avstriyadakı almandilli çoxluq onların ayrılmasına ciddi şəkildə mane olur.[12]

Lakin dövlətlərin ərazi bütövlüyü və suverenliyini, sabitliyi qorumaq üçün qəbul edilən müqavilə və deklarasiyalar dünyada irredentizmin ortadan qalxmasına xidmət etmədi. Buna səbəb böyük dövlətlərin öz coğrafiyalarında sabitliyi qorumaq üçün mövcud beynəlxalq hüquq prinsiplərini qorumağa üstünlük verərkən, dünyanın digər ərazilərində öz geosiyasi maraqlarına görə bəzən dövlətlərin ərazi bütövlüyü və suverenliyini, bəzən də irredendist və separatçı hərəkatları dəstəkləməsidir. Eyni zamanda beynəlxalq sistemi qorumaqda mükəlləf olan beynəlxalq təşkilatların yetərsizliyi də buna səbəb oldu.

İkinci Dünya müharibəsindən sonra Ermənistanda başlayan dövlət dəstəkli irredentist millətçilik bunun ən açıq sübutlarındadır. Dövlət dəstəkli erməni millətçi irredentizmi Sovet İttifaqının sonlarına doğru Azərbaycan ərazisində separatçı hərəkatların güclənməsinə və əhali arasında yayılmasına dəstək verdi.

---

norities in Romania and Slovakia, London School of Economics and Political Science University of London 2006, p. 50.

12 German Kim, Irredentism in Disputed Territories and Its Inluence on the Border Conlicts and Wars, The Journal of Territorial and Maritime Studies, Voluma 1, Number 2. Summer Fall 2014, pp. 87-101, p. 97-98

Separatçı münaqişələr azlıq qrupları özlərini və yaşadıqları ərazini başqa bir dövlətin suveren hakimiyyətindən ayıraraq müstəqilliklərini elan etdikdə ortaya çıxır. Bununla belə, beynəlxalq ictimaiyyət suveren dövlətin ərazi bütövlüyünü qorumaq hüququnu tanıyır və belə münaqişələr nadir hallarda qlobal xarakter alır. Çazana görə, bir çox qruplar açıq-aşkar irredentist iddialar səsləndirməkdən çəkinirlər. Bunun əvəzinə onlar müstəqillik və ya regional muxtariyyət kimi daha mülayim geosiyasi tələbləri ifadə edirlər.[13] David Karmentin araşdırmasına görə, ölkə daxilindəki separatçı etnik münaqişələr hərbi cəhətdən daha zəifdir və beləliklə, beynəlxalq səviyyədə irredentist münaqişələrdən daha az güc qazanır.[14] Lakin irredentizmin mənfi nəticələrinin ən ağır yükünü azlıqlar çəkir.[15]

Bu, irredentist hərəkatlar üçün belə deyil.[16] Bu mənada irredentizm və separatçılıq üzrə mütəxəssislərin ümumi ehtimalına görə, dövlətlər tərəfindən dəstəklənən separatçı təcrübələr də müharibələrə səbəb olur.[17] İrredentist hərəkatlar da separatçı hərəkat kimi dövlətlərin ərazi bütövlüyü və suverenliyini hədəf alır. Lakin açıq fərq ondan ibarətdir ki, bir çox hallarda bu iddialar yaxşı təşkilatlanmış və bacarıqlı orduya malik suveren dövlət tərəfindən irəli sürülür.[18] Genişmiqyaslı orduları olan suveren dövlətlər tərəfindən irəli sürülən irredentist tələblər, adekvat hərbi resurslara malik olmayan azlıqların mübarizə apardığı separatçılardan daha çox beynəlxalq münaqişələrə səbəb olur.

13 Naomi Chazan, Irredentism and International Politics. Boulder, CO: Lynne Rienner. (1991), p. 12.
14 David Carment, “The International Dimensions of Ethnic Conflict: Concepts, Indicators, and Theory,” Journal of Peace Research, vol.30, no.2, (1993).
15 German Kim. Göstərilən əsər, s. 93.
16 Yenə orada, s.89
17 Yenə orada, s. 89.
18 Gigi Gokcek. Göstərilən əsər

İrredentizm ilə ayrılmanın beynəlxalq hüquq baxımdan fərqli nəticələri vardır. Belə ki, BMT-nin beynəlxalq hüquq komissiyasının üzvü Arnold Prontoya görə, beynəlxalq hüquq irredentizmə öz müqəddəratını təyinetmə hüququ vermir. Ayrılmaq istəyən qruplar bu hüquqa sahibdir, lakin əgər bu da daxili və beynəlxalq hüquqa uyğun olarsa.[1] Digər tərəfdən, öz müqəddəratını təyinetmə hüququ sadəcə suveren dövlət qurma və ya başqa dövlətə birləşmə mənasına gəlmir. Bu, eyni zamanda tərkibində olduğu dövlətin sərhədləri daxilində də siyasi və ya iqtisadi muxtariyyət alaraq öz müqəddəratını təyin edə bilər.[2]

Nəticədə bu araşdırma beynəlxalq münasibətlər sistemində dövlət dəstəkli irredentizm və onun yol açdığı acı nəticələr baxımından bir nümunədir. Beynəlxalq münasibətlərlə məşğul olan universitet müəllimləri və tələbələri, diplomatlar, siyasətçilər və dövlət adamları dövlət dəstəkli erməni irredentizminin necə inkişaf etməsi, böyük güclərin öz maraqları üçün bu irredentizmdən necə istifadə etməsi və onun region üçün yol açdığı acı nəticələrlə bu araşdırmada tanış olacaqlar.

1 Arnold Pronto. Göstərilən əsər, s. 103.
2 Yenə orada, s. 104

# I FƏSİL. İRREDENTİZM ÜÇÜN MÜTTƏFİQ AXTARIŞI (1920-1953)

## 1.1. Erməni təşkilatlarının fəaliyyəti: 1920-1945-ci illər

Bolşeviklərin 1920-ci ildə Cənubi Qafqazı ələ keçirməsindən sonra 1921-ci il iyulun 5-də Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosunun iclasında dağlıq və aran Qarabağın Azərbaycanla olan iqtisadi əlaqəsi nəzərə alınaraq Azərbaycanda qalmasına qərar verildi[19] və 1923-cü il iyulun 7-də bölgədə Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması haqqında qərar[20] qəbul edildi. Bu tarixdən sonra keçmiş SSRİ və Azərbaycan SSR Konstitusiyası və qanunlarında da 1921-ci il qərarı əsas götürüldü. Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasının 55-ci maddəsi və Sovet İttifaqının 1936-cı il Konstitusiyasının 24-cü maddəsi DQMV-ni Azərbaycan SSR-in tərkibində müəyyən edirdi.[21] 1936-cı il Konstitusiyasından sonra 1937-ci il martın 14-də qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasına əlavələr edildi. Bu yeni əlavələrdə də keçmiş DQMV Azərbaycan SSR-in bir parçası olaraq qəbul edilmişdi.[22]

Lakin bu qərarlar ermənilərin Qarabağa qarşı ərazi iddialarından imtina etməsinə səbəb olmadı. XX əsrin 20-30-cu illərində Dağlıq Qarabağın kəndlərində ermənilərlə azərbaycanlılar arasında etnik münaqişələr davam edirdi. Bu münaqişələr azər-

19 К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР (1918-1920). Баку: Азербайджанское Государственное Издательство, 1989. Редактор: Д.П.Гулиева “Из протокола заседания пленума Кавбюро НК РКП(б)”, с. 92

20 Yenə orada, s. 152.

21 Gülşen Paşayeva, İrade Bağırova ve diyerleri. SSCB`de Yarı Özerkliğin hukuki durumu: Dağlık Karabağ Özerk Bölgesi Örneği. // Uluslararası Suçlar ve Tarih, 2013, Sayı: 14, ss. 69-103, s. 74-75, s. 83.

22 Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası.- https://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf, (02.04.2024), s. 41

baycanlıların kəndləri kütləvi şəkildə boşaltmasına səbəb oldu. Bu dövrdə Azərbaycanın digər bölgələrində yaşayan ermənilər öz xahişləri ilə Dağlıq Qarabağa yerləşdirildilər. Bu yerdəyişmə bölgənin etnik tərkibinin yenidən dəyişməsinə səbəb oldu. 1917-ci ildə regionda 97.800 erməni (52.3%) və 85.800 (40.2%) azərbaycanlı yaşadığı halda, 1926-cı il əhalinin siyahıyaalınmasına əsasən, regionda yaşayan 116.274 nəfərin 108.48-i (93.3%) erməni, 7.188-i (6.2%) azərbaycanlı, 604 nəfəri (0,5%) digər etnik qruplardan ibarət idi.[23]

Digər tərəfdən, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan SSR-ə verilməsi, Ermənistandakı Azərbaycan toponimlərinin və hətta əhali balansının ermənilərin lehinə dəyişdirilməsi qonşu dövlətdə hər zaman Dağlıq Qarabağı Ermənistana birləşdirmək ümidinin qorunmasına səbəb oldu. Lakin İkinci Dünya müharibəsindən əvvəlki dövrdə Ermənistan SSR rəhbərləri üçün erməni kimliyini formalaşdırmaq və iqtisadiyyatını inkişaf etdirmək əsas hədəflərdən birini təşkil edirdi. Belə ki, 1974-1988-ci illərdə Ermənistan SSR Kommunist Partiyasının birinci katibi Karen Dəmirçiyan erməni elitası daxilində millətçiliyin xüsusiyyətləri haqqında danışarkən qeyd edirdi: “Kommunistlər əvvəlcə 1920-ci ildə Ermənistanı məhv olmaqdan xilas etdilər. Onlar Ermənistanı aslanın və timsahın ağzından aldılar. Sonra onlar respublikanı qurdular. 1930-cu ilə qədər Ermənistanın kommunist liderləri milli kimlik və milli inkişaf düşüncəsini formalaşdırdılar. Birinci katiblər və digərləri bunun üçün çalışdılar. Biz ölkəni güclü müstəqilliyə hazırladıq. Beləliklə, ən vacib olan bir-iki şeyi etdik: a. Milli kimliyin özünəməxsusluğunu qorumaq; b. güclü iqtisadiyyatı olan ölkə qurmaq. Bu, xüsusilə 1960-cı illərdə daha çox görünürdü”.[24]

23 Gülşən Paşayeva, İradə Bağırova və digərləri. Göstərilən məqalə, s. 74-75.

24 Razmik Panossian. Post-Soviet Armenia, Nationalism and its (dis) contents. /Edit. Lowell Barrington, After Independence Making and Protecting the Nation in Postcolonial and Postcommunist States, University of Michigan Press; First Edition (March 31, 2006), pp. 225-247.

Xaricə köçən erməni siyasi partiyaları isə uydurma "erməni soyqırımı", "Böyük Ermənistan" kimi məsələləri yazılı mətbuat, müəyyən təşkilatlanmalar və gənc nəsillər arasında apardıqları təbliğat vasitəsilə davam etdirdilər. Erməni diasporu üzrə mütəxəssis Ara Sanjyana görə, Livanda fəaliyyət göstərən hər üç erməni siyasi partiyasının - Erməni İnqilabi Federasiyası (Daşnaksütyun), "Hnçak" və "Ramkavar"ın fəaliyyətlərində irredentist duyğular (Türkiyə və Azərbaycana qarşı ərazi iddiası) yüksək səviyyədə idi. İrredentizm hər üç partiyanın ideologiyasının əsasını formalaşdırmışdı.[25]

Ermənistanın boşeviklər tərəfindən ələ keçirilməsindən sonra buradan qovulan daşnaklar Yaxın Şərqə, əsasən də Livana yerləşdilər. Burada digər iki erməni siyasi partiyası olan "Hnçak" və "Ramkavar" ilə siyasi mübarizəyə başladılar. Daşnaklar Beyrutda Osmanlıdan köç edən ermənilər arasında antitürk təbliğatı aparmaq üçün siyasi cəhətdən münbit bir şərait tapdılar. Nəticədə, ərəb millətçiləri ilə əməkdaşlıq edərək ciddi bir siyasi qüvvəyə çevrildilər.[26] O dövrdə həm SSRİ-Türkiyə münasibətlərinin yaxşı olması, həm də bolşeviklər tərəfindən hakimiyyətdən qovulması səbəbindən onlar SSRİ-yə qarşı rəqib mövqedə idilər.

Ramkavarlar və hnçaklar SSRİ-nin varlığını Ermənistanın təhlükəsizliyi üçün vacib bir hadisə olaraq görürdülər. Şant Markaryana görə, "ramkavarlar danışıqlara, kompromislərə və siyasi müzakirələrə inanırdılar, lakin daşnaklar daha sərt metodların tərəfdarı idilər. Daşnaklar ramkavarları ideologiyaya sahib olmamaqda, ramkavarlar isə daşnakları ifrat və barışmaz fikirləri si-

25 Ara Sanjian. Homeland-Diaspora Relations under Khrushcev and Brezhnev: Soviet embassy reports from Beirut on the Armenian Community in Lebanon 1959-1982. / Edit. Michael Bruneau, İoannis Hassiotis, Martine Hovanessian et Claire Mouradian, Arméniens et Grecs en diaspora: approaches comparatives, Actes du colloque européen et international à l'École française d'Athènes, Athènes, 2007, pp. 273-282, p. 275.

26 Ronald Grigory Suny. Looking Toward Ararat; Armenia in Modern History, Indiana University Press, 1993, pp. 219-221

yasətə alət etməkdə günahlandırırdılar".[27] Sosial demokrat Hnçak Partiyası isə ümumiyyətlə sosializmin tərəfdarı idi. Bəzi "hnçaklar" praktiki olaraq kommunist idilər, eyni partiyada olan digərləri isə kommunizmə sadiq deyildilər.[28]

Erməni diaspor təşkilatları arasında davam edən liderlik uğrunda siyasi mübarizə bir müddət sonra silahlı qarşıdurmaya çevrildi. Bu da erməni siyasi həyatında şiddətin varlığını və lazım gələndə silahdan istifadə etməkdən çəkinməməyin mövcudluğunu göstərirdi. Belə ki, Ermənistanın sovetləşməsindən sonra daha çox eyni maraqları bölüşən hnçaklar və ramkavarlar daşnaklara qarşı vahid koalisiyada birləşdilər. 1926-cı ildə Yeparxiya Şurasına keçirilən seçkilərdə "Daşnaksütyun" səslərin əksəriyyətini qazandı. Müxaliflər isə seçkiləri ədalətli saymayaraq daşnakları səsləri manipulyasiya etməkdə ittiham etdilər. Lakin hnçakların və başqalarının narahatlığına məhəl qoymayan katolikos seçkilərin nəticələrini təsdiqlədi. Seçilmiş hnçak nümayəndələri seçkiləri boykot etməkdənsə, Şura daxilində "Daşnaksütyun"la mübarizəni davam etdirmək qərarına gəldilər. Nəticədə, 1926-cı il sentyabrın 28-də daşnak nümayəndələrindən Vahan Vardapetyan ölü tapıldı. Daşnakların ən qəddar əleyhdarlarından biri olan hnçakçı Mihran Ağazaryan həbs olunaraq Vardapetyanın ölümündə ittiham olundu.[29]

Vahan Vardapetyanın öldürülməsindən üç il sonra daşnaklar 1929-cu ilin yanvarında hnçak üzvü olan Sarkis Dxrunini (Sargis Txruni) öldürdülər. Bir neçə ildən sonra növbəti siyasi sui-qəsd baş verdi. Vardapetyanın qətlində şərik olduğu iddia-

27 Shant Markarian. The Origins and Developments of Armenian Nationalist Sentiment in Soviet Armenia. Indiana University South Bend, 1989, p. 71.

28 Ara Sanjian. Armenians and the Global Cold War: History, Memory and Legacies, Center for Western Armenian Studies /16.10.2018/ - https://cfwas.org.uk/2018/10/12/armenians-and-the-global-cold-war-history-memory-and-legacies/ (27.12.2023)

29 Vahe Sahakyan. Between Host-Countries and Homeland: Institutions, Politics and Identities in the Post-Genocide Armenian Diaspora (1920s to 1980s), Doctor of Philosophy (Near Eastern Studies) in the University of Michigan 2015, p.222.

sına görə bir neçə il həbsdə yatan Mihran Ağazaryan 1933-cü ilin oktyabrında güllələndi.[30] Eyni ilin dekabr ayının 24-də isə Nyu-Yorkda, Müqəddəs Xaç Erməni Apostol Kilsəsində ABŞ Erməni Apostol Kilsəsinin Şərq Yeparxiyasının primatı seçilmiş arxiyepiskop Levon (Gevond) Turyan Milad mərasimi zamanı öldürüldü. Cinayətkarların hamısı Daşnaksütyun Partiyasının üzvləri idi. Qətlə səbəb 1933-cü il iyulun 1-də Çikaqoda keçirilən sərgidə "Erməni Günü"nün qeyd edilməsi zamanı dua etmək üçün gələn arxiyepiskop Turyanın 1918-1920-ci illərdə mövcud olmuş müstəqil Ermənistan Respublikasının bayrağının zala gətirilməsinə icazə verməməsi oldu. Çünki o, sovet Ermənistanındakı mövcud hakimiyyəti narazı salmaq istəmirdi. Turyan Eçmiədzində Müqəddəs Taxt-tacın mənəvi nüfuzunu tanıdı, bunun üçün sovet hakimiyyəti ilə yaxşı münasibətlər saxlamaq vacib idi, lakin daşnaklar arxiyepiskopun hərəkətlərini xəyanət hesab edirdilər. Bu qətl erməni diasporunda ciddi parçalanmaya səbəb oldu. Beləcə xaricdə yaşayan və İkinci Dünya müharibəsindən sonra Ermənistan SSR-ə köçən ermənilər arasında silahdan istifadə etmək təcrübəsi davam edirdi. Bu kimi hadisələr erməni diasporunda radikallığın varlığını göstərirdi.

İkinci Dünya müharibəsindən əvvəl və müharibə illərində erməni diasporu arasında radikallığı və radikal millətçiliyi qoruyub saxlayan digər bir hadisə isə daşnakların Nasist Almaniyası ilə əməkdaşlıq etməsi oldu.  Ceyms Rasselə görə, Ermənistandan xaricə gedən daşnaklar daha da radikallaşaraq, İkinci Dünya müharibəsindən əvvəl ultramillətçi və faşist ideologiya ilə yaxınlaşdılar.[31] Hələ İkinci Dünya müharibəsindən əvvəl Qərbdəki erməni diasporu Nasist Almaniyası ilə əməkdaşlıq etməyə başlamışdı. Burada xüsusilə daşnakların həm italyan, həm

30 Yenə orada, s. 224.

31 James R. Russell. Remembering an Unsung Hero of the Holocaust Era. // Armenian Mirror-Spectator, September 17, 2022, p.18.

də alman faşistlərlə Sovet İttifaqına qarşı əməkdaşlığından bəhs olunur.

İkinci Dünya müharibəsi zamanı sovet ordusuna qarşı mübarizə aparmaq üçün daşnakların iki lideri - Qaregin Nijde və Dro Kanayan Avropada Hitler Vermaxtında erməni legionerlərini formalaşdırırdılar.[32] 1941-ci ildə Nasist Almaniyası Krımda və Şimali Qafqazda erməni legionerlərdən ibarət erməni batalyonu formalaşdırdı. 1942-ci ilin yayına qədər artıq bir neçə belə batalyon təşkil edilmişdi və Ermənistanın sonuncu müdafiə naziri olan Dro ləqəbli Drastamat Kanayan onlara rəhbərlik edirdi. Vermaxtın təsdiqi ilə yaradılmış bu batalyonlarda 20 minə yaxın erməni döyüşçünün olduğu məlumdur.[33]

İkinci Dünya müharibəsində gənc millətçi ermənilər Berlin, Münhen, Buxarest, Sofiya və digər Avropa şəhərlərində sovet ordusuna qarşı "Tseqakron"[34] təşkilatları yaratmışdılar. "Tseqakron"un əsası 1934-cü ildə ABŞ-da türklərə qarşı vuruşmaq üçün daşnak liderlərindən Qaregin Nijde[35] tərəfindən qoyulmuşdu. Əsas hədəflərindən biri "türklərdən intiqam almaq" olan "Tseqakron" Avropada yaşayan ermənilər üçün özəl məktəblər açdı. Bu məktəblərdə "Böyük Ermənistan" təbliğatı aparılırdı. Nasistlərin sənədlərində Türkiyə və Azərbaycanın birləşməsi ilə ortaya çıxacaq pantürkizmə qarşı "Böyük Ermənistan"ı dəstəkləməyi ermənilər qarşılarına məqsəd qoymuşdular. Bu

32 Yenə orada, s.18.

33 Houri Berberian. From Nationalist-Socialist to National Socialist? The Shifting Politics of Abraham Giulkhandanian. /In Bedross Der Matossian, ed. The First Republic of Armenia (1918-1920) on Its Centenary: Politics, Gender, and Diplomacy. Fresno: Armenian Series of The Press at California State University, Fresno, 2020, p.73

34 1932-ci ildə ABŞ-a səfər edən Nijde burada erməni icmalarını gəzərək daşnakların xeyrinə təbliğat aparır, eyni zamanda üzvləri gənc daşnaklardan ibarət olan "Tseqakron" adlanan bir təşkilat yaradır. "Tseqakron" irqə pərəstiş etmək və onun saflığını qorumaq nasizm-hitlerizmə bərabərdir. Beləliklə, Njde özünün "Tseqakron"u ilə erməni reallığında faşizmi təbliğ edirdi. Bax: Ваче Овсепян. *Гарегин Нжде и КГБ*: *воспоминания разведчика*, Нораванк, Ереван, 2007, с. 23

35 "Nijde" ləqəbi ilə tanınan Ter-Arutyunyan Qaregin Eqişeviç 1886-cı ildə Naxçıvanda anadan olub. 1944-cü il oktyabrın 12-də Sovet Əks-kəşfiyyyat Baş İdarəsi tərəfindən həbs olunub. 1948-ci ildə haqqında 25 illik həbs qərarı çıxarılıb.

səbəbdən "Böyük Ermənistan"ın bufer zona olaraq yaradılması istənilirdi.[36]

Sovet İttifaqı da bu dövrdə xaricdəki erməni diasporundakı tərəfdarları olan ramkavar və hnçaklara təsir etmək siyasəti həyata keçirirdi. Eçmiədzində keçirilən katolikos seçkiləri ilə birlikdə Sovet İttifaqının məqsədinin ABŞ-dakı erməni diasporuna təsir etmək olduğu ortaya çıxdı.[37] Əslində bu, öz-özlüyündə sonrakı illərdə Sovet İttifaqı ilə erməni diasporu və Ermənistan SSR-in gündəmə gətirdiyi tələblər arasındakı əlaqəni ortaya qoymaq baxımından kifayət edirdi.

Bu dövrdə kilsənin yenidən fəaliyyətə başlaması onun aktiv şəkildə təbliğat aparmasına fürsət yaratdı. 1942-ci ilin sonunda Ermənistandakı bağlı kilsələr açıldı və 1938-ci ildən sürgündə de-fakto katolikos olan Gevorq Çörəkçyan Sibirdən gətirilərək, 1945-ci ildə Kremldə Stalin tərəfindən qəbul edildi. 1943-cü ilin aprel ayında Eçmiədzində seminarların təşkili və nəşr olunmuş materialların yayımlanmasına icazə verildi.[38] Bundan sonra Moskva digər kilsələr kimi Eçmiədzin katolikosluğuna xüsusi imtiyazlar verdi. Kilsənin vahid dini hakimiyyətinin qəbul edilməsi Sovet İttifaqının erməni məsələsindən öz məqsədləri üçün istifadə etmək imkanına malik olması demək idi.[39] 16-25 iyun 1945-ci il tarixində dünyanın bir çox yerindən erməni din xadimləri və nümayəndələri Ermənistana gələrək Eçmiədzin katolikosu Gevorqu rəsmən katolikos seçdilər. Seçilən katolikos VI Gevorqun ilk addımı Stalinə məktub göndərərək ermənilərin Ermənistana köçürülməsi və Türkiyədən torpaqların alınmasını

36 Mehmet Perinçek. Nazi - Dashnak Collaboration During World War II. // Center for Eurasian Research, Turkish-Russian Academics A Historical Study on the Caucasus. Terazi, April 2016, pp. 199-232.

37 İki ölkə arasında 1925-ci ildə "Dostluq və tərəfsizlik haqqında müqavilə" imzalanmışdır. Bu müqavilə 1929-cu ildə 2 il, 1931-ci ildə 4 il, 1935-ci ildə isə 10 il uzadılmışdı. Bax: Erel Tellal. Relations with USSR. / Ed. Turkish Foreign Policy, 1919-2006. Translated. Aksin Mustafa. University of Utah Press, 2010, pp. 298-310, p.298-299.

38 Ronald Grigory Suny. Göstərilən əsər, s.224-225.

39 Ali Arslan. Kadim Ermeni Papalığı, Eçmiyazin Kilisəsində Stratejik Savaşlar. İDİL, İstanbul, 2013, s. 155

istəməsi oldu. [40]

Eyni ildə nasist hərbi rəhbərliyi Erməni Milli Komitəsi (EMK) yaratdı. Bu komitəyə Berlin Universitetinin professoru Artaşes Abeğyan rəhbərlik edirdi. Abeğyan daşnakların tanınmış iki lideri - Qaregin Nijde və Vahan Papazyanı da Şuraya dəvət etdi. Komitə eyni zamanda Berlin radiosunda təbliğat məqsədilə həftədə bir dəfə erməni dilində yayımlanan veriliş açdı.[41] Bundan başqa, EMK erməni legionerlərin nasistlərin bayrağı altında döyüşməsinin təbliğatını aparmaq məqsədilə həftəlik “Azad Hayastan” (1943) və “Hayastan” (1942-1943) jurnallarını nərş edirdi. [42]

İkinci Dünya müharibəsindən sonrakı dövrdə Ermənistan SSR-də millətçi düşüncəni dəstəkləyən başqa bir amil isə müharibədə Sovet İttifaqı tərəfindən iştirak edən ermənilər oldu. Bu müharibədə minlərlə erməninin ölməsi Ermənistan SSR-də millətçiliyin artması səbəbləri arasında göstərilir. Nəticədə, İkinci Dünya müharibəsindən sonrakı dövrdə Ermənistanda “Böyük Ermənistan” düşüncələrinin və müzakirələrinin artmasına səbəb olan Stalinin Türkiyədən Ermənistan üçün ərazi tələblərinə qədər Ermənistanda millətçilik atmosferi mövcud idi. Ermənilərin xaricdən Ermənistana köçürülməsi ilə birlikdə diaspordakı millətçilik də Ermənistana öz təsirini göstərdi. Bununla yanaşı, diaspor erməniləri özləri ilə birlikdə Ermənistana şiddəti də mübarizə vasitəsi olaraq gətirdilər.

Nəticədə, Dağlıq Qarabağı “Böyük Ermənistan”ın bir parçası olaraq görən erməni millətçiləri Sovet İttifaqının qurulmasından İkinci Dünya müharibəsinə qədər fərqli cəbhələrdə “Böyük Ermənistan” düşüncəsi uğrunda yeni müttəfiqlər axtarışında oldular. “Böyük Ermənistan” ideologiyasını müdafiə edənlər arasında xü-

40 Ronald Grigory Suny, Göstərilən əsər, s.163.
41 Vahe Sahakyan, Göstərilən əsər, s. 254-255.
42 Houri Berberian, Göstərilən məqalə, s. 72-74.

susilə daşnakların bu prosesdə aktivliyi qorundu. Eyni zamanda rəsmi Ermənistan "Böyük Ermənistan" düşüncəsindən imtina etmədi. Erməni yazar Ara Sanjyan bunu "məcburi basdırılmış hisslər"[43] olaraq ifadə edirdi.

## 1.2. İkinci Dünya müharibəsindən sonra "Böyük Ermənistan" düşüncəsinin canlanması

İkinci Dünya müharibəsində Almaniyanın təslim olmasından iki ay əvvəl SSRİ-nin xarici işlər naziri Vyaçeslav Molotov Türkiyə Respublikasının Moskvadakı səfiri Səlim Sarperlə görüşündə Sovet İttifaqının 1925-ci il dekabrın 17-də Parisdə iki tərəf arasında imzalanan və 1945-ci ildə müddəti bitən "Türkiyə-Sovet İttifaqı tərəfsizlik və dostluq müqaviləsi"ni yeni şərtlər əsasında imzalamaq istədiyini bildirdi. Sovet İttifaqı Türkiyədən 1921-ci il Qars müqaviləsi ilə Türkiyəyə geri qaytarılan Qars və Ərdahanın Sovet İttifaqına verilməsini, həmçinin İstanbul boğazlarına birgə nəzarət etməyi istəyirdi.

SSRİ erməni məsələsini yenidən qaldıraraq, Türkiyəyə qarşı ərazi və digər iddialarını irəli sürərək Qərb ictimaiyyətinin dəstəyini və diqqətini cəlb etmək məqsədilə istifadə etdi. İlk hazırlıqlar 1944-cü ilin mart-aprel aylarında Moskvanın diaspor ermənilərindən yardım alması ilə başladı. Bu, Sovet İttifaqının 1925-ci il müqaviləsindən rəsmən imtina etməsindən bir il əvvəl baş verdi. Bunun ardından Sovet İttifaqının təşəbbüsü, təşviqi və dəstəyi ilə 1945-ci ilin aprelində Erməni Milli Komitəsi San-Fransiskoda Birləşmiş Millətlər Təşkilatına (BMT) Ermənistan məsələsi ilə bağlı memorandum təqdim etdi. Digər təşkilatların, 11 ayrı-ayrı amerikalı erməninin, o cümlədən Leon

43 Ara Sanjian, Irredentism at the Crossroads of Nationalism, Communism and Diverging Interpretations of the Soviet Experience: The Armenian Diasporan Press on Mountainous Karabagh, 1923-1985, https://entriessas.com/articles/armenian-diaspora/ (06.01.2021).

Surmeliyan və Aram Saroyan kimi şəxslərin, ABŞ Nümayəndələr Palatasının 12 üzvünün, xüsusilə də Bertrand V. Gearhart (CA) və onların səylərinə rəğbət bəsləyən digər şəxslərin köməyi ilə diaspor erməniləri "Amerika ictimai rəyini almaq və ABŞ hökumətinə təsir etmək üçün" çalışırdılar. ABŞ-dakı erməni diasporunun bu fəaliyyətləri Trumen Doktrinası dövrünə də rast gəlindi və məqsəd Trumen Doktrinasının reallaşmasına mane olmaqdan ibarət idi.[44] Bu tarixdə sadəcə Sovet İttifaqı ermənilərdən öz məqsədi üçün istifadə etmədi, eyni zamanda ermənilər də soyuq müharibə dövrünün şərtləri üzrə Sovet İttifaqına dəstəyini göstərdi.[45] Təbii ki, bu da istər diaspor ermənilərinin, istərsə də Ermənistan SSR-də yaşayan ermənilərin Türkiyə və Azərbaycana qarşı tələblərini daha rahat bir şəkildə dilə gətirməsinə cəsarət verdi.

Armenik Manukyana görə isə İkinci Dünya müharibəsindən sonra erməni millətçiliyinin yenidən yüksəlməsinin bəzi səbəbləri oldu. Erməni xalqı öz milli yaddaşında erməni soyqırımı, tarixi Ermənistan ərazilərinin itirilməsi ideyalarını daşıyıb və məhz bu ideyaların dirçəldilməsi sayəsində dissident və antisovet təşkilatları yaradıb. İkinci Dünya müharibəsindən sonra isə ziyalılar sayəsində Sovet Ermənistanında baş verən siyasi proseslər faktiki olaraq erməni cəmiyyətində, xüsusən də ziyalılar arasında millətçilik ideyalarının formalaşmasına öz töhfəsini verdi. Vətənpərvərlik dalğasının kifayət qədər yüksəldiyi İkinci Dünya müharibəsində erməni xalqının iştirakı vətənpərvərlik haqqında çoxsaylı ədəbiyyatın və milli əsərlərin yaradılmasına səbəb oldu. Erməni apostol kilsəsinə təzyiqlər bir qədər azaldı.

Bundan başqa, Sovet Ermənistanı rəhbərliyi və partiya fəalları

44 Christopher Gunn, The Armenian Question, TASAM, Coastal Carolina University, https://tasam.org/Files/Icerik/File/STR68_The_Armenian_Question.pdf_163fa574-f93b-4b6f-880d-7b392af4d444.pdf , 26 May 2014. p. 4-5

45 Suleyman Seydi, "Armenian Question in the Early Cold War, Repatriation Scheme", Review of ARMENIAN STUDIES, Number 3, Volume 1 – 2003. pp. 42-55.

üçün çox ümidverici fakt idi ki, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra sovet rəhbərliyi diplomatik iş apararaq, Türkiyənin bir hissəsini Ermənistana birləşdirməyə çalışırdı. Ermənistan Kommunist Partiyası (bolşeviklər) MK-nın birinci katibi Qriqor Arutinovun Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı ərazi iddiası irəli sürməsi də erməni ziyalılarının millətçi baxışlarının və hətta Ermənistanın işğalçılıq siyasətinin həyata keçirilməsinə sübutdur. Təbii ki, xarici ölkələrdən Sovet Ermənistanına köçürülüb gətirilmiş yüz min diaspor ermənisi 1946-1948-ci illərdə milli hisslərin yüksəlməsinə təkan verdi.[46]

Amerika, Balkan və Yaxın Şərqdəki erməni diaspor təşkilatları Moskvadan ilhamlanaraq bir neçə dəfə dünya liderlərinə - Çörçilə, Atliyə, Trumenə, Stalinə və dünya təşkilatlarına Qars və Ərdahanın "qanuni sahiblərinə" qaytarılmasını tələb edən məktublar yazdılar.  Suriya və Livandakı Erməni Milli Şurası 1945-ci ilin sentyabrında Beyrut, Hələb, Dəməşq və Zahleldə toplantılar təşkil etdi. Yunanıstan və Bolqarıstanda təşkilatlanaraq geri qayıtmaq üçün hazırlıqlar gördülər.[47]

İkinci Dünya müharibəsindən sonra SSRİ-Türkiyə münasibətlərinin yenidən diqqət mərkəzinə gətirilməsi və SSRİ-nin Türkiyəyə qarşı tələbləri Ermənistanda da "Böyük Ermənistan" iddialarının gündəmə gəlməsinə səbəb oldu. Belə ki, Ermənistan hökuməti xaricdən gətiriləcək erməniləri Türkiyədən alınacaq ərazilərə yerləşdirmək istəyirdi. 1945-ci ilin may ayında Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Qriqor Arutinov İosif Stalinə məktub yazaraq xaricdə yaşayan ermənilərin gətirilməsi üçün xüsusi komitənin yaradılmasını və onlar üçün maliyyə yardımlarının ayrılmasını təklif etdi.[48]

46 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting
Civil Protests in Soviet Armenia: Equal but Different? // Journal of Political Science: Bulletin of Yerevan University, Vol. 1 (3), December 2022, pp. 73-89, pp.76-77.

47 Süleyman Seydi, Göstərilən əsər, s.48-49.

48 Məktubun orijinal versiyasını aşağıdakı linkdən əldə edə bilərsiniz: https://global.oup.com/us/com-

Lakin Ermənistanın iddiası yalnız Türkiyə ərazilərini deyil, eyni zamanda Azərbaycan SSR ərazilərini də əhatə edirdi. 1945-ci il oktyabrın 27-də Arutinov Stalinin qəbulunda olarkən xaricdə yaşayan 300 min ermənininin köçmək istədiyini, lakin ilk növbədə onların yerləşdirilməsi üçün Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsini istəmişdi.[49] 1945-ci il dekabrın 10-da Azərbaycanın ovaxtkı rəhbəri M.C.Bağırov Q.Arutinovun məktubuna cavab olaraq bildirmişdi ki, Şuşa istisna olmaqla, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə o vaxt razı olar ki, Ermənistanda əhalisinin azərbaycanlıların üstünlük təşkil etdiyi Əzizbəyov, Vedi və Qarabağlar rayonları Azərbaycana birləşdirilsin.[50] Bundan sonra Ermənistan SSR rəhbərliyinin Qarabağla bağlı tələbləri müvəqqəti səngimiş, əvəzində azərbaycanlıların Ermənistandan deportasiya edilməsi məsələsi ciddiləşmişdi. 1949-cu ildə Sovet Ermənistanın rəhbəri Q.Arutinov yenidən İ.Stalinə müraciət edərək Dağlıq Qarabağ məsələsinin müzakirə olunmasını xahiş etmişdi. Lakin M.Bağırovun və L.Beriyanın səyləri nəticəsində bu məsələnin müzakirəsi "yersiz və məqsədəuyğun olmayan" hesab edilmişdi.[51]

Sovet İttifaqının Türkiyəyə qarşı ərazi iddiası ilə gündəmə gəlməsi daşnaklarla Sovet İttifaqının münasibətlərində yaxınlaşma yaratdı. İkinci Dünya müharibəsində erməni diasporunda sovet tərəfdarlığının zirvəyə çatmasının başqa bir səbəbi də müttəfiq dövlətlərin antisovet təbliğatını dayandırması və an-

panion.websites/fdscontent/uscompanion/us/static/companion.websites/9780197605769_kane/19.1_Armenian_leaders_write_to_Stalin_1945.pdf (29.12.2023).

49 Nazim Mustafa. 1988-ciilədək Dağlıq Qarabağ Muxtar Vilayətində sosial-iqtisadi vəziyyət Azərbaycanın digər regionlarından aşağı səviyyədə olub. /Redaktorlar: N. Mustafa, A.Qurbanov və E.Əlili. Erməni saxtakarlığı: Yalan üzərinə qurulan tarix. Bakı, 2018, ss. 208-222, s.209.

50 Nazim Mustafa. Azərbaycan xalqına qarşı böyük ədalətsizlik – 1948-1953-cü illər deportasiyası. // "Xalq qəzeti", 23 dekabr 2022-ci il, № 281, s. 10.

51 Nazim Mustafa. 1988-ciilədək Dağlıq Qarabağ Muxtar Vilayətində sosial-iqtisadi vəziyyət Azərbaycanın digər regionlarından aşağı səviyyədə olub. s. 209.

tifaşist Qərb müttəfiqlərinin Sovet İttifaqını alqışlaması idi.[52] Bu səbəbdən İkinci Dünya müharibəsindən əvvəl və müharibə illərində Sovet İttifaqına qarşı olan Daşnaksütyun Partiyasının prioritetlərində 1943-1947-ci illərdə dəyişiklik edildi və partiya İkinci Dünya müharibəsinin başa çatmasından sonra Ermənistan sərhədlərinin genişləndirilməsinə mümkün töhfəsi baxımından sovet hakimiyyətinə isti münasibət göstərdi. Müstəqil Ermənistan Respublikasının dördüncü və sonuncu baş naziri (1918-1920) Simon Vrasyan Sovet Ermənistanı ilə bağlı bu yeni Erməni İnqilabi Federasiyası (Daşnaksütyun Partiyası) perspektivinin formalaşmasında mühüm rol oynadı.[53]

Arutinovun məktubundan sonra xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi məqsədilə bir proqram hazırlandı və köç başladı. Sovet erməni repatriasiya komitəsi 1948-ci il yanvarın 20-nə kimi 86.364 “repatriantın” gəldiyini sənədləşdirdi. O cümlədən Suriya və Livandan 32.238, Bolqarıstandan 4383, İrandan 20.597, Rumıniyadan 1783, Yunanıstandan 18.215, Fransadan 5260, Misirdən 1669, ABŞ-dan 1250, Fələstindən 851 və Çindən 16 erməni gətirildi.[54] 1946-1949-cu illər arasında on iki müxtəlif ölkədən 89.750 ermənin üçdə birindən çoxu ərəb ölkələrindən gəlmişdi.[55] Bunların sırasında İran və Livan xüsusən Daşnaksütyun Partiyasının güclü olduğu ölkələr idi. Rumıniya və Bolqaristanda isə İkinci Dünya müharibəsində Hitler Almaniyası tərəfindən erməni gənclərdən ibarət faşist komitələri yaradılmışdı. Qısacası, hər iki tərəfdən gələnlərlə birlikdə radikal millətçi düşüncələr Ermənistan SSR-ə gətirilmişdi. Bu mənada, 1947-ci ildən etibarən köç edən ermənilərin bir çoxu daşnak və ABŞ

52 Ronald Grigory Suny. Gösdərilən əsər, s. 223-224.
53 Ara Sanjian. Armenians and the Global Cold War: History, Memory and Legacies.
54 Jo Laycock. Belongings: People and Possessions in the Armenian Repatriations 1945 – 1949. // Kritika: Exploration in Russian and Eurasian History, 18 (3), pp. 511-537.
55 Ara Sanjian. Armenian Immigration to the USSR from Arab Countries (1946–1949). /Ed. Eileen Kane, Masha Kirasirova, Margaret Litvin, Russian-Arab Worlds: A Documentary History, Oxford University Press.

agenti olmaqda günahlandırılaraq cəzalandırılmışdır. Amerikalılar üçün antisovet fəaliyyət proqramı işləyib hazırlayan daşnak liderlərindən olan Vahan Navasardyanın fikrincə, Daşnaksütyun Partiyası Sovet İttifaqına köçürülən ermənilərdən öz agentlərini göndərmək məqsədilə istifadə etdi və bütün bunlar terrorçu-təxribatçı və qatı millətçi məqsədlər güdürdü.[56]

Daşnaksütyun Partiyasının qəzeti olan "Aztaq" iddia edir ki, "repatriasiya" qərarı ermənilərin mənsubiyyət hissini yeniləşdirəcək və əvvəllər vahid Ermənistanın reallaşmasına mane olan bütün prosesləri qlobal miqyasda sürətləndirəcək. Eyni zamanda, "Aztaq" Türkiyə vilayətlərinin Ermənistan Respublikasına qaytarılması üçün "repatriasiyanın" kafi tələb olub-olmadığını soruşurdu. Bu mənada daşnakların birinci hədəfi Türkiyə ərazilərinin Ermənistan SSR-ə birləşdirilməsi tələbini gündəmə gətirmək idi.[57]

Erməni diaspor təşkilatları 1946-1948-ci illərin "repatriasiyasının" Qars və Ərdahan bölgələri hesabına sovet ərazisinin genişlənməsini nəzərə alaraq həyata keçirildiyini güman edirdilər. Erməni diasporunun Ermənistan SSR-ə köçürülməsi daşnakların diaspor daxilində təkrar aktivləşməsi üçün fürsət yaratdı.[58]

Bu köçürülmələrin azərbaycanlılar üçün ən mənfi nəticəsi isə Ermənistanda, tarixi torpaqlarında yaşayan azərbaycanlıların öz torpaqlarından çıxarılması oldu. 1948-1953-cü illərdə İosif Stalin Azərbaycanın Kür-Araz ovalığında pambıqçılıq sənayesinin inkişaf etdirilməsi bəhanəsi ilə azərbaycanlıların Ermənistandan köçürülməsinə icazə verdi. Nəticədə, 110 min azərbaycanlı Ermənistandan köçürülərək Azərbaycanın Kür-Araz ovalığına yerləşdirildi.[59]

56 Musa Qasımlı. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları, 1920-1994-cü illər./ Elmin İnkişafı Fondu, 2016, s. 267.

57 Nairi Mercadanti. Nerkaght and the Concept of Homeland, Armenia. // Caucaso e Asia Centrale Ricerche, 2022, Eurasiatica 19, pp. 143-160, pp. 151-152.

58 Ara Sanjian. Armenian Immigration to the USSR from Arab Countries (1946–1949), pp. 211-245.

59 Fərid Şəfiyev. Rusiya-Sovet məskunlaşdırma siyasəti və Cənubi Qafqazda münaqişə. Bakı, 2021. / Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi/, s 209-210

## 1.3. "Böyük Ermənistan" üçün yeni müttəfiq axtarışı

Sovet İttifaqı ilə erməni diasporu və xüsusən daşnaklar arasında müsbət ab-hava uzun müddət davam etmədi. Bir tərəfdən Ermənistan SSR-ə köçən ermənilərin arzu etdiyi şəraiti tapa bilməməsi, digər tərəfdən SSRİ-nin Türkiyədən torpaq ala bilməməsi münasibətlərin təkrar pisləşməsinə səbəb oldu. Sovet İttifaqının dəstək verdiyi kampaniya 1946-cı ilin yazında pik həddə çatdı, lakin həmin ilin payızına qədər sovetlər və ermənilər nə Qərb ictimai rəyi, nə Birləşmiş Millətlər Təşkilatı, nə də güc təhdidi ilə öz səylərində uğur qazana bildilər. R.Melkonyan və V.Ter-Matevosyan öz məqalələrində qeyd edirlər ki, yerlərdəki mövcud faktlar, Moskva ilə onun səfirlikləri arasında yazışmaların təhlili, o cümlədən Sovet Ermənistanı ilə Avropa, Yaxın Şərq və Şimali Amerikadakı diaspor qurumları ilə rəsmi yazışmalar Sovet İttifaqının Qars və Ərdahan ərazilərini geri almaq üçün dəqiq strategiyasının olması iddialarını şübhə altına alır. Faktlar göstərir ki, Sovet İttifaqı "erməni məsələsi" ilə manipulyasiya etmək və Türkiyəyə qarşı ərazi iddiaları irəli sürməkdə səhv hesablanmış geosiyasi məqsədlər güdürdü. Sovet rəhbərliyi "erməni soyqırımı"ndan sağ çıxanları öz böyük geosiyasətində alət kimi istifadə etməkdən heç vaxt çəkinməyib.[60]

Ermənilər arasında Türkiyədən ərazi tələblərinin bir geosiyasi oyun olmasına dair şübhələr var idi, eyni zamanda sovet hakimiyyətində də xaricdən köçürülən ermənilərə qarşı şübhələr artmağa başlamışdı. Ermənilərin köçürülməsi prosesinin dayandırılmasından sonra isə Sovet İttifaqının ermənilərə qarşı mövqeyi də dəyişdi. Buna səbəb bir tərəfdən köçürülən ermənilərin gözlədiyi şəraiti tapa bilməməsi, ideoloji qarşıdurma və "Böyük Ermənistan" arzuları idi. Daşnaklar bu köçürülmədə böyük rol almasalar da, onlar da bu prosesə dəstək vermişdilər.

60 Ruben Melkonyan & Vahram Ter-Matevosyan. Stranded in geopolitics: the question of Turkish Armenians in Soviet-Turkish Relations. // Middle Eastern Studies, 20.04.2020, PP. 1-12. p. 5

1948-ci il sentyabrın 1-də Batuma gələn və göyərtəsində 2000-ə yaxın ermənini daşıyan sovet "Pobeda" ("Qələbə") gəmisində 42 nəfərin ölümü ilə nəticələnən yanğın baş verdi. Sentyabrın 13-də Stalin Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Georgi Malenkova teleqram vuraraq, hadisənin ABŞ-a işləyən erməni casuslarının işi olduğunu bildirdi.[61]

İki gün sonra, 1948-ci il sentyabrın 15-də Malenkov Stalinə bir daha teleqram vuraraq bildirdi: "Nazirlər Soveti fərman verdi ki, xaricdən ermənilərin repatriasiyası dərhal dayandırılsın və indi Ermənistana qayıtmış ermənilərin haradan gəldiklərindən asılı olmayaraq, Ermənistana girişi qadağan edilsin".[62] Belə bir şəraitdə 1948-ci ilin sonundan etibarən ermənilərin repatriasiyası dayandırıldı. Xaricdən gələn ermənilərin qanunsuz hərəkətlərinə dair sübuta ehtiyac yox idi. 1949-cu ildə minlərlə erməni Altay bölgəsinə sürgün edildi və bir çoxu Qulaq həbsxanalarına salındı.

Köçürülən ermənilərin içində daşnak düşüncəsinin daşıyıcılarının varlığı Gürcüstan və Azərbaycanda getdikcə artan narahatlığa səbəb oldu. Nəticədə, 1949-cu il aprelin 4-də Siyasi Büro "Ermənistan və Azərbaycan SSR-də yaşayan daşnakların deportasiyası" barədə qərar qəbul etdi. Daha sonra Gürcüstan SSR-də də oxşar qərar qəbul edildi.[63]

İkinci Dünya müharibəsindən sonra isə Türkiyəyə qarşı ərazi iddiası irəli sürdüyü üçün Sovet İttifaqı ilə əməkdaşlıq edən daşnaklar daha sonrakı dövrdə Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ilə əməkdaşlığı seçdi. Əlbəttə, erməni diasporundakı ifrat millətçilik regionda geosiyasi maraqlarını qorumaq istəyən dövlətlərə onlardan istifadəni asanlaşdırırdı.

61 Fərid Şəfiyev. Rusiya-Sovet məskunlaşdırma siyasəti və Cənubi Qafqazda münaqişə. Bakı, 2021. / Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi/, s 209-210.

62 Nona Shahnazarian. Letters from the Soviet 'Paradise': The Image of Russia among the Western Armenian Diaspora, Journal of Eurasian Studies. Volume 4, Issue 1, January 2013, pp. 8-17, pp. 11-12.

63 Fərid Şəfiyev. Göstərilən əsər, s. 215.

1947-ci ildə Daşnaksütyun Partiyasının Qahirədə keçirilən 14-cü Konqresində emiqrasiyaya qarşı olanlar "Ermənistanın ərazi genişləməsi reallaşmadığı müddətdə emiqrasiyanın dayandırılmasını" istədilər. Bu fikirayrılığı daşnaklar arasında parçalanmaya və Beyrut küçələrində onlarla aktivistin bir-birini öldürməsinə səbəb oldu. Bundan sonra daşnaklar general Dronun ABŞ ilə əlaqələr yaratmasına köməklik etdilər. Soyuq müharibənin başlaması ilə daşnaklar ABŞ-da artan antisovet atmosferindən də faydalandılar. 1951-ci ildə Daşnaksütyun Partiyasının 15-ci Konqresində Sovet İttifaqına və kommunistlərə qarşı "Azad dünya" ilə əməkdaşlıq etməklə bağlı qərar qəbul etdilər.[64] Bu baxımdan daşnak Ermənistanının keçmiş müdafiə naziri Dro ABŞ ilə görüşmələrə başladı. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin arxiv sənədində qeyd olunur ki,[65] 1952-ci il yanvarın 8-də general Dro Daşnaksütyun Partiyasının iki üzvü ilə birlikdə Vaşinqtona gələrək ABŞ-ın Dövlət Departamenti və Müdafiə Nazirliyinin nümayəndələri ilə 7 görüş keçirdi. Burada keçirdiyi görüşlərdə Dro Daşnaksütyun Partiyasının 1951-ci ildə Misirdə ABŞ ilə əməkdaşlıq etməyə qərar verdiyini, bu barədə İngiltərə və Fransanın da məlumatlandırılmasını diqqətə çatdırdı. ABŞ daşnaklarla daha çox Sovet İttifaqına qarşı birgə mübarizə aparmaq üçün əməkdaşlıq etməyə, Dro isə daha çox "Azad, müstəqil və birləşmiş Ermənistan" mövzusunda dəstək almağa çalışırdı. Görüşdə ABŞ-ın səlahiyyətli şəxsləri bu mövzulara dəstək verməmişdi, lakin Sovet İttifaqına qarşı əməkdaşlıqda Yaxın Şərqdəki erməni diasporuna dəstək verməyə razı olmuşdu. Burada xüsusən ABŞ ilə silahlı şəxslərin hazırlanması və Sovet İttifaqına qarşı gizli kəşfiyyat məsələləri ilə bağlı bəzi məsələlər razılaşdırılmışdı.

64 Suny. Göstərilən əsər, s. 226.

65 Conversation with General Dro. - https://www.cia.gov/readingroom/docs/KANAYAN%2C%20DROSTAMAT_0014.pdf, (17.12.2023)

Bu vəziyyət Yaxın Şərqdə ABŞ və Sovet İttifaqı arasında başlayan soyuq müharibə ilə əlaqədar idi. Hər iki tərəf özünə loyal olan qruplar vasitəsilə regionda güclü olmaq arzusunda idi. 1953-cü ildə İosif Stalinin ölümündən sonra Nikita Xruşşovun baş nazirliyi xüsusilə Yaxın Şərqdə yaşanan soyuq müharibə rəqabətinin ən gərgin illərinə təsadüf etdi. Bu, qismən ona görədir ki, onun administrasiyası 1947-ci ildən sonra Stalin administrasiyasının nisbi şəkildə ayrılmasından fərqli olaraq, "Üçüncü dünya" adlanan dövlətlə əlaqə yaratmağa can atırdı. Xruşşovun siyasətinə Yaxın Şərqdə və başqa yerlərdə diaspor erməniləri ilə əlaqə də daxil idi. Bununla belə, Amerika hökumətinin Livandakı erməni diasporu ilə əlaqələrini də "soyuq müharibə" kontekstində nəzərdən qaçırmaq olmaz. Həqiqətən də, qərbyönümlü Livan hökuməti 1957-ci ildə Amerikanın köməyi ilə milli seçkiləri saxtalaşdırarkən, qismən Daşnaksütyun Partiyasının köməyinə arxalanmışdı. Beyrutdakı seçki dairələri elə qurulmuşdu ki, Daşnaksütyun Partiyasının erməni ardıcıllarının səslərindən ölkənin ovaxtkı prezidentinin qərbyönümlü siyasətinə qarşı çıxan sünni müsəlman icmasının pan-ərəbist namizədlərini məğlub etmək üçün istifadə etsinlər.[66]

Nəticədə, Sovet İttifaqının Türkiyəyə qarşı ərazi iddiasından imtina etməsi xüsusən daşnakların yeni müttəfiq axtarışına səbəb oldu. Bu dəfə Yaxın Şərqdə ortaya çıxan soyuq müharibə baxımından daşnaklar və Yaxın Şərqdəki digər erməni siyasi qruplar ABŞ və Sovet İttifaqının diqqətini çəkdi. Ermənilər isə bu vəziyyətdən öz "Azad, müstəqil və birləşmiş Ermənistan" tələblərini hər iki tərəfə qəbul etdirmək, Azərbaycan və Türkiyəyə qarşı təbliğatda güclü olmaq üçün istifadə etdilər.

66 Ara Sanjian. How Are Diasporans Informed About Contemporary Armenia?, Policy Forum Armenia's 2nd Annual Forum "Armenia-Diaspora Relations", Georgetown University, Washington, DC, March 1, 2010. - https://www.pf-armenia.org/sites/default/files/uploads/pfa_uploads/Diaspora_Forum/Sanjian-Diaspora_Armenia.pdf (accessible 27.12.2023).

# II FƏSİL. ERMƏNİSTANDA MİLLİ REABİLİTASİYA DÖVRÜ VƏ ARTAN MİLLƏTÇİLİK

## 2.1. Ermәni dissidentlәrindә millәtçilik xüsusiyyәtlәri

1953-cü ildә İ.Stalinin vәfatı keçmiş SSRİ tarixindә bir növ dönüş hesab olunur. Əvvәllәr qadağan olunmuş müxtәlif mәsәlәlәr vә problemlәr müzakirә mövzusu oldu. Bütün bunlar milli hәrәkatın formalaşmasında mühüm rol oynayan vә sonradan xalqın müәyyәn bir tәbәqәsi arasında "Azad, müstәqil vә birlәşmiş Ermәnistan" ideyasının yaranmasına sәbәb olan millәtçi diskursun inkişaf etmәyә başladığı Sovet Ermәnistanından da yan keçmәdi. Mötәdil formada millәtçi diskurs açıq şәkildә mövcud oldu vә hәtta rәsmi sferaya da nüfuz etdi.[67] Yeni dövrdә, o cümlәdәn Sovet Ermәnistanında sosial vә ideoloji transformasiya axınında dәyişikliklәrlә nәticәlәndi.

Stalinizmin sona çatması vә Xruşşov dövrü ilә birlikdә Ermәnistanda siyasi iradә etnik millәtçilik şәklindә tәzahür etmәyә başladı. Bu dövrdәn etibarәn ermәni diskursu bir neçә tezis әtrafında birlәşdi: 1915-ci il hadisәlәrinin "soyqırım" olaraq tanınması; Türkiyәdәn әrazilәrin "geri alınması"; ermәni milli kimliyinin qorunub saxlanılması; Qarabağ vә Naxçıvanın Ermәnistan SSR-ә birlәşdirilmәsi. Əslindә, bu yeni dövr 1988-ci ildә başlayan Birinci Qarabağ müharibәsinә gedәn yolun başlanğıcı oldu. Bu dövrdә daha çox hnçakların istifadә etdiyi kütlәvi mitinqlәr, Moskvaya petisiyaların yazılması vә kütlәvi fikir ifadә etmә metodlarından istifadә edildi.

Nikita Xruşşov dövründә destalinizasiya, rәhbәrliyin dәyişmәsi vә ya mәdәni azadlıqların möhkәmlәndirilmәsi şüarları

67 Suren Manukyan. Возникновение националистического дискурса и подпольного движения в Армении в начале 1960-ых годов. - https://ge.boell.org/en/2006/09/24/vozniknovenie-nacionalistichesko-go-diskursa-i-podpolnogo-dvizheniya-v-armenii-v-nachale#_ftn35, (24.09.2006)

ermənilər üçün münbit şərait formalaşdırdı. Bu həm də mərkəzin - Moskvanın periferiyaya, yəni respublikalara nəzarətinin azalması demək idi. Yerli məmurlara yerli məsələlərdə daha çox səlahiyyət verildi. Erməni tarixçi Qriqori Suni bu dövr barədə yazır: "Dolayısilə idarəçilik" dövrü başlamışdı və sonrakı iyirmi ildə bir çox başqa respublikalardakı milli elitalar kimi erməni elitası da bu fürsətdən istifadə edərək respublika daxilində öz mövqelərini möhkəmləndirmək, dəstəyini artırmaq məqsədilə yerli millətçiliyə güzəşdə getdi".[68] Qriqori Suni Sovet İttifaqı daxilində iki millətçiliyin olmasından bəhs edir: ortodoks və ya rəsmi millətçilik və ortodoks olmayan, yəni dissident millətçilik. Suniyə görə, Stalindən sonrakı millətçilik ortodoks olmayan dissident millətçilikdir və İttifaq respublikalarının milli elitaları etnik çoxluğun həssaslığına güzəştə gedərək əhali arasında dəstək bazası yaratma istəyi bu millətçiliyin təməl xüsusiyyətidir. Lakin bunu Moskvanın icazə verdiyi limitlər daxilində həyata keçirdilər. Suni davam edərək yazır: "Sovet İttifaqında 1960-1980-ci illərdə qarışıq bir millətçilik mövcud oldu: rəsmi millətçilik və dissident millətçilik. Ermənistanda bu iki millətçiliyin də qarışığı var idi. Bu mənada Ermənistandakı millətçilik Baltik ölkələri, Ukrayna və Gürcüstandan fərqli olaraq antisovet deyil, antitürk xüsusiyyətə sahib idi. Uzun müddət Sovet İttifaqına sadiq millət idi".[69]

Xruşşov ilə birlikdə erməni radikal millətçilərini cəsarətləndirən başqa bir hadisə isə Stalinin yol yoldaşı, lakin Xruşşovun yüksəlməsini dəstəkləyən erməni əsilli Anastas Mikoyanın Sovet İttifaqı baş nazirinin birinci müavini və Xruşşovun yaxın məsləhətçisi olması oldu. Çünki Mikoyan Xruşşovun birinci katib olmağını dəstəkləmişdi.[70]

68 Ronald Grigory Suny. Göstərilən əsər, s. 181.
69 Yenə orada, s.185-186.
70 Anastas İvanovich Mikoyan. - https://www.britannica.com/biography/Anastas-Ivanovich-Mikoyan, (21.12.2023).

Anastas Mikoyan Bakıda qırğınlar törədən Stepan Şaumyanın ən yaxın tərəfdarı və dəstəkçisi idi. Şaumyanın ölümündən sonra onun düşüncələrini yaşatmaq məqsədilə məqalələr yazmışdı. Mikoyanın həyatı və fəaliyyəti haqqında doktorantura işini yazan Pietro Şakaryana görə, Şaumyanın bu günə qədər Ermənistanda xatirəsinin yaşamasında Mikoyanın böyük rolu olmuşdur.[71] Şakaryana görə, Anastas Mikoyan sovet hakimiyyətində olduğu dövrdə rəsmi siyasətə sadiq qalmış, Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsini birbaşa tələb etməmişdir. Lakin dolayı yolla bu məsələyə müdaxilə etmiş və bu düşüncəni müdafiə edən millətçi ermənilərin Ermənistanda hakimiyyətdə qalmasına köməklik göstərmişdir. Bu mənada 1954-cü il martın 11-də İrəvandakı çıxışında fərqli bir mövqe ortaya qoyan sovet rəsmi liderlərindən olmuşdu. Şakaryana görə, Mikoyanın 1954-cü ildəki çıxışı əvvəla 1965-ci il İrəvan mitinqinə, daha sonra isə 1988-ci il Qarabağ azadlıq mübarizəsinə aparın yolun başlanğıcı idi.[72]

Anastas Mikoyan Sovet İttifaqının millətlər siyasətində köklü dəyişikliklərin formalaşdırılmasında və müəyyənləşdirilməsində yaxından rol aldı. Mikoyan daha çox assimilyasiyaya qarşı inteqrasiya mövqeyini müdafiə edirdi. Bu isə yerli millətçiliyin dəstəklənməsi mənasına gəlirdi. Mikoyanın Sovet İttifaqının Üçüncü Partiya Proqramının millətlər platformasının hazırlanmasında əsas rol oynaması Sovet İttifaqının yeni millətlər siyasətinə dərindən təsir etdi. O, həmçinin 1960-cı illərdə Xruşşovun Konstitusiya komissiyasının Millətlər, siyasət və milli quruculuq üzrə alt komitənin sədri vəzifəsində çalışaraq, sovet dövlətində mərkəzi hakimiyyətin nəzarətini azaldan islahatlar həyata keçirirdi. Şübhəsiz ki, Mikoyanın milliyyət məsələsi ilə

71 Pietro Annanias Shakarian. An Armenian Reformer in Khrushchev's Kremlin Anastas Mikoyan and the Politics of Difference in the USSR, 1953-1964, The Ohio State University 2021, Dissertation, p.18.
72 Yenə orada, s.18.

bağlı işi sovet mərkəzi siyasətinin zəifləmə və mərkəzdənqaçma istiqamətində ümumi tendensiyanı əks etdirirdi.

Anastas Mikoyan 1954-cü ilin martında İrəvana gələrək bəyan etdi ki, erməni tarixinin keçmişində “millətçi” kimi məhkum edilmiş böyük şəxsiyyətlər indi reabilitasiya olunacaqlar. Bu çıxışdan sonra Ermənistan SSR-də Raffi və Patkanyan[73] kimi millətçi yazıçıların əsərləri yayılmağa başladı. Bu şəxslər artıq milli mədəniyyətin nəhəngləri hesab olunurdu. Mikoyan hətta otuzuncu illərin “təmizləmə” prosesində həlak olmuş şair Çarensi müdafiə etdi və qısa müddət sonra onun adı məktəblərdən birinə verildi.[74] Leninin “Yeni iqtisadi siyasəti” dövründə Sovet Ermənistanının lideri Aleksandr Myasnikyanın xatirəsinin təkrar yad olunması yeni dövrün reabilitasiya siyasətinin bir parçası idi.[75]

Qeyd etdiyimiz erməni millətçilərinin əsərlərinin yayılması, ictimaiyyət arasında artan millətçilik hissləri və Mikoyanın rolu Sovet Ermənistanı rəhbərliyini də cəsarətləndirdi. Məhz bu onillikdə Xaçik Daştents, Hovhannes Şiraz, Paruyr Sevak, Sero Xanzadyan, Silva Kaputikyan və başqaları məşhur simalara çevrildi. Vahram Ter-Matevosyan bildirir ki, “onların kitabları və şeirləri çox oxundu, yayıldı və müzakirə edildi. Onların ədəbi əsərləri ümid, qətiyyət və əzm aşılayan yeni bir şəxsiyyət yaratmağa kömək etdi. Üstəlik, 1969-cu ildə Ermənistanda Hovhannes Tumanyanın və Komitasın anadan olmasının 100 illiyi qeyd olundu. Bu, milli oyanışa öz töhfəsini verdi”.[76]

---

73 Raffi adı ilə tanınan Hakob Melik Hakobian 1833-cü ildə İranın Səlmas bölgəsində anadan olub. “Böyük Ermənistan” ideyasının tərəfdarı olan Raffi İran, Rusiya çarlığı və Osmanlı ermənilərinin birləşməsini müdafiə edirdi. 1888-ci ildə vəfat edib.
Rafael Patkanian isə 1830-cu ildə Naxçıvanda anadan olub. O da ermənilərin Osmanlıdan müstəqillik əldə etməsini dəstəkləyib. 1892-ci ildə vəfat edib.

74 Ronald Grigory Suny. Göstərilən əsər, s. 180-181.

75 Pietro A. Shakarian. Yerevan 1954: Anastas Mikoyan and Nationality Reform in the Thaw, 1954-1964. Peripheral Histories (12.11.2021).

76 Vahram Ter-Matevosyan. The Legacy of the First Republic of Armenia during the Soviet Era: The Tumultuous 1960s. - https://armenianweekly.com/2018/05/27/the-legacy-of-the-first-republic-of-armenia-during-the-soviet-era-the-tumultuous-1960s/ (17.05.2018). (accessed 26.12.2023).

Bu dövrdə Sovet Ermənistanında millətçilik hisslərinin yüksəlməsinə iki məşhur idman hadisəsi də öz töhfəsini verdi. 1963-cü ildə Tiqran Petrosyan Mixail Botvinniki məğlub edərək şahmat üzrə dünya çempionu oldu. 1966-cı ildə Petrosyan titulu daha üç il müddətinə uğurla müdafiə etdi. Onun qələbəsi Ermənistanda sevinc və təntənəyə səbəb oldu, yeni doğulanlara onun adı verildi. O, Ermənistanda şahmatı məşhurlaşdırdı. Digər mühüm hadisə isə 1973-cü ildə İrəvanın "Ararat" futbol komandasının Ermənistanın yeni tikilmiş "Hrazdan" stadionunda Sovet İttifaqının Premyer Liqasında SSRİ çempionu olması və kuboku qazanması zamanı baş verdi.[77]

Bu tarixdə erməni kimliyi və tarixi ilə bağlı məsələlərə böyük maraq oyandı. Uşaq adlarının qeydiyyatı ilə məşğul olan Vətəndaşlıq Qeydiyyatı Agentliyi qeyri-erməni adları qəbul etməkdən çəkinir, əvəzinə erməni adlarının istifadəsini təşviq edirdi. Cütlüklər kilsədə evlənməyə başladılar. Bu, əvvəlki onilliklərlə müqayisədə olduqca qeyri-adi bir hadisə idi.

"Erməni soyqırımı" ilə bağlı arxiv sənədlərini ehtiva edən ilk araşdırmalar ortaya çıxdı. Erməni tarixinə, mədəniyyətinə və kimliyinə artan marağın başqa bir təzahürü muzeylərə gələnlərin sayı ilə bağlı idi: 1960-cı ildə cəmi 96.000 ziyarət olmuşdusa, 1970-ci ilə qədər ziyarətlərin sayı 525.000-ə yüksəlmişdi.[78]

Sovet hakimiyyəti də xüsusilə ictimai yerlərdə simvolizmin gücünə könülsüz təslim oldu. Hələ 1959-cu ildə erməni əlyazmalarının saxlanc yeri olan Matenadaranın tikintisi başa çatmışdı. Elə həmin il İrəvanda, dəmir yolu vağzalının qarşısında erməni milli eposunun əfsanəvi qəhrəmanı Sasunlu Davidin abidəsi ucaldıldı. 1962-ci ildə İrəvandakı Qələbə parkından Stalinin nəhəng heykəli götürüldü və beş ildən sonra onun yerinə

77 Yenə orada
78 Yenə orada

İrəvanın hər yerindən görünən eyni dərəcədə böyük “Anam Ermənistan” heykəli qoyuldu.[79] İki illik tikintidən sonra 1967-ci ildə Tsitsernakaberddə “Soyqırım memorialı”nın açılışı oldu. 1968-ci ildə Moskva ilə bir sıra müzakirələrdən sonra Mərkəzi Komitənin birinci katibi A.Koçinyan sovet liderlərini Urartu Erebuninin (indiki İrəvanın) 2750 illik yubileyinin qeyd edilməsinin zəruriliyinə inandırdı. Həmin il Sərdarabad memorialının tikintisinə başlanıldı və bu onillikdə daha bir dönüş nöqtəsi oldu. İl yarım davam edən tikintidən sonra “Hrazdan” futbol stadionu da istifadəyə verildi. Tezliklə Avarayr döyüşünün xatirəsinə abidənin ucaldılmasına icazə verildi. V əsrdə baş vermiş həmin döyüşdə erməni generalı Vardan Mamikonyanın atının üstündə və əlində qılıncla təsvir edilmiş heykəli onun xalqını toplayıb düşmənə atəş açması təəssüratını yaradır. 1975-ci ildə açılan bu abidə mübarizənin və ümidin güclü təzahürünə çevrildi.[80]

Belə bir şərait Qarabağın yurisdiksiyasının Ermənistana verilməsi tezislərini dəstəkləyən irredentist erməniləri cəsarətləndirdi. “Anastas Mikoyan və erməni millətçiliyi” mövzusunda doktorluq dissertasiyası yazan Pietro Şakaryan müsahibələrinin birində bildirir: “Ermənistan SSR-də hakimiyyətdə olan Qarabağ erməniləri DQMV-də sosial-iqtisadi vəziyyətin çətinləşməsi məsələsinə Mikoyanı inandıra bildilər. Mikoyan Qarabağın yurisdiksiyasının Sovet Ermənistanına verilməsi ideyasına getdikcə daha çox müsbət baxdı və Sovet Ermənistanının liderləri Qriqori Arutinov və Anton Koçinyanın bu bölgələrin Ermənistana birləşdirilməsi haqqında ardıcıl təşəbbüslərini dəstəklədi”.[81] Nəticədə Mikoyan Qarabağın Ermənistana birləşdirilməsi üçün Moskvada məsələ qaldırmağa başlasa da,

79 Ronald Grigory Suny. Looking Toward Ararat; Armenia in Modern History, Indiana University Press, 1993, p.181.

80 Vahram Ter-Matevosyan. Göstərilən əsər.

81 Anastas Mikoyan. Armenia and Karabakh: Q&A With Pietro Shakarian. - https://www.civilnet.am/en/news/381020/anastas-mikoyan-armenia-and-karabakh%D6%89-qa-with-pietro-shakarian/ (17.09.2020).

Xruşşovdan dəstək ala bilmədi. Yuri Pompeyevin yazdığına görə, 1964-cü ilin əvvəlində SSRİ Ali Sovetinin sədri A.Mikoyanın Krımın Ukraynaya müvəffəqiyyətlə təhvil verilməsini hesaba qataraq, DQMV-nin Ermənistana birləşdirilməsi təklifinə Xruşşovun cavabı belə olmuşdur: "Bir gün ərzində DQMV ermənilərinin Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını verməyə hazıram".[82] Əslində Mikoyan özü birbaşa nəticə əldə edə bilmədiyi üçün Qarabağ və Naxçıvanın Ermənistan SSR-ə birləşdirilməsi tələblərini Ermənistan SSR rəhbərləri imza toplama və ərizələrlə gündəmə gətirməyə üstünlük verirdi.

Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə Sov.İKP MK-nın baş katibi  Nikita Xruşşova edilən müraciətə 1961-ci ildə Qarabağın Ermənistana birləşdirilməsi haqqında rədd cavabı verilmişdi. Buna baxmayaraq, 1963-cü ildə Dağlıq Qarabağ və ətraf rayonlarda yaşayan 2500 erməninin imzası ilə N.Xruşşova yenidən məktub göndərilmişdi. Məktubda qeyd olunurdu ki, DQMV və ətraf rayonların Ermənistana, yaxud RSFSR-in tərkibinə birləşdirilməsi məsələsi həll edilsin.[83]

Ümumiyyətlə, Ermənistan SSR-dəki liderlərin hamısı millətçi proseslərin ortaya çıxardığı şəxslər olmuşdur. Qriqori Suniyə görə, bunlardan üçü ən çox hörmət görənlər idi: Yakov Zarobyan (1960-1966), Anton Koçinyan (1966-1974) və Karen Dəmirçiyan (1974-1988). Partiyanın keçmiş yüksək səviyyəli liderlərindən biri Ermənistan SSR rəhbərlərinin rolunu belə izah edirdi: "İyerarxiyada fərdin rolu çox mühüm idi. Zarobyan respublikanı milliləşdirməyə başladı. Liderlər və ziyalılar "milli olanı" tapmaq üçün diaspora və kilsəyə üz tutdular. Xaricdəki erməni diaspor nümayəndələri üçün Ermənistan SSR-ə gəlmək

82 Помпеев Ю. Кровавый омут Карабаха. Баку,1992, с. 11.
83 Nazim Mustafa. 1988-ci ilədək Dağlıq Qarabağ Muxtar Vilayətində sosial-iqtisadi vəziyyət Azərbaycanın digər regionlarından aşağı səviyyədə olub.  s. 209-210.

daha rahat oldu. Moskva bunu partiya və DTK vasitəsilə edə bilirdi, lakin az iş gördü və müəyyən azadlıqlara icazə verdi. Məsələn, Dəmirçiyan müəyyən yerli azadlıqlara malik bir qubernator kimi görünürdü; yuxarıdan və aşağıdan gələn təzyiqi balanslaşdırdı".[84] Təbii ki, bir ölkənin liderinin xalqın milli dəyər və varlıqlarının qorunması istiqamətində addımlar atması təqdirəlayiqdir. Amma Ermənistan SSR-də qəribə olan o idi ki, bu insanlar başqa qonşu xalqın torpaqlarını ələ keçirmək üçün çalışır və ictimaiyyət arasında bu düşüncələrin möhkəmlənməsinə xidmət edən siyasət həyata keçirirdilər.

## 2.2. Ermənistan SSR daxilində daşnakların təsirinin artması

İkinci Dünya müharibəsindən sonra xaricdəki ermənilərin Ermənistan SSR-ə köçürülməsi zamanı hnçaklar və ramkavarların kütləvi köçü baş verdi. Daşnaklar bu köçürmədə ciddi rol oynamadı. Sonradan ələ keçirilənlər sürgünə və ya geri göndərildi. Lakin daşnaklar Ermənistan SSR-in daxilinə nüfuz etmək üçün ruhdan düşmədilər və nəticədə, bu imkanı Xruşşov dövründə əldə etdilər. Lakin bir daha vurğulamaqda fayda var ki, Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsi və 1915-ci il hadisələrinin soyqırım olaraq tanınması istiqamətində bu üç siyasi partiya arasında fərq yoxdur. Bunların arasındakı fərq yalnız SSRİ-yə münasibətdə və "mübarizə" metodunda olmuşdur.

Sovet İttifaqının erməni diasporu ilə əməkdaşlığa marağı Xruşşov dövründə artdı və Brejnev dövründə davam etdi. Bu əlaqələrin artmasına səbəb ABŞ ilə üçüncü dünya ölkələri, xüsusən Yaxın Şərqdə artan rəqabət oldu. Sovet İttifaqı soyuq müharibə dövründə erməni diasporunun imkanlarından istifadə

84 Razmik Panossian. The Armenians: From Kings and Priests to Merchants and Comissars, Hurst and Company. London, 2006, pp. 282-283

etməyə çalışırdı. Bu, diasporun Ermənistan SSR ilə əlaqələrinin və Ermənistan SSR-in daxili siyasətinə təsirinin artması ilə nəticələndi.

1959-cu ildən etibarən diaspor ilə münasibətlərdə Ermənistan SSR-in Xarici İşlər Nazirliyi aktiv rol almağa başladı. 1960-1980-ci illərdə erməni diasporunun güclü şəkildə təşkilatlandığı Livanın paytaxtı Beyrutdakı sovet səfirliyində 1, 1980-1985-ci illərdə 3 və 1986-1991-ci illərdə isə 2 erməni diplomat fəaliyyət göstərirdi. [85] Onların əsas vəzifələri bu ölkədəki erməni diaspor nümayəndələri ilə yaxından əməkdaşlıq etmək, onların SSRİ-yə rəğbətini və əməkdaşlığı artırmaq idi.

Stalin dövründə münasibətlərin korlanmasına baxmayaraq, daşnakların Ermənistan SSR üzərində ideoloji təsirləri davam edirdi. Amerikalılar üçün antisovet fəaliyyət proqramı işləyib hazırlayan daşnak liderlərindən biri Vahan Navasardyanın fikrincə, daşnaklar Cənubi Qafqazda, xüsusən kommunistlərin hakimiyyətdə olmasına baxmayaraq, Ermənistanda təsirlərini qoruyub saxlamışdılar.[86] Daşnakların və ya xaricdəki erməni diasporunun Ermənistan SSR-də təsirini qoruyub saxlamasında SSRİ-nin də onlarla əməkdaşlıq etmək istəməsi əhəmiyyətli rol oynadı. Nəticədə, erməni siyasi partiyaları qlobal gücün mənbəyi olan Yaxın Şərqdəki ərəb ölkələrində, İranda, Avropada və ABŞ-da güc və təsir imkanlarına sahib oldular. Sovet hakimiyyəti diaspordakı erməniləri, o cümlədən daşnakları öz tərəfinə çəkmək üçün erməni millətçiliyindən istifadə etməyə də cəhd edirdi. Buna misal olaraq müharibənin sonlarına yaxın Bolqarıstanda Sovetlər tərəfindən əsir düşmüş və nasistlərlə əməkdaşlıq etdiyi üçün Sibirdə həbsxanaya salınmış Qaregin Nijdeni göstərmək olar. O, 1952-ci ildə Sibirdən İrəvana gətirildi və ondan Simon Vrasyana məktub yaza-

85 Ara Sanjian. Homeland-Diaspora Relations under Khrushcev and Brezhnev, p. 275.
86 Musa Qasımlı. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları, 1920-1994-cü illər. Elmin İnkişafı Fondu, Bakı, 2016, s.267.

raq, iki dövlət arasında gələcəkdə müharibə başlayacağı təqdirdə, özünün və daşnak yoldaşlarının Sovet İttifaqı adından Türkiyəyə qarşı döyüşməyə hazır olub-olmadığını soruşmağı xahiş etdilər.[87] Daşnakpərəst yığıncaqlar kilsənin qalan hissəsindən ayrıldı və 1950-ci illərdə Eçmiədzin də Müqəddəs Taxt-tacın tabeliyindən ayrılaraq Kilikiya Katolikosunun hakimiyyəti altına keçdi.

1950-ci illərin ikinci yarısından etibarən erməni diasporu üstündə təsirini artırmaq istəyən sovet hakimiyyəti diaspor gənclərinə üstünlük verirdi. Onların Sovet İttifaqına gəlməsi və burada təsir altına salınması üçün fəaliyyətlər göstərirdilər. Lakin bunun tərs effekti yaranır və daşnakların Sovet Ermənistanına təsiri artırdı. 1950-ci illərin ikinci yarısından etibarən Sovet Ermənistanına gələn turistlərin təəssüratları da çoxalırdı. Onlar Ermənistana səfərləri haqqında kitablar, mətbuatda silsilə məqalələr yazır və ictimai mühazirələrdə aktiv iştirak edir, tamamilə olmasa da, əsasən sovet nailiyyətlərinə rəğbət bəsləyirdilər. Bununla belə, sovet erməni vətəndaşları ilə diaspor erməniləri arasında üzbəüz təmaslar vasitəsilə diasporda toplanmış məlumatlar da, xüsusilə 1950-ci illərin ortalarından sonra əhəmiyyətli olmuşdur. Bunlara diaspor kollec tələbələri və Ermənistana gələn hələ də xaricdə yaşayan qohumları tərəfindən dəvət edilmiş turistlər və əsasən 1970-ci illərdən etibarən Ermənistanı tərk edərək Kaliforniyaya yerləşən, lakin Sovet İttifaqında qaldıqları müddətdə öz təcrübələrini açıq şəkildə bildirməyən daha böyük bir qrup (əsasən Yaxın Şərq) repatriantlar tərəfindən verilən məlumatlar daxildir. Diasporda Sovet Ermənistanı ilə bağlı həm rəğbət, həm də tənqidi fikirlər haqqında əldə edilən məlumatlar, bir qayda olaraq, diaspor rəyçiləri tərəfindən davam edən və antisovet tərəfdarı və antisovet siyasi bölünmədə öz mənbələrinə əsaslanaraq işlənir və sonra yayılırdı. Hər iki düşərgədə rəy bildirənlər əvvəlcədən

87 Ara Sanjian. How Are Diasporans Informed About Contemporary Armenia?

müəyyən edilmiş siyasi və ideoloji gündəmlərinə uyğun gəlməyən müəyyən növ məlumatların yayılmasını məhdudlaşdırmağa üstünlük verirdilər.[88]

Ara Sanjyana görə, erməni diasporunun Ermənistan SSR-də gedərək artan təsiri "İrəvandakı elitaların repressiya edilmiş irredentist istəklərinin yenidən oyanmasına diasporun dəstək verməsi ilə nəticələndi. Sovet Ermənistanına dost olan hnçaklar, ramkavarlar və digər diaspor nümayəndələri tədricən ortaya çıxdı, Dağlıq Qarabağın və digər "daxili torpaqların ilhaqı" (internal lands) çağırışlarına qoşuldular".[89] Xüsusən Sovet İttifaqına dost olan "Hnçak" və "Ramkavar" partiyalarının mətbu orqanları SSRİ-nin daxili torpaqları adlandırdıqları Qarabağ və Naxçıvanın Ermənistan SSR-ə birləşdirilməsi məsələsini daha çox gündəmdə tutdular. Çünki onlar Türkiyədən ərazilərin əldə etdilməsi ümidini itirmişdilər və yeni ərazilər axtarışında idilər.

Livandakı erməni diasporunun aktiv üzvlərindən Simon Simonyan,[90] irəvanlı yazar Derenik Dəmirçiyan, Eçmiədzin şəhərində yerləşən bütün ermənilərin yeni, diaspor əsilli katolikosu I Vazgen, Beyrutdakı Ramkavar Partiyasının rəhbərliyi, o cümlədən Barunak Tovmasyan[91] və Beyrutda gündəlik "Hnçakyan" qəzetinin redaktoru Arsen Kitur "Ramkavar" və "Hnçak" siyasi gündəminin formalaşdırılmasında və daşnak olmayan mətbuatın sanballı mövzusu olması üçün Dağlıq Qarabağ və "daxili torpaqlar"[92] haqqında intellektual mühit formalaşdırdılar. Simon Simonyan VI Gevorqun dəfnində iştirak etmiş və İrəvanda Ermənistan Komunist Partiyasının birinci katibi Karen Dəmirçi-

88 Yenə orada
89 Ara Sanjian. Irredentism at the Crossroads of Nationalism, Communism and Diverging Interpretations of the Soviet Experience.
90 Livandakı erməni diasporunun aktiv üzvlərindən olan Simonyan 1954-ci ildə İrəvana gələrək Silva Kaputikyanla görüşmüşdü.
91 Tovmasyan 1947-ci ildə Beyrutdakı Tekeyan Mədəniyyət Dərnəyinin qurucularından olmuşdur. Dərnəyin məqsədi Ermənistanla mədəni və təhsil əlaqələrini genişləndirmək olmuşdur.
92 Sovet İttifaqı daxilində olan Naxçıvan və Qarabağ.

yanla görüşü zamanı bu məsələni müzakirə etmişdi. 1957-ci ildə Parunak Tovmasyan gizli şəkildə Sovet İttifaqına səfər etmiş və burada görüşlər keçirmişdi.  Bundan başqa, I Vazgen 1956-cı ilin fevral-may aylarında Livan, Misir, İtaliya, Fransa və Böyük Britaniyadakı diaspor icmalarına qastrol səfərindən qayıtdıqdan sonra Sovet İttifaqının baş naziri Nikolay Bulqaninə təqdim etdiyi memorandumda bu əraziləri Sovet Ermənistanı üçün təkrar istəmişdi. Ramkavarlar 1956-1957-ci illərdə Qarabağ məsələsini davam etdirmək qərarına gəldilər və Tovmasyan 1957-ci ilin avqust-sentyabr aylarında Sovet Ermənistanına gizli səfəri zamanı bu mövzunu yenidən gündəmə gətirdi. Bu, həmçinin Tovmasyanın Moskvada SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq Departamentinin rəhbəri vəzifəsini icra edən Daniel Solod ilə görüşündə də müzakirə edilən mövzulardan biri idi. İrəvanda Tovmasyan ilə görüşən Dəmirçiyan xüsusi olaraq diaspordakı erməni liderlərindən də xahiş etmişdi ki, "daxili torpaqlar" davasının lehinə açıq müraciət etsinlər və Sovet Ermənistanında bu məsələdə ciddi ehtiyac hiss edən, lakin bundan qorxan ziyalılara ürək-dirək versinlər.  Nəhayət, Arsen Kitur 1958-ci ilin sonlarında Ermənistana səfəri zamanı ictimaiyyət qarşısında "daxili torpaqlar" haqqında danışdı. Bundan sonra, 1959-cu ilin iyul-avqust aylarında Araratda, Kiturun və həmin ilin avqust ayından etibarən Simonyanın Sp'iwŕk'dakı[93] məqalələri Stalindən sonrakı dövrdə diaspor mətbuatında ilk dəfə hərtərəfli ictimai müzakirəyə səbəb oldu. Bu yazılar "daxili torpaqlar" və bu məqsədə çatmaq üçün müxtəlif vasitələrin effektivliyini tələb edirdi.[94]

1960-cı illərə qədər "repatriat" daşnaklar Sovet İttifaqında "Qərbin agentləri" adlandırılırdı. 1962-ci ildə ABŞ ilə Sovet İttifaqı arasında yaşanan Kuba böhranı Sovet İttifaqının antitürk

93 Beyrutda Simonyanın baş redaktoru olduğu həftəlik qəzet.
94 Ara Sanjian. Irredentism at the Crossroads of Nationalism, Communism and Diverging Interpretations of the Soviet Experience.

mövqeyə sahib olan daşnaklarla daha yaxından görüşmələrinə səbəb oldu. 1963-cü ildən etibarən Ermənistan SSR nümayəndələri ilə daşnaklar arasında müntəzəm görüşlər başladı. Sonradan Daşnaksütyun Partiyasının liderləri 1969-1988-ci illərdə İrəvan, Beyrut, Moskva və Cenevrədə 10 belə görüşün keçirildiyini etiraf etdilər.[95]

Bu illərdə erməni diasporunun siyasi partiyaları arasında gərginlik bir qədər səngiməyə başladı və bu, bir növ yumşalmaya gətirib çıxardı. Bu yumşalma diqqətin uydurma “erməni soyqırımı”nın tanınması, Türkiyədən təzminat tələbi və Sovet Ermənistanının qonşu Sovet Gürcüstanı və Sovet Azərbaycanının Qafqazdakı ərazi iddiaları ilə bağlı milli məsələlərə yönəldilməsi ilə əlaqələndirilə bilər. Bütün siyasi partiyalardan olan erməni diaspor nümayəndələri Sovet Ermənistanına mütəmadi səfərlər etməyə başladılar və Sovet Ermənistanında siyasi fəal şəxslər həm təkbətək, həm də petisiya vasitəsilə Qarabağın və Naxçıvanın ərazi məsələlərini qaldırdıqlarının şahidi oldular. Bundan əlavə, uydurma “erməni soyqırımı”nın tanınması təşəbbüsləri 1965-ci ildə uydurma “erməni soyqırımı”nın 50-ci ildönümü yaxınlaşdıqca, Sovet Ermənistanında ilk dəfə uydurma soyqırımı anma gününün keçirildiyi bir ildə sürətləndi. Bu məsələlər diaspor daxilində müxtəlif siyasi qrupların bir araya gəlməsi üçün katalizator oldu.[96] Beləliklə, soyuq müharibə diaspordakı müxtəlif erməni siyasi qrupları arasında münasibətləri və öz növbəsində bu qruplaşmaların hər biri ilə Sovet Ermənistanı arasında qarşılıqlı əlaqəni müəyyən edən faktor oldu.

Sovet dövründə qarşılıqlı olaraq məktubların, bağlamaların göndərilməsi və telefon danışıqları dayanmadı. Belə görünürdü ki, sovet nomenklaturası sovet ermənilərinin diasporla “burjua”

95 Ara Sanjian. Homeland-Diaspora Relations under Khrushcev and Brezhnev, p. 277.
96 Ara Sanjian. How Are Diasporans Informed About Contemporary Armenia?

əlaqələrindən çox da narahat deyil. Xruşşov dövründə və 1960-1970-ci illərdə Moskva çox az tədbir gördü və nədənsə inanırdı ki, bu əlaqələr bir damla ideologiya və ya burjua təbliğatı deyil, sadəcə olaraq qohumların söhbətidir. Rejim İrəvanda yastıqlar, sancaqlar, plastinkalar, siqaretlər və digər bu kimi "dəbdəbələr" kimi özünü yaxşı hiss etdirən "kapitalist" məmulatları satan zirzəmi mağazaların artmasına imkan verdi. Nəticədə, İrəvan bir burjua rahatlığı və nisbi rifah görüntüsü qazandı.[97]

Sovet hökumətinin 1964-cü ildə Diaspor Ermənilləri ilə Mədəni Əlaqələr Komitəsini yaratması və diasporla Sovet Ermənistanı arasında ciddi nəzarət altında olan təmaslara icazə verməyə başlaması ilə münasibətlərdə yaxınlaşma dövrü başladı. Bu təmaslar və sovetlərin erməni milli hisslərinə, o cümlədən "soyqırıma", erməni milli qəhrəmanlarına və Sərdarabadda 1918-ci ildə türklər üzərində qələbəyə dair abidələrin ucaldılması, eləcə də daha geniş ifadə azadlığı diasporla Sovet İttifaqı arasında düşmənçiliyin azalmasına kömək etdi. Hətta antisovet mövqeli daşnaklar da Sovet Ermənistanına qarşı daha az tənqidi mövqe tutdular. Razmik Panosyan hesab edir ki, bu, Sovet Ermənistanının kommunizminin daha dözümlü olması və diaspor siyasi partiyalarının sovet hakimiyyəti ilə bağlı müzakirələri soyqırımın tanınmasına yönəltməsi ilə əlaqədardır.

Sovet Ermənistanı ilə daha mehriban münasibətlər quran diaspor 1980-ci illərdə özü və transmilli mövcudluğu ilə barışıq içində idi. Jirayr (Gerard) Libaridyan iddia edir ki, bəzi ziyalılar diasporun özlüyündə bir "dəyər" kimi, vətəndən asılı olmayaraq, bir növ daimi olsa da, "mənəvi" yurd kimi danışmağa başlayıblar. Diaspor ziyalıları "vətən" məhdudiyyətlərindən azad olan diasporun ekzistensial mənasını düşündükcə və siyasi partiya-

97 Nona Shahnazarian. Letters from the Soviet 'Paradise': The Image of Russia among the Western Armenian Diaspora, Journal of Eurasian Studies. Volume 4, Issue 1, January 2013, pp. 8-17, p. 14.

lar "soyqırımın" tanınması uğrunda mübarizə aparаrkən, Sovet Ermənistanı vətəndaşları, nəhayət, "vətən"in mənasını yenidən müəyyənləşdirəcək kütləvi ictimai hərəkata qoşulurdular".[98]

Erməni tarixçisi Qriqori Suni də Sovet İttifaqı ilə daşnaklar arasında bir yaxınlaşma olduğunu, daşnakların antisovet mövqeyini yumuşaltdığını və təkrar Türkiyə düşmənçiliyini yüksəltdiyini, diasporun prinspial hədəfinin erməni irredentası və "soyqırımın" tanınması olduğunu"[99] təsdiqləyirdi. Panosyana görə, "artan millətçiliyin, erməni mədəniyyətinə və tarixinə yenidən marağın qarşısının alına bilməyəcəyini dərk edən Sovet Ermənistanının rəhbərliyi bacardıqca onu nəzarətdə saxlamağa və istiqamətləndirməyə çalışırdı. Antisovet və ya anti-Rusiya yazıları, şüarları və ya əhval-ruhiyyəsi qadağan olunsa da, anti-Türkiyə ritorikası Sovet rəhbərliyi tərəfindən nəinki məqbul hesab edilir, həm də əslində həvəsləndirilirdi. 1960-cı illərin əvvəllərinə qədər Ermənistan SSR daxilində yaşayan ermənilər arasında bu gizli antitürkçülüyün nə dərəcədə mövcud olduğu aydın deyil, lakin bu zamana qədər onlar da Qərb diasporunun getdikcə düşmənçilik və irqçi təsvirləri ilə tanış oldular".[100] Beləcə, erməni diasporunun artan təsiri irredentist millətçiliyin yüksəlməsinə səbəb olduğu kimi, sovet hakimiyyəti də bunu dəstəklədi.

R. Panosyana görə, erməni millətçiliyi heç vaxt antisovet və ya anti-Rusiya istiqamətində inkişaf etməyib. Düşmənçilik türklərə qarşı yönəlmişdi və ona görə də sovet dövləti üçün təhlükə kimi görünmürdü. Əslində, erməni anti-Türkiyəsi NATO-nun müttəfiqi Türkiyəni pisləməklə çox vaxt SSRİ-nin siyasi məqsədlərinə uyğun gəlirdi.[101] Soyuq müharibə dövründəki

98 Armine Ishkanian. Diaspora and Global Civil Society: The Impact of Transnational Diasporic Activism on Armenia's Post-Soviet Transition, In Central Asia and the Caucasus: Transnationalism and Diaspora. Edited by Atabaki, T. and S. Mehendale (London: Routledge, 2005), pp. 113-139, pp. 128-129

99 Grigory Suny. Göstərilən əsər, s. 226.

100 Panossian R. The Armenians..., pp, 321-322.

101 Yenə orada, s. 321-322.

erməni dissident hərəkatının müstəqillik çağırışı və antisovet mövqeyi heç vaxt əhali və ziyalılar arasında rezonans doğurmadı. Çünkü ermənilərin əksəriyyəti sovet rejiminə müqavimət göstərilməli olan zalım qüvvə kimi deyil, daha çox Türkiyəyə qarşı müdafiə qalxanı kimi baxırdı.[102]

1970-ci illərin ortalarında diaspor Sovet Ermənistanı və ümumilikdə bütün Ermənistan ərazisi, mədəni, dini və partiya kanallarının geniş şəbəkəsi ilə əhatə olunmuşdu. Regional və transmilli idman tədbirləri, mədəni toplantılar və partiyanın qurultaylarına diasporun üzv və xadimləri daxil idi. Həmin tarixi dövrdə xaricdən gətirilən millətçi ədəbiyyat müxtəlif yollarla Ermənistana daxil olur, bunu da müxaliflər əldə edirdilər. Burada iki danılmaz faktı təsdiq etmək olar: Birincisi, diaspor və Ermənistanda cəmiyyətin fəal hissəsi əsasən bir milli ideologiyanı rəhbər tuturdu ki, bunun təməl daşı uydurma "erməni soyqırımı"nın sivil dünya tərəfindən tanınması idi. Bunun ardınca "müstəqil, azad və vahid Ermənistan"ın yenidən yaradılması nəzərdə tutulurdu. Digər reallıq isə o idi ki, xüsusilə 1970-ci illərdə istər erməni dünyasında, istərsə də onun tərkib hissəsi olan Sovet Ermənistanında yuxarıda qeyd olunan məqsədlər üçün konkret addımlar atılırdı.[103]

1980-ci illərin ikinci yarısına doğru Mixail Qorbaçovun münaqişə tərəfləri olan kapitalizm və kommunizm arasında barışmaz münaqişəni inkar edən və əvvəllər mövcud olan dövlətlər arasında əməkdaşlığa çağıran "Yeni düşüncə" əsərinin tətbiqi ilə erməni sferasında soyuq müharibənin sona çatdığını söyləmək olar. Nəticədə, Sovet Ermənistanında Kommunist Partiyası 1989-cu ildə daşnaklara qarşı ictimai antaqonizmini rəsmən dayandırdı.[104]

102 Yenə orada, s.326.
103 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia: Equal but Different? //Journal of Political Science: Bulletin of Yerevan University, Vol. 1 (3), December 2022, p. 85.
104 Ara Sanjian. How Are Diasporans Informed About Contemporary Armenia?

## 2.3. Erməni dissident təşkilatlarının irredentist hədəfləri

Xruşşov dövründə millətlər siyasətindəki yumşalma və erməni diasporunun Ermənistan SSR-in daxili siyasətinə təsirinin artmasına paralel olaraq, 1962-ci ilin sonlarından Ermənistan cəmiyyətində millətçi və antisovet baxışlarının ümumiliyi əsasında yaradılmış gizli qruplar fəallaşdı. 1960-1980-ci illər SSRİ-də mövcud sistemə alternativ hərəkatların meydana çıxması ilə əlamətdar oldu. Ümumiyyətlə, gizli qruplar qarşısında duran prioritet vəzifələrdən biri siyasi cəhətdən qeyri-sabit olan insanlarda millətçilik ruhunun yüksəldilməsi, o cümlədən onların öz fəaliyyət sahəsinə cəlb edilməsi üçün millətçilik ideya və hisslərinin aktivləşdirilməsi idi. Dissident qruplar və onların tərəfdarları İrəvanda, Eçmiədzində və başqa yerlərdə vaxtaşırı 3-20 nəfərin iştirakı ilə toplantılar təşkil edir, oxşar toplantılarda milli birlik, mətbəə alınması, erməni dilinin inkişafı, eləcə də bir sıra təşkilati məsələlər müzakirə olunurdu. Həmin dövrdə erməni diasporu ilə əlaqələrin qurulması da əsas məsələ hesab olunurdu.[105] Sovet hakimiyyətinin erməni diasporu ilə əlaqə yaratması isə erməni dissident qrupların erməni diasporu ilə əlaqə yaratmasına daha çox fürsət yaradırdı.

Suren Manukyan 1960-ci illərdə Ermənistanda ortaya çıxan hərəkatları "gizli hərəkat" adlandırır. Onun fikrincə, bu təşkilatlar ölkədəki sosial-iqtisadi vəziyyəti dəyişmək deyil, sistemi kökündən dəyişdirmək, Türkiyə və Azərbaycan torpaqlarında müstəqil Ermənistan dövləti qurmağı özünə hədəf seçmişdi.[106] Ermənilər qonşu dövlətlərin ərazilərini ələ keçirməyi qarşılarına milli hədəf qoymuşdular, bu fəaliyyətləri "milli hərəkat" və ya "vətənpərvərlik hərəkatı" adlandırmışdılar.

105 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia: Equal but Different? p. 78

106 Suren Manukyan. Возникновение националистического дискурса и подпольного движения в Армении в начале 1960-ых годов. - https://ge.boell.org/en/2006/09/24/vozniknovenie-nacionalistichesko-go-diskursa-i-podpolnogo-dvizheniya-v-armenii-v-nachale#_ftn35, (24.09.2006).

1960-cı illərdən başlayaraq daşnakların təsirində olan siyasi qrupların fəaliyyəti və gücü nəticəsində Qarabağ məsələsi yenidən alovlandı. Bu, bir növ erməni cəmiyyətinin radikal daşnak ideologiyasına təslim edilməsi mənasına gəlirdi. Bu baxımdan erməni tədqiqatçıları da Ermənistandakı dissident hərəkatının irredendist millətçilik anlayışına sahib daşnak ideologiyasının təsiri altında olduğunu etiraf edirdilər. Sovet dövründə Ermənistandakı müxaliflərin ideologiyası haqqında Markaryan yazırdı: "Ermənistandakı müasir dissidentlər daşnak partiyası olan Erməni İnqilabçı Federasiyasının (ARF) təsiri altındadır. Ermənistandakı bütün ermənilərin mövqeyini əks etdirməsələr də, Ermənistanda və sovet siyasətində böyük gücü təmsil edirlər. 1988-ci ildə qurulan Qarabağ Komitəsi də siyasi fəaliyyətləri səbəbindən tez-tez həbs olunan bu dissident və aktivistlər tərəfindən formalaşmışdır".[107]

Azərbaycanlı tarixçi İlqar Niftəliyevin araşdırmasına görə, 60-cı illərin əvvəllərində Qarabağ hərəkatının fəalları Ermənistan hakimiyyətinə təzyiq göstərməyə və onları aktiv fəaliyyətə sövq etməyə cəhdlər edirdilər. 1961-ci il aprelin 23-24-də Ermənistan SSR MK-nın katiblərinə, Nazirlər Sovetinin sədrinə və sədr müavinlərinə, Ali Sovetin sədrinə, Ermənistan SSR-in rəhbərliyinə və respublikanın bir sıra müəssisələrinin rəhbərlərinə ünvanlanmış 100-ə yaxın anonim məktub ələ keçirildi. Bu məktubların əsas məzmununu Zaqafqaziya respublikalarının və Türkiyənin tərkibində olan "əsl erməni torpaqlarının" Ermənistana "geri qaytarılması" tələbi təşkil edirdi.[108]

Ermənistanda birinci dalğa gizli qrupun - "Yeddi patriotlar"ın təşkilinə 1962-1963-cü illərdə başlanıldı. Ermənistan Kommu-

107 Shant Markarian. The Origins and Developments of Armenian Nationalist Sentiment in Soviet Armenia. Indiana University South Bend, 1989, p.71.

108 Ильгар Нифталиев. Притязания Армении на Нагорный Карабах в период руководства Азербайджаном Гейдара Алиева (60-начало 80-х гг. XX века). // Известия НАН Азербайджана. Серия общественных наук, 2015, №2, сс. 16-38, с. 18.

nist Partiyasının birinci katibi Zarobyanın Moskvaya yazdığı hesabatda qeyd olunurdu ki, bu yeddi nəfər daşnakların təsiri altında Ermənistanın Sovet İttifaqından ayrılmasını, müstəqil Ermənistan qurulmasını və Türkiyədəki keçmiş erməni ərazilərinin birləşdirilməsini tələb edirdi.[109] Lakin Razmik Panosyana görə, onlar ilk növbədə Sovet İttifaqındakı qonşu "erməni torpaqlarının" (Azərbaycandan Qarabağ və Naxçıvan, Gürcüstandan Cavaxetiya) Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırdılar; bundan sonra Türkiyədəki torpaqlar tələb edilməli idi. Qaldırılan digər məsələlər "soyqırımın" tanınması, Ermənistanın ruslaşması qorxusu və ermənilərdə "milli hissləri" gücləndirmək üçün atılan addımlar idi. SSRİ-də müstəqillik məsələsi qaldırılmadı və ona "ehtiyatla" yanaşıldı.[110]

Həbs edilən "Yeddilərin"[111] məhkəmələri 1964-cü ilin avqustunda baş tutdu. Bu həbs olunanlardan biri Beyrut, digəri isə Qüdsdən Ermənistana köçənlər idi.[112] Onlar rəsmi təşkilat yaratmaq və ya proqram hazırlamaq mərhələsinə çatmamışdılar. Cəmi 7 nəfər həbs edilərək təqsirli bilinsə də, qruplaşma ilə bağlı digər insanlar da dindirildi. Azad edildikdən sonra bu qrup dissident fəaliyyətini davam etdirmədi. Lakin bu qrupdan sonra Ermənistanda yeni təşkilatlar yaradıldı.[113]

---

109 Arsène Saparov. Re-negotiating the Boundaries of the Permissible: The National(ist) Revival in Soviet Armenia and Moscow's Response. // Europe-Asia Studies, 70:6, 2018, pp, 862-883, p. 869.

110 Razmik Panossian. The Armenians..., p. 323.

111 Yeddi erməni patriot.

112 Arsène Saparov. Göstərilən əsər, s.869

113 Razmik Panossian. The Armenians..., pp. 323-324

# III FƏSİL
# 1965-ci il MİTİNQİ VƏ İRREDENTİZMİN SÜRƏTLƏNMƏSİ

## 3.1. 1965-ci il mitinqi və gizli təşkilatlanmanın artması

1965-ci il Ermənistanda ifrat millətçilik baxımından dönüş ili oldu. Belə ki, 1915-ci il hadisələrinin 50-ci ildönümü münasibətilə İrəvanda biri rəsmi, digəri qeyri-rəsmi olmaqla iki böyük mitinq təşkil edildi. Bu mitinqin təşkil edilməsinə icazə verilməsini soyuq müharibə dövründə yaşanan geosiyasi mübarizəsi ilə izah edənlər də var. Birincisi, bu mitinqə Moskva tərəfindən razılıq verilməsi Türkiyənin Avropa İqtisadi Təşkilatına üzvlüyü haqqında müqavilənin qüvvəyə minməsi ilə eyni dövrə təsadüf etdi.[114] İkincisi isə mitinq ABŞ ilə SSRİ arasında yaşanan "Kuba böhranı", "U2 kəşfiyyat təyyarəsi böhranı" və ABŞ-ın Türkiyədə yerləşdirdiyi raketlərin çıxarılması üçün SSRİ-nin tələbləri ilə eyni dövrdə baş verirdi.[115] Bu mitinqin Qarabağ məsələsi baxımından kritik məqamı ondan ibarətdir ki, qeyri-rəsmi mitinqdə Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsi haqqında şüarlar səsləndirildi və bundan sonrakı dövrdə yaradılan gizli erməni təşkilatlarının proqramlarına Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsi haqqında maddələr daxil edildi. Bu da 1989-cu ildə Ermənistanın Müstəqillik Bəyannaməsinə Qarabağın Ermənistana birləşdirilməsinin daxil edilməsi ilə nəticələndi.

114 1958-ci ildə Avropa İqtisadi Təşkilatının (AİT) yaradılmasından qısa müddət sonra Türkiyə 1959-cu il iyulun 31-də Birliyə tərəfdaşlıq üçün müraciət etdi. AİT Nazirlər Şurası Türkiyənin müraciətini qəbul etdi və üzvlük şərtləri yerinə yetirilənə qədər qüvvədə olacaq tərəfdaşlıq sazişinin imzalanmasını təklif etdi. Sözügedən Saziş 12 sentyabr 1963-cü ildə imzalandı və 1 dekabr 1964-cü ildə qüvvəyə mindi. Ankara Sazişinin 28-ci maddəsinə görə, "Türkiyə-AİT tərəfdaşlıq münasibətlərinin son məqsədi Türkiyənin Birliyə tamhüquqlu üzv olmasıdır". Bax: Türkiye-Avrupa Birliği İlişkilerinin Tarihçesi. https://www.ab.gov.tr/turkiye-ab-iliskilerinin-tarihcesi_111.html, (10.03.2023)

115 Oral Sander. Siyasi Tarih. 1918-1920. İmge, 1994. 7-ci nəşr, s. 285-295.

Ermənistanda istər hakimiyyət orqanları, istər kilsə, istərsə də dissident qruplar 1964-cü ilin ortalarından etibarən mitinqin təşkili üçün çalışmalara başladılar. 1964-cü il avqustun 16-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin nəzarətində olan Eçmiədzin kilsəsinin başçısı I Vazgen, avqustun 19-da isə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin nəzarətində olan Livandakı Antilyas patrikliyi, Kilikya katolikosu I Xoren bəyanat yayaraq 1915-ci ildə törədilmiş uydurma "soyqırımın" ildönümünün yaxınlaşdığını bildirdilər. I Vazgenin müraciətində 1965-ci ilin bütün erməni xalqı və kilsəsi üçün matəm ilinin elan olunması tövsiyə edilirdi. Aprelin 24-də bütün erməni kilsələrində matəm tədbirləri, konfranslar keçirilməli, ədəbiyyatlar nəşr edilməli, ölənlərin xatirəsi yad edilməli idi.[116]

Bu müraciətlərdən sonra 1964-cü il noyabrın 13-də Ermənistan Kommunist Partiyası Bürosu Moskvadakı Siyasi Büroya məktub yazaraq, "erməni soyqırımı"nın ildönümü münasibətilə tədbir keçirmək istədiyini bildirdi. Məktubda qeyd olunurdu ki, anım mərasimi ziyalılar və partiyanın elit üzvləri arasında "Oktyabr inqilabı və erməni xalqının dirçəlişi" mövzusunda olacaq və yerli qəzetlərdə ölənlərin xatirəsini yad etmək məqsədilə yazılar yazılacaq. Məktubda ayrıca Birinci Dünya müharibəsində ölən ermənilərin xatirəsinə abidə qoyulması istənilirdi. Bu məktuba Moskvadan cavab gəlməmişdi, lakin bir ay sonra, 1964-cü il dekabrın 12-də təkrar məktub göndərildi. Moskvanı razı salmaq üçün göndərilən məktubun sonuncu hissəsində bunlar qeyd olunurdu: "Xaricdə yaşayan ermənilər hər il 24 aprel tarixində soyqırımı qınama tədbirləri keçirir. Xarici mürtəce erməni qüvvələri eqoist və təxribatçı məqsədlərlə bu tarixdən istifadə etməyə çalışırlar. Sovet Ermənistanında ermənilərin kütləvi şəkildə məhv edilməsinin ildönümünün heç bir formada qeyd

116 Musa Qasımlı. SSRİ-Türkiyə münasibətləri, Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək. Bakı: Adiloğlu, 2007, s.106

edilməməsindən əsas arqument kimi istifadə edərək... millətçi daşnak partiyası iddia edir ki, ölkəmiz yüz minlərlə soydaşımızın xatirəsinə biganədir... və buna görə də biz [SSRİ-də] soyqırım siyasətini qəbul edirik! Bu səbəbdən bu hadisənin 50-ci ildönümünü xatırlamağın vacib olduğunu düşünürük.... Bu, elə aparılmalıdır ki, Sovet İttifaqının qonşu dövlətlərlə, xüsusən də Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq siyasətinə mənfi təsir göstərməsin".[117]

İkinci məktubdan sonra Moskva 1915-ci il hadisələrinin anılmasına razılıq verdi. Tatyana Yarmuşoka görə, bu icazənin alınmasında Ermənistan KP MK-nın birinci katibi Yakov Zarobyanın böyük rolu vardır. Lakin həmin razılıq ərazi məsələsinin qaldırılmaması şərti ilə verilib.[118]

İcazənin verilməsindən sonra, rəsmi hazırlıqlar davam edərkən bu xəbər erməni cəmiyyəti arasında yayıldı və millətçi erməni aktivistlərin, əsasən də tələbələrin xüsusi hazırlığına səbəb oldu. Belə ki, tədbirin rəsmi təşkilindən başqa, aktivistlərin də buna hazırlaşmasını bir çox erməni mənbəsi qeyd edir. 1963-cü ildə yaradılmış və 1966-cı ilə qədər mövcud olmuş "Erməni Gəncləri İttifaqı" adlı gizli qrup bu tədbirə fəal hazırlaşan qruplardan oldu. 24 aprel tarixində İrəvanda hakimiyyət tərəfindən təşkil olunan və əksəriyyəti gənclərdən ibarət 100 min nəfərlik anım mərasimi keçirildi.[119] Bu hadisə SSRİ Nazirlər Kabineti yanında KQB rəisi Vladimir Semiçastnıyin Komunist Partiyası Mərkəzi Komitəsinin ideologiya departamentinə göndərdiyi hesabatda da öz əksini tapmışdı. Hesabata görə, 1964-cü ilin yanvar ayında İrəvanda 7 millətçi gəncə

117 Arsène Saparov. Göstərilən əsər, s. 863-865.
118 Татьяна Ярмощук. Говорить не о Карабахе, а о независимости. Национальные движения в республиках накануне распада СССР. Часть двенадцатая: Армения. - https://www.currenttime.tv/a/armenia-ussr/32155917.html (01.12.2022).
119 Армянское национальное движение. - http://old.memo.ru/history/diss/books/alexeewa/chapter6.htm, (02.01.2024).

düşmən fəaliyyətlərinə görə cinayət işi açılmışdı.[120]

Bununla belə, "rəsmi" tədbirlərə əlavə olaraq, iştirakçıların əksəriyyəti gənclərdən ibarət olan, hakimiyyət tərəfindən planlaşdırılmamış 100 min nəfərlik mərasim də baş tutdu. İştirakçıların səsləndirdiyi əsas şüar "Vətən!" (Vətən deyiləndə Türkiyə əraziləri, Qarabağ və Naxçıvan nəzərdə tutulurdu) idi.[121] Lenin meydanında rəsmi tədbirdə iştirak edənlər Lenin heykəlinin önünə gül dəstələri qoydular, lakin millətçi şüarlar səsləndirərək "erməni məsələsi"nin ədalətli həllini tələb etdilər. Burada toplaşanlar, eyni zamanda Qarabağ və Naxçıvanın Ermənistana verilməsi və 1964-cü ildə həbs edilən yeddi nəfərin azad edilməsi məqsədilə Moskvaya teleqram göndərdilər.[122]

Bu mitinq Sovet İttifaqında çox böyük rezonans doğurdu. Əks tədbirlər görüldü və 1966-cı ilin fevral ayında bu mitinqlərdə səsləndirilən millətçi şüarlara görə Ermənistan Komunist Partiyasının birinci katibi Yakov Zarobyan vəzifəsindən azad edildi.[123] 1966-ci ildə İrəvanda tikilən soyqırım kompleksinin inşası dayandırıldı. Ermənistan SSR Komunist Partiyasının birinci katibi vəzifəsindən azad edilsə də, respublikada millətçilik hərəkatı başa çatmadı, əksinə yeni bir mərhələyə qədəm qoydu. Ermənistanda daşnakların təsirinin artması və irredendist millətçiliyin yüksəlişi bəzi keçmiş bolşevik erməniləri də ciddi narahat edirdi. Belə ki, 1966-cı il fevralın 21-də keçmiş bolşevik olan 21 erməni Moskvaya məktub yazaraq Ermənistanda artan təhlükəli millətçilikdən narahatlıqlarını bildirdilər.[124]

120 Eldar Abbasov. Armenian İrredentist Nationalism and Its Transformation into the mass Karabakh Movement "MIATSUM" (1965-1988). /Edit. M. Hakan Yavuz and Michael M. Gunter/. The Nagorno Karabakh Conflict: Historical and Political Perspectives. Routledge, New-York, 2023, pp. 59-87, p. 61.

121 Suren Manukyan. Возникновение националистического дискурса и подпольного движения в Армении в начале 1960-ых годов. - https://ge.boell.org/en/2006/09/24/vozniknovenie-nacionalistichesko-go-diskursa-i-podpolnogo-dvizheniya-v-armenii-v-nachale#_ftn35, (24.09.2006).

122 Arsène Saparov. Göstərilən əsəri, s.866.

123 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia, p. 77.

124 Eldar Abbasov. Göstərilən məqalə, p. 62.

Sonradan eyni zamanda "Qarabağ Komitəsi"nin[125] üzvləri olmuş erməni siyasi fəalları 1965-ci ilin bir dönüş nöqtəsi olduğunu qeyd edirdilər. Paruyr Hayrikyana görə, 1965-ci il Ermənistanda bir çox dəyişikliyin başlanğıcı oldu: "Soyqırım haqqında danışmaq qadağan idi, çünki 1921-ci ildə Lenin və Atatürk arasında müqavilə imzalanmışdı. Bu müqaviləyə əsasən, bolşevik Rusiyası Türkiyə haqqında tənqidi bəyanatlar verən hər kəsi təqib edəcəyinə söz vermişdi. Vəziyyət yalnız 1965-ci ildə dəyişdi". Vahram Ter Matevosyan isə yazırdı: "İrəvandakı misilsiz mitinq Sovet Ermənistanının siyasi, mədəni və sosial mənzərəsində dəyişikliklərə səbəb oldu. Hökumət xalqın və ziyalı təbəqənin artan narahatlığını, səsini nəzərə almalı və bu məlumatları Moskvaya çatdırmalı idi. Bununla belə, o demək deyil ki, Sovet Ermənistanının həmin onillikdə rəhbərliyi – Yakov Zarobyan və Anton Koçinyan, daha sonra isə Karen Dəmirçiyan – antimillətçilik meyilləri bəsləyiblər. Kommunist sisteminin bir hissəsi olmasına baxmayaraq, onların hamısı 1910-cu illərin hekayələrini yaşadan ailələrdə böyümüşdülər".[126] Panosyanın da qeyd etdiyi kimi, 1965-ci il etirazları boşluq içində ortaya çıxmadı. Bu, 1950-ci illərin sonu və 1960-cı illərin əvvəllərində Stalindən sonrakı "ərimə"nin və milli məsələlərin yavaş-yavaş ortaya çıxmasının məhsulu idi.[127] Amerikalı araşdırmaçı Kristofer Quna görə, 1965-ci il mitinqi təsadüf deyildi. Bu mitinq Ermənistan SSR-in daxilindəki Erməni İnqilabçı Federasiyasının fəaliyyətinin nəticəsi idi.[128] Armenak Manukyana görə, əslində, milli ideyaların cəmiyyət daxilində mövcud olmasını 1965-ci il

125 Qarabağ Komitəsi 1988-ci ilin fevral ayında Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan alınaraq Ermənistana verilməsi tələbi ilə yaradılıb.
126 Vahram Ter-Matevosyan. The Legacy of the First Republic of Armenia during the Soviet Era: The Tumultuous 1960s. - https://armenianweekly.com/2018/05/27/the-legacy-of-the-first-republic-of-armenia-during-the-soviet-era-the-tumultuous-1960s/ (17.05.2018). (accessed 26.12.2023).
127 Panossian. The Armenians, p. 323
128 Christopher Gunn. Secret Armies and Revolutionary Federations: The Rise and Fall of Armenian Political Violence, 1973-1993, p.14

aprelin 24-də İrəvanda “erməni soyqırımı”nın 50-ci ildönümü ilə bağlı keçirilən kütləvi nümayişlər və mitinqlər sübut edirdi. Ona görə də çıxış edənlərin əsas tələbi tarixi ədalətin bərpası, tarixi vətənin qaytarılması idi.[129]

Bu mitinqlərdə iştirak edənlərin çoxu dissident deyildi, sovet hakimiyyətinə sadiq insanlar idi. Lakin onlar da qonşu Azərbaycan əraziləri olan Naxçıvan və Qarabağın Ermənistana birləşdirilməsini tələb edirdilər. Bu mitinqlərin yayılmasından sonra Ermənistan mərkəzi hökumətinə yazılan məktublar nəticəsində hökumət də “xalqın tələblərinin yerinə yetirilməsi üçün” fəaliyyətlərini artırdı. Ermənistan hakimiyyəti bir tərəfdən millətçi qrupların tələblərini yerinə yetirmək, digər tərəfdən isə sovet hakimiyyətinin siyasi qəzəbinə məruz qalmamaq üçün Moskvanın onlara verdiyi sərhədlər çərçivəsində hərəkət etdilər. Sovet İttifaqı daxilində anti-Stalin təbliğatı getdiyi üçün Stalin dövründə cəzalandırılan erməni millətçi ictimai xadimlərinin reabilitasiya dövrü başladı.[130] Beləcə, Ermənistan SSR idarəçiləri respublikadakı millətçi tələblərin Moskvaya çatdırılmasında “vasitəçi” rolunu oynamağın ən doğru yol olduğuna qərar verdilər.

Bu mitinq ermənilərin Qarabağ tələblərinə yeni nəfəs verdi. Zori Balayanın “Qarabağ hərəkatının ideoloqlarından biri” olaraq təqdim etdiyi,[131] Azərbaycan Yazıçılar İttifaqının DQMV bölməsinin məsul katibi Baqrat Ulubabyan 1965-ci ilin iyununda Sov.İKP MK-ya DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi tələbi ilə bağlı bəyanat verdi. Həmin bəyanatı erməni millətindən olan rayonun bir sıra məsul partiya və sovet işçiləri də imzaladı.[132] O, eyni zamanda 150 səhifəlik bir hesabat yazaraq Qarabağ

129 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia: Equal but Different? p. 77.

130 Arsène Saparov. Göstərilən əsər, s.872

131 Зорий Балаян, Карабахское движение – это детище армянского народа, https://www.golosarmenii.am/article/62936/karabaxskoe-dvizhenie-%E2%80%93-eto-detishhe-armyanskogo-naroda (19.02.2018).

132 Ильгар Нифталиев. Göstərilən əsər, s.20.

ermənilərinin çətin sosial-iqtisadi vəziyyətindən və Qarabağın Ermənistana birləşdirilməsindən bəhs edirdi. Ulubabyanın kitabı erməni dilində nəşr olunaraq yalnız Ermənistandakı erməni ziyalıları arasında dolaşırdı. Daha sonra bu broşür rus dilinə tərcümə olundu və Moskvaya çatdırıldıqdan sonra mərkəz İrəvanı sərt qınayaraq Ulubabyanın istintaqa cəlb olunmasını tələb etdi. Ermənistan Mərkəzi Komitəsi Moskvaya cavab verərək bildirdi ki, Ulubabyanın şəxsi qeydlərini bəzi insanlar oğurlayaraq nəşr edib və ona qarşı şantaj kimi istifadə ediblər.[133] Bu, əslində Ermənistan SSR dövlət nümayəndələrinin irredentist millətçilərin qorumasının gözlə görünən bir sübutudur.

1966-cı ildən etibarən Azərbaycan xüsusi xidmət orqanları DQMV-də bir neçə qeyri-qanuni millətçi qrupların fəaliyyətini aşkar etdilər. Mərkəzi Ermənistan SSR-də olan və tərkibində 40-dan çox erməni gəncinin daxil olduğu qeyri-qanuni "Erməni Gəncləri İttifaqı" muxtar vilayətin ərazisində öz təşkilati strukturlarını yaratmağa cəhd etdilər. Xankəndidə orta məktəb şagirdlərindən ibarət digər gənclər qrupunun Dağlıq Qarabağ və Naxçıvan da daxil olmaqla, bütün "erməni" ərazilərinin birləşdirilməsinə çağıran vərəqələr payladığı da aşkar edildi.[134]

1965-ci il mitinqindən sonra bir çox erməni dissident həbs olundu, lakin bu həbslərlə onların yeni təşkilatlanma dövrü başladı. Bu mitinqdə həbs olunanların bir qismi həbsxanada tanış oldular və daha sonra Erməni Milli Birlik Partiyasını qurdular.[135] 1965-ci ildən sonra onların gizli fəaliyyətləri daha çox açıq fəaliyyətə çevrildi. Çünki 1965-ci il əslində bir sınaq idi və bu sınağın sərhədlərini millətçilər genişləndirə bilmişdilər. Burada, təbii ki, Sovet İttifaqı-ABŞ münasibətlərinin də təsiri var idi. Sonrakı

133 Panossian. The Armenians. pp. 282-283

134 Ильгар Нифталиев. Göstərilən əsər, s.20.

135 Suren Manukyan. Возникновение националистического дискурса и подпольного движения в Армении в начале 1960-ых годов. - https://ge.boell.org/en/2006/09/24/vozniknovenie-nacionalistichesko-go-diskursa-i-podpolnogo-dvizheniya-v-armenii-v-nachale#_ftn35 (24.09.2006).

bölmələrdə Helsinki Yekun Aktının əslində ermənilərin fəaliyyəti üçün yeni fürsətlər yaratdığını görəcəyik.

### 3.2 Erməni "gizli" təşkilatlarının yayılması

Əslində, 1964-cü ildə Xruşşovun yerinə seçilən baş katib Leonid Brejnevin dövründə millətçi fəaliyyətlərə qarşı çox sərt bir siyasət aparılırdı.[136] Lakin 1960-1970-ci illər Sovet İttifaqında millətçi fikirlərin artdığı bir dövr kimi qəbul edilir. Bu mənada Ermənistan Baltikyanı respublikalar, Ukrayna və Moldova ilə birlikdə millətçi fikirlərin əsasında etirazların təşkil olunduğu respublikalardan biri hesab olunurdu. Brejnev hakimiyyəti bu hərəkətləri daha çox Qərbdən dəstəklənən millətçi hərəkatlar olaraq görürdü.[137] 1965-ci il və sonrakı hadisələr Ermənistanda çoxlarına ilham verdi və gəncləri ruhlandırmağa davam edən yeni məşhur qəhrəmanlar meydana çıxdı. 1963-1988-ci illər arasında Ermənistanda 34 siyasi məhkəmə prosesi keçirilib, nəticədə 105 siyasi məhbus cəzalandırılıb.[138] 1983-cü ildə MKİ tərəfindən hazırlanan hesabata görə, 1953-1963-cü illərlə müqayisədə 1972-1982-ci illər arasında Sovet İttifaqında sivil qarşıdurmanın sayı dörd dəfə artmışdır. MKİ-nin hesabatına görə, Sovet İttifaqında keçirilən etirazların ən çox iki əsas səbəbi - etnik millətçilik və çıxış vizaları olmuşdur. [139]

Belə qeyri-qanuni təşkilatlardan biri "Erməni Gənclər İttifaqı" idi. Bu ittifaq 1967-ci ildə İrəvandakı 3 saylı məktəbdə yaradılmışdı. 15 nəfərdən ibarət olan qrupun fəaliyyəti antiso-

136 Ronald Grigory Suny. Göstərilən əsər, s.195-196.
137 Roberts, Jason A. The Anti-Imperialist Empire: Soviet Nationality Policies under Brezhnev (2015). Graduate Theses, Dissertations, and Problem Reports. 6514. https://researchrepository.wvu.edu/etd/6514 p. 204
138 Vahram Ter-Matevosyan. The Legacy of the First Republic of Armenia during the Soviet Era.
139 Dimension of Civil Unrest in Soviet Union, CIA Report. - https://www.cia.gov/readingroom/docs/19830401.pdf

vet xarakterli hesab edilirdi. Erməni tarixini öyrənmək adı altında yaradılan qrup Matenadaranın elmi işçisi Zaven Arutyunyanın köməyi ilə proqram və nizamnamə hazırlamışdı. Qrupun əsas məqsədi tarixi yaddaşı qorumaq, Qarabağ və Naxçıvanın mədəni irsi ilə bağlı sualların yer aldığı Ermənistan haqqında bilikləri məktəblilərə çatdırmaq idi. Qrup 1967-ci ildə “Yeni hərəkat” qrupunun imzası ilə vərəqə hazırladı. Burada xüsusilə Sovet İttifaqında irqi xaosa qarşı birgə mübarizə aparmağın vacibliyi yazılmışdı. Bunun əsasında Dağlıq Qarabağ və Naxçıvanda erməni mədəni irsinin qorunub saxlanılması istiqamətində addımların atılması, onların Ermənistana birləşdirilməsi məsələsi qaldırılmışdı.[140]

Proqramı və nizamnaməsi olan həmin təşkilatın iki nümayəndəsi Azərbaycanın DQMV-nin Martuni (əslində, Xocavənd) rayonunun mərkəzinə gələrək orada ezamiyyətdə olan vilayət mərkəzi kitabxanasının metodisti, İrəvan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, kommunist Benik Mixayloviç Saakyanla görüşmüşdülər. Onlar Saakyana həmin təşkilatın dörd nüsxədən ibarət proqram və nizamnaməsini verərək bildirmişdilər ki, məxfiliyi qorumaq şərtilə 200 nüsxə çoxaldaraq vilayətdə yaşayan ermənilər arasında paylasın, eyni zamanda təşkilatın yerli nümayəndəliyini qursun. Təşkilat Sov.İKP-nin XXIII qurultayına qədər Azərbaycanın DQMV, Naxçıvan və digər torpaqlarını, üzvlərinin təbirincə deyilsə, “Ermənistana qaytarmaq” məqsədilə müraciət hazırlamalı və ermənilər arasında təbliğat aparmalı idi.[141]

Erməni gizli təşkilatlarının fəaliyyətləri orta məktəblərə qədər yayılmışdı. 10-cu sinif şagirdi, eyni zamanda məktəbin kom-

140 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia. pp. 78-79.

141 Musa Qasımlı. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları, s. 342

somol təşkilatının katibi, 1948-ci il təvəllüdlü Marsel Aykazoviç Petrosyan 1966-cı ilin mart ayında şagirdlər arasında anti-Azərbaycan əhval-ruhiyyəli təbliğat aparmaqla məşğul olmuşdu. O, ermənilərdən ibarət "Gənclər Təşkilatı" yaratmışdı. Başlıca məqsədi DQMV-nin Ermənistana birləşdirilməsi istiqamətində fəaliyyət göstərmək olan həmin təşkilat mayın 9-10-da təxribat xarakterli vərəqələr hazırlayaraq Stepanakertdə (Xankəndidə) yaymışdı. [142]

1967-ci il iyunun 23-dən 24-ə keçən gecə Xankəndinin (ovaxtkı Stepanakertin) bəzi küçələrində divarlara erməni dilində 300 vərəqə yapışdırılmışdı. Ölçüsü 8x9 sm olan vərəqələrdə Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında əsassız tələblər və millətçi xarakterli saxta mülahizələr irəli sürülürdü.[143]

1967-ci ildə baş verən digər bir hadisə də münasibətləri gərginləşdirdi. İlin əvvəllərində Stepanakertdə (Xankəndidə) məişət zəminində azərbaycanlılarla ermənilər arasında münaqişə baş vermiş və N.V.Movsesyan adlı azyaşlı bir uşaq qətlə yetirilmişdi. Keçirilmiş məhkəmə iclasları zamanı erməninin ölümündə iki nəfər azərbaycanlının əli olması təsdiq olunmuş və onlardan biri ölüm cəzasına, digəri isə 15 il həbs cəzasına məhkum edilmişdi. Lakin erməni millətçiləri dustaqları mühafizəçilərdən alaraq xüsusi amansızlıqla öldürmüşdülər. Bu hadisə ilə əlaqədar aparılan araşdırma İrəvana qədər uzanmış və orada bu təşkilata məxsus binada 4 ədəd Kalaşnikov tipli avtomat, 2 ədəd pulemyot, bir neçə ədəd Naqan və Mauzer tipli tapançalar, eləcə də həmin silahlar üçün nəzərdə tutulmuş külli miqdarda patron və digər ehtiyat hissələri götürülmüşdü. Silahların Ermənistan SSR ərazisində dislokasiya edilmiş Sovet hərbi hissələrinin anbarlarından oğurlandığı məlum olmuşdu. [144]

142 Yenə orada, s.342-343
143 Yenə orada, s.346
144 Yenə orada, s. 347-348

Digər bir qrup Baqdasaryan təşkilatı idi. Bu təşkilat daha çox Xankəndidə orta məktəb şagirdləri və zavod işçiləri arasında təbliğat aparırdı. Təşkilat üzvlərindən üzvlük haqqı adı altında pul vəsaiti yığılırdı. Müxtəlif yerlərdə işləyənlərdən aylıq 10 rubl, tələbələrdən və yetkinlik yaşına çatmayanlardan isə 5 rubl alınırdı. Təşkilatın üzvləri 1974-cü ildə  Şuşada teleötürücünün partladılması və digər terror-təxribat hərəkətləri planlaşdırmış, lakin əvvəlcədən həbs edildikləri üçün buna nail ola bilməmişdilər.[145] Azərbaycan hökuməti qatı millətçi erməni qruplarının ziyanlı fəaliyyətlərinə qarşı müvafiq tədbirlər həyata keçirmişdi. Məsələn, Azərbaycan SSR DTK-sının 5-ci şöbəsi 1973-cü ilin avqust ayında respublika ərazisində "erməni millətçiləri" adı altında əməliyyat aparmışdı. Nəticədə "Daşnaksütyun" ilə əlaqəsi olan bəzi şəxslər həbs edilmişdi.[146]

1973-1974-cü illərdə İrəvanda bağlı qapılar arxasında keçirilən 9 siyasi məhkəmə prosesində 14-ü həmin vaxt həbsdə olan 18 erməni gənci mühakimə olundu. Bu şəxslər milli-siyasi fəaliyyətlərinə və və onlara qarşı irəli sürülmüş digər ittiham faktlarına görə 2 ildən 10 ilədək müddətə azadlıqdan məhrum edildilər.[147]

1966-cı ildə İrəvanda gizli Ermənistan Milli Vahid Partiyası (MVP) yaradıldı. Onun yaradıcıları rəssam Haykazn Xaçatryan (1919-cu il təvəllüdlü) və tələbələri Stepan Zatikyan və Şahen Arutyunyan idi. H.Xaçatryan MVP proqramını və partiyaya daxil olarkən qəbul edilməli olan andın mətnini yazıb. O, Ş.Arutyunyan və S.Zatikyanla birlikdə "Paros" ("Mayak") qəzetinin ilk nömrəsini çap etdirib. Onlara qoşulan MVP üzvləri

145 Yenə orada, s. 356
146 Yenə orada, s. 364-365
147 Reports of Helsinki Accord Monitors in the Soviet Union. Volume Three of the Documents of The Public Group to Promote Observance of the Helsinki Agreement in the USSR. 182. 7 November 1978. (accessible at: https://www.csce.gov/wp-content/uploads/2016/10/Reports-of-Helsinki-Accord-Monitors-in-the-Soviet-Union-1978.pdf).

müstəqil Ermənistanın yaradılmasına çağırış edən məqalələr yazır, “Daha susmaq olmaz” vərəqəsini paylayır, “Vətən naminə” jurnalının (343 nüsxə) nəşrini hazırlayırdılar. MVP onlardan sonra respublikada fəaliyyət göstərən demək olar ki, bütün dissidentlərə ciddi təsir göstərdi. Həmin qrup nəinki qeyri-rəsmi vətəndaş şəbəkəsi - partiya yaratmağa cəhd edirdi, həm də andın proqramını, nizamnaməsini və mətnini tərtib etmişdi. Maraqlıdır ki, bu qrupun üzvləri təhlükəsizlik məqsədilə kod adlarından istifadə edirdilər.[148] Lakin 1968-ci ildə MVP-nin yaradıcıları və onların bir neçə ardıcılı həbs olundu. Həbsxanada Zatikyan öz partiyasının daha mötədil üzvləri ilə əlaqəsini kəsərək terrorizmi müdafiə etməyə başladı. [149]

Daha sonra bu təşkilatın üzvlərinin terror hadisəsində iştirakları aşkarlandı. 1977-ci il yanvarın 8-də Moskva metrosunda partlayış baş verdi və bu partlayışda 44 nəfər yaralandı, 7 nəfər isə öldü. Ermənistanda yeni konstitusiyanın müzakirəsi ilə eyni vaxtda - 1977-ci il noyabrın 3-də Stepan Zatikyan (1947-ci il təvəllüdlü) və onunla qonşuluqda yaşayan iki gənc işçi - Hakop Stepanyan (1949-cu il təvəllüdlü) və Zaven Baqdasaryan (1954-cü il təvəllüdlü) həbs edildi. Dindirmələr zamanı Moskva partlayışının bu üç nəfər tərəfindən törədildiyi ortaya çıxdı. Dindirilmə prosesindən belə nəticəyə gəlmək olar ki, istintaq MVP, Ermənistan Helsinki Qrupu və bomba partlayışını birləşdirməyə çalışır. Hökm 1979-cu il yanvarın 24-də çıxarıldı: hər üçü edam edildi.[150] İki il sonra Sovet İttifaqının rəsmi xəbər agentliyi TASS terror hücumunun Zatikyan, Hakop Stepanyan və Zaven Baqdasaryan tərəfindən təşkil olunduğunu açıqladı. [151]

---

148 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia: Equal but Different? p. 80.
149 Армянское национальное движение... http://old.memo.ru/history/diss/books/alexeewa/chapter6.htm, (02.01.2024).
150 Yenə orada
151 Ronald Grigory Suny. Göstərilən əsər, s. 187

Bundan başqa, 1974-cü il yanvar 20-də 25 yaşlı Razmik Zohrabyan İrəvanın mərkəzi meydanında Leninin portretini yandırdı. Araşdırmalar nəticəsində bu qadının erməni gizli təşkilatı olan Milli Vahid Partiyasının üzvü olduğu ortaya çıxdı. [152]

Moskvadakı metro partlayışından sonra 1979-cu il martın 14-də Ermənistan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri M.A.Yüzbaşyan Ermənistan KP MK Bürosuna geniş hesabat yazmışdı. Hesabatda Ermənistandakı radikal təşkilatların xarici qüvvələrdən, xüsusən də ABŞ-da yerləşən radikal erməni diasporundan və daşnaklardan təsirləndiyi qeyd edilirdi. Yübaşyana görə, daşnaklar Ermənistanda millətçi hisslərdən sui-istifadə edir, onların respublikada yaradılan gizli təşkilatların və onları yaradan şəxslərin üzərində ciddi təsiri var. Məsələn, 1977-ci ildə Moskvada terror hücumları edən 3 nəfərdən ibarət qrupun lideri Stepan Zatikyan məhkəmədə verdiyi ifadədə daşnaklara heyran olduğunu qeyd etmişdir:[153] "Son 12 ildə Ermənistan DTK-sı düşmən Qərb təbliğatının təsiri altında yaradılmış 20-dən çox qeyri-qanuni antisovet millətçi qruplarını aşkar edərək ləğv edib. Ümumilikdə 1400-ə yaxın insan bu və ya digər formada antisovet fəaliyyəti ilə məşğul olub".[154]

MVP-nin ilk qurucuları həbs olunduqdan sonra sədri faktiki olaraq İrəvan Politexnik İnstitutunun tələbəsi, erməni vətənpərvərlik mahnılarının bəstəkarı olan 19 yaşlı Paruyr Hayrikyan oldu. Lakin 1969-cu ildə o da həbs olundu və 5 həmyaşıdı ilə birlikdə mühakimə edildi. Paruyr Hayrikyan İrəvan Politexnik İnstitutunda oxuyarkən Erməni Gəncləri Birliyini yaratmışdı. Bu gənclərin fəaliyyəti millətçi broşürlər hazırlayıb paylamaq-

152 Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia: Equal but Different? p. 84.
153 Ermənistan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri M.A.Yüzbaşyanın Ermənistan KP MK Bürosuna hesabatı. - https://digitalarchive.wilsoncenter.org/document/report-chairman-committee-state-security-armenian-socialist-soviet-republic-m-yuzbashyan, /14 mart 1979/.
154 Yenə orada

dan ibarət idi. 1966-cı ildən etibarən Paruyr Hayrikyan Milli Birlik Partiyası ilə əlaqələr qurdu. 1987-ci ildə o, nisbətən açıq şəkildə fəaliyyətə başlayan "Milli Özmüqəddəratını Təyinetmə İttifaqı"nı yaratdı və həftəlik "İstiqlal" qəzetini nəşr etdirməyə başladı.

Hayrikyan və onun bəzi tərəfdaşları vasitəsilə dissident hərəkatı 1980-ci illərin sonlarına qədər fəaliyyətini davam etdirdi. 1988-ci ildə bu dissident hərəkatını kütləvi Qarabağ hərəkatı üstələdi. Aşot Navasardyan (1968-ci ildə Milli Birlik Partiyasına qoşulmuş və bu cür fəaliyyətlərinə görə on iki il həbs cəzasının yeddi ilini çəkmişdi) 1990-cı ildə millətçi Respublika Partiyasını yaratdı. O, Qarabağdakı hərbi əməliyyatlarda da fəal iştirak etdi. Digər MVP veteranı Andranik Markaryan isə Respublika Partiyasının lideri və çox keçmədən Ermənistanın baş naziri oldu və bu postda olarkən vəfat etdi.[155]

Keçmiş SSRİ-nin 1975-ci ildə Helsinki Yekun Aktını imzalaması faktı yeni təşkilatların yaradılmasına təkan verdi. Bu, Sovet İttifaqının üzərinə insan hüquqları sahəsində öhdəliklər qoydu. Bu öhdəlikləri yerinə yetirmək üçün petisiya və digər etiraz formalarından istifadə edən "Helsinki Qrupları" kimi tanınan təşkilatlar Ermənistanda da ortaya çıxdı. 1980-ci illərdə ətraf mühitlə, o cümlədən Göyçə (Sevan) gölünün çirklənməsi və Ermənistandakı atom elektrik stansiyası ilə bağlı narahatlıqlar, Baltikyanı respublikalarda və Qazaxıstanda ekoloji hərəkatın meydana çıxması ilə eyni vaxtda aktivliyin ilk nümunələrini ilhamlandırdı. Baltikyanı hərəkat milli müstəqillik uğrunda mübarizə aparan antisovet xalq cəbhələrinə yönəldildiyi halda, Ermənistanda Azərbaycana qarşı fəaliyyətlər artdı.

Ermənistan Helsinki Təşkilatı ilk insan haqları təşkilatı idi. Bu təşkilatın yaradılması 1 aprel 1977-ci il tarixində elan edildi.

155 Razmik Panossian. The Armenians, p. 326.

Təşkilat Edvard Harutunyan, Robert Nazaryan və Samuel Osyan tərəfindən təsis edilib, sonra isə Şahen Harutunyan və Hambatsum Xlqatyan da təşkilata qoşulub. Qrupun bəyannaməsində qeyd olunurdu ki, onlar Helsinki sazişlərinə riayət olunmasına nəzarət etməklə yanaşı, respublikanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilməsinə, Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsinə çalışmaq niyyətindədirlər. 1977-ci ilin dekabrında qrupun iki üzvü həbs olundu və fəaliyyəti dayandırıldı.[156] Bunun ardından qrupun digər üzvləri də həbs edildi.[157]

Nəticədə, 1965-ci il mitinqi bir tərəfdən Ermənistanda millətçiliyi körüklədiyi halda, digər tərəfdən gizli təşkilatların yaranmasına təkan verdi. Yaradılan gizli təşkilatların üzərində daşnakların ciddi təsiri var idi. Əslində 1965-ci il mitinqi daşnakların Ermənistanda Azərbaycana qarşı tələblərinin gündəmə gətirilməsinin yayılması baxımından böyük bir fürsət yaratmışdı. Bu mitinqlə birlikdə daşnak düşüncəsi Ermənistanda güc qazanmış və daha sonra bu fəaliyyətini gizli təşkilatlarla davam etdirmiştir.

### 3.3. Dağlıq Qarabağda gizli fəaliyyətlərin canlanması

Ermənistanda vüsət alan bu proses Qarabağa da öz təsirini göstərdi. Burada da yavaş-yavaş separatçı vərəqələr yayılmağa, ictimaiyyət arasında gizli çıxışlar və gizli toplaşmalar təşkil edilməyə başlandı. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi 1973-cü ilin avqust ayında DQMV-də "erməni millətçiləri" adı altında əməliyyat təşkil etdi və bu əməliyyat zamanı daşnaklarla

---

156 Armenian Helsinki Group. - https://museum.khpg.org/en/1163033553 (09.11.2006)

157 Bu barədə daha ətraflı məlumat üçün bax: Reports of Helsinki Accord Monitors in the Soviet Union. Volume three of the Documents of the Public Group to Promote Observance of the Helsinki Agreements in the USSRP/ 182/. 7 November 1978. Accessible at: https://www.csce.gov/wp-content/uploads/2016/10/Reports-of-Helsinki-Accord-Monitors-in-the-Soviet-Union-1978.pdf. pp. 177-183.

əlaqəli fəaliyyət göstərən şəxslər həbs edildi.[158]

Sonradan Xankəndidə gizli silahlı təşkilat yaradan Arkadi Karapetyan Qarabağdakı fəaliyyətlərini belə xatırlayır: “Biz hələ məktəb illərində vətənimizin azad edilməsindən danışırdıq və 1975-ci ildə dostlarımız ilə bu hərəkatın gizli rüşeymini İrəvanda qoyduq. Qısa bir müddət fasilə verdik və 3-4 il sonra təkrar toplaşdıq.  Biz erməniləri narahat edən məsələləri toplayırdıq və gənclərlə aktiv işləyirdik”.[159] Karapetyan digər bir müsahibəsində isə ermənilərin daşnak lideri - İkinci Dünya müharibəsində nasistlərlə əməkdaşlıq etmiş Qaregin Nijdeni özlərinə nümunə götürdüklərini qeyd edir.[160]

1984-cü il sentyabrın 8-də gündüz saat 13.50 radələrində Bakıda Nərimanov prospektində Azərbaycan Politexnik İnstitutunun qarşısında 106 nömrəli ictimai nəqliyyatda terror aktı törədildi. Partlayış nəticəsində 1 nəfər öldü, 3 nəfər yaralandı. Əməliyyat-axtarış və istintaq işləri nəticəsində məlum oldu ki, bu terror aktını erməni Henrix Surenoviç Vartanov və İqor Mixayloviç Maxovski törədib. İ.M.Maxovskini bu cinayət əməlinə H.S.Vartanov cəlb etmişdi.[161]

Gizli təşkilatlanma nəticəsində Azərbaycana qarşı ilk terror hücumu 1984-cü ildə həyata keçirildi. Bu təşkilatlar 44 türk diplomatını və onların yaxınlarını qətlə yetirən terror təşkilatı olan ASALA-nın fəaliyyətini özlərinə nümunə götürərək Qarabağ

158 Musa Qasımlı. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, s.338-339.

159 Карабах – как все начиналось: Аркадий Карапетян.  - https://www.civilnet.am/news/180093-/%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%B1%D0%B0%D1%85-%D0%BA%D0%B0%D0%BA-%D0%B2%D1%81%D0%B5-%D0%BD%D0%B0%D1%87%D0%B8%D0%BD%D0%B0%D0%BB%D0%BE%D1%81%D1%8C-%D0%B0%D1%80%D0%BA%D0%B0%D0%B4%D0%B8%D0%B9-%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%BF%D0%B5%D1%82%D1%8F%D0%BD/, (18.02.2018).

160 Аркадий Карапетян: В основе армянской идеологии должна стоять вера. Читать далее: https://realtribune.ru/arkadij-karapetyan-v-osnove-armyanskoj-ideologii-dolzhna-stoyat-verahttps://realtribune.ru/arkadij-karapetyan-v-osnove-armyanskoj-ideologii-dolzhna-stoyat-vera, (30.04.2023).

161 Олег Кузнецов. Взрыв на проспекте Нариманова. - https://irs-az.com/new/pdf/201503/1426337917654263974.pdf

məsələsindəki tələblərini də terror vasitəsilə ictimailəşdirməyə və beynəlxalq müstəviyə çıxarmağa çalışırdılar. Çünki ASALA terror hücumları nəticəsində 1915-ci il hadisələrini beynəlxalq müstəviyə çıxarmağı bacarmışdı.

Ermənistan-Azərbaycan münaqişəsini qızışdıran ermənilər arasında Zori Balayan xüsusilə seçilirdi. O, 1981-ci ildə İrəvanda və 1984-cü ildə Moskvada nəşr olunan Ocaq ("Oçak") kitabında "Türkiyə və Azərbaycan türkləri Rusiya və Ermənistanın düşmənidir" fikrini, Dağlıq Qarabağ və Naxçıvanın tarixən erməni torpağı olduğunu "əsaslandırmağa" çalışırdı. Araz çayı sahilində "biz erməni çayı ilə ermənicə söhbət etdik" deyirdi. Z.Balayanı "şovinist intellektual döyüşçü" adlandıran Tomas de Valın fikrincə, ziyanlı "Ocaq" kitabının yayılmasına əsla icazə verilməməli idi. [162]

Tarixi romanlar müəllifi kimi bütün Sovet İttifaqında yaxşı tanınan Sero Xanzadyan bu dövrdə Leonid Brejnevə etiraz məktubu yazaraq, Qarabağın Ermənistana birləşdirilməsini istəmişdi.[163] Ermənistan Kommunist Partiyasının birinci katibi Karen Dəmirçiyan 1985-ci ilin yanvar ayında Sovet İttifaqı Mərkəzi Komitəsinə məktub yazaraq, 24 aprel tarixinin rəsmi anım günü kimi qeyd olunmasını istəmişdi. Lakin bu təklif qəbul edilmədi və yalnız Ermənistanda ümumi bir anım mərasimi təşkil edilməsi qərarlaşdırıldı. 1987-ci ildə "qlasnost" siyasətindən cəsarət alan Dəmirçiyan ikinci məktubunu Mərkəzi Komitəyə göndərdi və bu dəfə 24 aprel tarixində Ermənistan SSR-də "Soyqırım Qurbanlarının Anım Günü"nün elan edilməsini istədi.[164]

1980-ci illərdə erməni gizli təşkilatları olan Erməni Gənclər Birliyi, Erməni Milli Birliyi Partiyası və Erməni Helsinki İn-

162 Hamlet İsaxanlı. Sovet dövründə Dağlıq Qarabağ, IV hissə. - https://525.az/news/163286-sovet-dovrunde-dagliq-qarabag-vi-hissePAYLA%C5%9E (01.03.2021).
163 Grigory Suny. Göstərilən əsər, s. 189.
164 Arsène Saparov. Göstərilən məqalə, s.878.

san Haqları Təşkilatının üzvləri fəaliyyətlərini davam etdirdilər. Onlar fürsət tapdıqca fəaliyyətlərini ictimailəşdirməyə çalışdılar. Sovet İttifaqında Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə Moskvada ermənilərin artan nüfuzundan və ölkədə yaranan xaosdan faydalanaraq silahlı təşkilatlar yaratdılar.

# IV FƏSİL. "MİATSUM"A GEDƏN YOL

## 4.1. Mixail Qorbaçov dövrü: erməni irredentizminin artan ümidləri

1985-ci ildə Mixalil Qorbaçov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçiləndə ermənilər yeni prosesə artıq hazır idilər. Azərbaycanlılar isə bu prosesə hazırlıqsız yaxalandılar. Azərbaycan hökuməti Qarabağ ermənilərinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqla vəziyyəti sakitləşdirə biləcəyini düşünürdü. Lakin Azərbaycanın qarşısında təxmin etdiyindən daha böyük təhlükə - qərəzli, ideoloji və təşkilati güc var idi.

Irredentist millətçi ermənilərin hamısını birləşdirən vahid bir təşkilat yox idi, lakin onlar artıq buna hazır idilər. "Qarabağ hərəkatı"nda olan erməniləri  iki qrupa ayırmaq mümkündür. Bir qrup özlərini ziyalı adlandıraraq ictimai rəyə və Moskvaya təsir etmək istəyənlər, ikinci qrup isə gizli fəaliyyət göstərən və silahlı "mübarizəyə" üstünlük verənlər idi. Bu şəxslərin sonradan mətbuata verdiyi müsahibələri araşdırdığımız zaman qarşımıza üç diqqətçəkici məqam çıxır. Birincisi, əslində Qarabağda müharibəyə hazırlıq üçün ermənilər 1988-ci ildən deyil, 1975-ci ildən etibarən gizli fəaliyyətlərə başlamışdılar. İkincisi, onların Daşnaksütyun Partiyası ilə əlaqəsi olmuşdur.[165] Üçüncüsü, Qorbaçovun baş katib seçilməsi erməniləri həm ümidləndirmiş, həm də onlar üçün yeni fürsətlər yaratmışdı.

Mixail Qorbaçov dövrünün əsas siyasi kursu olan "qlasnost" ("aşkarlıq") fəlsəfəsinin əsasları Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçovun dəstəyi ilə bu vəzifəni tutmuş Sov.İKP MK-nın Təbliğat və təşviqat şöbəsinin müdiri (1985–1986)

165 Arkadi Karapetyan, Sergey Şahverdiyan kimi şəxslər Daşnaksütyun Partiyası leqal fəaliyyətə başladığı zaman təşkilata üzv olublar.

A.N.Yakovlev tərəfindən qoyulmuşdu. Yakovlev yenidənqurmanın əsas ideoloqu oldu və ona görə tez-tez onun "memarı" adlandırılırdı. O, ideologiya, mədəniyyət və təhsil məsələlərinə rəhbərlik edirdi. 1985-ci ilin dekabrında Yakovlev "qlasnost" siyasətinin konsepsiyasını formalaşdırdı və onu "Siyasi inkişafın imperativi" kimi tanınan qeyddə M.S.Qorbaçova təqdim etdi.

1986-cı il fevralın 25-dən martın 6-dək Sov.İKP-nin XXVII qurultayı keçirildi. Bu qurultayda Qorbaçov islahatlar siyasətinin əsas istiqamətlərini təsdiq etdi və partiya proqramının yeni redaksiyasını qəbul etdi. M.S.Qorbaçov və onun Sov.İKP rəhbərliyindəki tərəfdarları sosial-iqtisadi transformasiyaların uğursuzluqlarının və aşağı sürətinin səbəblərini siyasi sistemin sərtliyində görürdülər.

Beləcə, "perestroyka" ("yenidənqurma") termini ilk dəfə rəsmi olaraq Sov.İKP MK-nın 1987-ci il yanvar plenumunda istifadə edildi. M.S.Qorbaçov plenumdakı çıxışının əhəmiyyətli hissəsini bu terminin izahına həsr etdi. O, yenidənqurmanı "durğun prosesləri qətiyyətlə aradan qaldırmaq, əyləc mexanizmini sındırmaq, sovet cəmiyyətinin sosial-iqtisadi inkişafını sürətləndirmək üçün etibarlı və effektiv mexanizm yaratmaq" kimi müəyyən etdi.[166] Eyni zamanda, islahatçılar tərəfindən əvvəlcə daha çox sosializmi "təmir etmək" vasitəsi kimi baxılan aşkarlıq və demokratikləşmə daha sonra vətəndaş azadlıqlarının və siyasi demokratiyanın bərqərar olmasına çevrildi.

Qorbaçovun məqsədlərindən biri demokratik özünüidarəetmə olsa da, Sovet İttifaqını təşkil edən millətlər Moskvadan asılı olmayaraq özlərini idarə etmək hüququnu əldə etməyə çalışırdılar. Milli məsələ Mixail Qorbaçovun Sovet İttifaqını köklü şəkildə demokratik siyasətə çevirmək cəhdlərinin "Axil-

166 История СССР. Перестройка (1985–1991). - https://bigenc.ru/c/glasnost-v-sssr-d3af39 (01.02.2024).

les dabanı" idi. Nəticədə, yenidənqurma siyasəti milli zəmində qarşıdurmaya çevrildi. Qorbaçov dövründə milli zəmində ilk ciddi münaqişə 1986-cı ilin dekabrında Qazaxıstanın paytaxtı Alma-Atada (indiki Almatı) baş verdi.[167] Sonrakı iki il ərzində milli hüquqlar getdikcə daha güclü şəkildə müdafiə olundu. 1987-ci ilin iyulunda 1944-cü ildə vətənlərindən qovulmuş Krım tatarları geri qayıtmaq hüququnu əldə etmək üçün Qızıl meydanda dinc nümayiş keçirdilər. [168]

Xüsusilə aşkarlıq siyasəti səbəbi ilə respublikalarda müstəqillik tərəfdarı olan siyasi elitalar Qərbin də dəstəyi ilə daha çox güclənməyə başlamışdı. Ermənistanda, Gürcüstanda və Baltikyanı ölkələrdə müstəqillik və parçalanma tərəfdarları güc qazanırdı. Bu respublikalarda qruplar "qlasnost" siyasətindən istifadə edərək daha çox siyasi və iqtisadi müstəqillik tələb edirdilər.[169] "Qlasnost" Sovet İttifaqında mərkəzdənqaçma meyillərini gücləndirirdi və bu da İttifaq idarəçiləri arasında "qlasnost"a qarşı narazılığın artmasına səbəb olurdu. Mərkəzi Komitənin katibləri Liqaçev və Çebrikov "qlasnost"un və ümumiyyətlə, siyasi islahatların ölkədə iğtişaşlara səbəb olmasına və Kommunist Partiyasının liderlik rolunu məhv etdiyinə əmin idilər. Bu liderlər getdikcə daha aydın göstərdilər ki, partiyanı və ölkəni xilas etmək üçün əhəmiyyətli ixtisarlar etmək tələb olunur.[170]

Qorbaçovun Qərblə yaxınlaşması "yuxarı" eşelonda olan qüvvələr arasında parçalanmaya səbəb oldu və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunda qruplaşmalar əmələ gəldi. 1985-ci ildə Qorbaçov tərəfindən vəzifəyə təyin olunan Liqaçov, Lukyanov, Rıjkov onun "pe-

167 Füsun Kara. Almaatada 1986 Aralık Olayları: Jeltoksan. Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic, Volume 7/4, Fall 2012, p. 417-426
168 Celestine Bohlen. Crimean Tatars End Kremlin Protests. // The Washington Post, July 26, 1987.
169 Lilita Dzirkals. Glasnost and Soviet Foreign Policy. // RAND Corporation, January 1990, pp.33-34.
170 Gorbachev's Economic Programs: The Challenges Ahead, National Intelligence Estimate. -https://www.cia.gov/static/At-Cold-Wars-End2-The-Soviet-Crisis-Gorbachev-and-Perestroika.pdf, p. 58.

restroyka" və "qlasnost" siyasətinin ağır nəticələrini tənqid etməyə başladılar. Qruplaşmalar arasında qarşıdurma gizlin şəkildə aparılırdı. Bu qarşıdurmada etnik məsələləri və digər soaial-iqtisadi problemləri qarşılıqlı olaraq bir-birinə qarşı istifadə edirdilər. Qafqazda mövcud status-kvonun davam etməsinin tərəfdarı kimi çıxış edən ikinci katib Liqaçov və DTK rəhbəri Çebrikov olmuşdur. Onlar Qorbaçov tərəfindən başladılan bu islahatların respublikalarda mərkəzi hökumətləri zəiflədəcəyi fikrində olmuşdular. Mərkəzi Kəşfiyyat İdarəsinin Dağlıq Qarabağ problemi haqqında hazırladığı hesabata görə, Moskvadakı mühafizəkarlar Qorbaçova qarşı bu kartı istifadə edərək onun uğursuzluğu üçün etnik məsələləri qızışdırdılar.[171] Qorbaçovun özü də sosial, iqtisadi, siyasi və etnik məsələlərlə bağlı həyata keçirdiyi islahatlarla narazı kütlələrin mühafizəkar qüvvələrə qarşı dəstəyini əldə edəcəyini düşünürdü.[172] Aydın Balayevə görə, Qarabağ məsələsində Moskva ikibaşlı siyasət yürüdürdü: bir tərəfdən, respublikalar arasında sərhədlərin toxunulmazlığından bəhs edir, digər tərəfdən isə Dağlıq Qarabağ regionunun mədəni və iqtisadi cəhətdən geri qalmasından bəhs edərək, erməni tərəfinin "Miatsum" tezislərinə dəstək verirdi.[173] Bunun üçün də etnik narazılıqlardan öz siyasəti üçün istifadə edirdi. Beləcə, hər iki qrup artan erməni seperatizmini öz siyasi maraqları üçün istifadə etməyə başlamışdı.

Moskvada iki qrup arasında yaşanan qarşıdurma Ermənistana da təsir etmişdi. Bütün təzyiqlərə baxmayaraq, Qorbaçov Brejnevin kadrı olan Karen Dəmirçiyanı vəzifədən uzaqlaşdıra bilməmişdi. Eyni zamanda Moskva Ermənistan üzərində təsir

171 Unrest in the Caucasus and the Challenge of Nationalism, https://www.cia.gov/readingroom/docs/CIA-RDP91B00776R000600150001-9.pdf, (accessable 19.01.2023). p.iv.

172 Harold E. Rogers. Glasnost and Perestroika: An Evaluation of the Gorbachev Revolution and Its Solution and Its Opportunities for the West. // Denvar Journal International Law & Policy.Volume 16. Number 2. Winter\Spring. (1988). pp. 209-246, p. 221.

173 Aydın Balayev, Rasim Mirzə. 20 Yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000). Bakı: Çaşıoğlu, 2000, s.12.

imkanlarını itirmək üzrə idi. Dəmirçiyan ilə Qrobaçov arasında münasibətlər getdikcə açıq bir şəkildə qarşılıqlı tənqidə keçirdi. Qriqori Suniyə görə, bu dövrdə Moskva yerli kommunistlərin lideri Dəmirçiyanı Qorbaçov tərəfdarı olan bir lider ilə dəyişdirə bilmədiyi üçün Ermənistanda nəzarəti itirmiş və Moskva ilə yerli kommunistlər arasında əlaqə qopmuşdu.[174] Qorbaçov Ermənistandakı mitinqlərə və Qarabağdakı hadisələrə görə Dəmirçiyanı günahlandırırdı. 1987-ci ilin iyun ayında Qorbaçov açıq şəkildə Dəmirçiyanı tənqid etmişdi. Eyni zamanda "Pravda" qəzeti davamlı olaraq Dəmirçiyanı rüşvətxorluq və korrupsiyada günahlandırırdı.[175]

Nəticədə, bir tərəfdən "qlasnost" və "perestroyka", digər tərəfdən Moskvadakı qüvvələr arasında qarşıdurma Qarabağ seperatçıları üçün münbit şərait yaratmışdı. Lakin onlar üçün yeganə fürsət bundan ibarət deyildi. Belə ki, Moskvada Qorbaçov ətrafındakı erməni ziyalıları da Qarabağ separatçılarına açıq dəstək verirdilər.

## 4.2. Qorbaçovun "beyin komandası"ndakı ermənilər

Moskvada Qorbaçovun ətrafında ermənilərin sayı sürətlə artırdı. Onlar Moskvanın Dağlıq Qarabağ siyasətinə birbaşa təsir edirdilər. 1985-ci ildən etibarən Qorbaçovun ətrafında bir "beyin mərkəzi" formalaşmışdı. Bu beyin mərkəzinə Qarabağdan olan erməni əsilli tarixçi Georgi Şahnazarov və iqtisadçı akademik Abel Aqanbekyan da daxil idi. Şahnazarov Qorbaçovun siyasi məsələlər, akademik Aqanbekyan iqtisadi məsələlər, Dövlət Plan Komitəsi sədrinin 1-ci müavini Stepan Sitaryan isə planlaşdırma məsələləri üzrə köməkçiləri idilər.

174 Ronald Grigory Suny. Looking Toward Ararat, p. 197.
175 Celestine Bohlen. Gorbachov`s Nightmare. // The Washington Post, 28.03.1988.

Bundan başqa, Karen Brutents,[176] Leon Arşakoviç Onikov,[177] Karen Surenoviç Qaragözyan,[178] Mixail Mçedlov[179] "TASS", "Gosteleradio", "Pravda", "İzvestiya" kimi güclü təsir alətlərinə malik media orqanlarında çalışırdılar. Maraqlısı o idi ki, Moskva ermənilərinin ən nüfuzlu şəxslərinin çoxu keçmiş bakılılar idilər. Bundan başqa, Müdafiə Nazirliyində, Baş Prokurorluqda və Dövlət təhlükəsizlik orqanlarında da erməni millətçiləri çoxluq təşkil edirdilər. Onlar gizli və açıq şəkildə müəyyən qüvvələr arasında Dağlıq Qarabağla bağlı məsələnin həllində ermənilərin mövqeyini müdafiə etmək üçün Moskvada yaşayan bir çox vəzifəli şəxsləri, deputatları, politoloqları, jurnalistləri satın alırdılar.[180]

Qorbaçov dövründə erməni diasporu və lobbisinin hədəf halına gətirdiyi şəxs o dövrdə Komunist Partiyası Mərkəzi Komitəsinin yeganə azərbaycanlı üzvü Heydər Əliyev idi. Çünki o, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı qruplaşmanın fəaliyyətinin qarşısının alınmasında ciddi uğurlar əldə etmişdi. O, hakimiy-

176 1924-cü ildə Bakıda anadan olub. 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsindən məzun olub. 1954-cü ilə qədər Bakıda işləyib. Qorbaçov dövründə Sov.İKP MK-nın beynəlxalq şöbə müdirinin birinci müavini (1986-1990) olub. 1988-ci il fevralın 27-də Xankəndiyə gələrək separatist ermənilərə gizli təlimatlar verib. Chronology, https://files.preslib.az/projects/aggression/en/a3.pdf (30.01.2024).

177 Erməni əsilli, 1924-cü ildə Tiflisdə anadan olub. 1950-ci ildə Moskva Dövlət Universitetindən məzun olub. 1950-1954-cü illərdə Estoniya KP MK-da təbliğat şöbəsinin əməkdaşı olub. 1960-cı ildən 1991-ci ilə qədər Sovet İttifaqı KP MK aparatında ən məsul şəxslərdən biri olub. 1983-cü ildə Onikov artıq Sovet İttifaqı KP MK-da təbliğat idarəsinin məsləhətçisi idi. Daha sonra "İtar Tass" dövlət xəbər agentliyinin siyasi şərhçisi olub.

178 1935-ci ildə Moskvada anadan olub. 1953-cü ildə Birinci Moskva Dövlət Xarici Dillər Pedaqoji İnstitutunun tərcüməçi fakültəsinə qəbul olub. 1959-1960-cı illərdə Heidelberq Universitetində oxuyub. 1964-cü ildən jurnalistika ilə məşğul olub. "Xaricdə" həftəlik jurnalının redaksiya heyətinin üzvü, redaktoru, köşə yazarı, Avropa ölkələri şöbəsinin müdiri kimi fəaliyyət göstərib. 1977-ci ildə siyasi həftəlik "Novoe Vremya"da işləməyə başlayıb və Almaniyanın Bonn şəhərinə müxbir kimi göndərilib. 1982-ci ilə qədər orada çalışıb. 1982-ci ildə Moskvaya qayıdıb və burada "Novoye Vremya" jurnalında köşə yazarı kimi fəaliyyətini davam etdirib. 1983-cü ildə Sov.İKP MK-nın İdeologiya şöbəsinin tərkibinə daxil olan yeni yaradılmış Beynəlxalq informasiya şöbəsinə işə dəvət olunub. Sonralar Sov.İKP MK-nın İdeologiya şöbəsinin sektor müdiri olub. 1992-ci ildən Qorbaçov Fondunun Beynəlxalq əlaqələr və mətbuatla iş şöbəsinin müdir müavini kimi çalışıb. 2016-cı ildə V.A.Polyakov ilə birlikdə "Qorbaçov həyatda" ("Горбачёв в жизни") kitabını nəşr edib.

179 Marksizm-Leninizm İnstitutunun direktor müavini

180 Eyruz Məmmədov, Razaman Məmmədov. Sumqayıt - 1988: cinayət və cəza. Bakı: Nurlar, 2014, s.54

yətə gələn kimi keçmiş DQMV-də vəzifədə olan bütün separatçıları vəzifədən uzaqlaşdırmış və bölgənin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdı.[181] Moskvadakı ermənilər Heydər Əliyevin bu dəfə də onların irredentist məqsədlərinə çatmasına mane olacağını düşünürdülər. Bu səbəbdən Qorbaçov dövründə Moskvada güclü bir mövqe əldə edən ermənilər öz məqsədlərinə çatmaq üçün Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaq istəyirdilər.

1985-ci ilin əvvəlində Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan Sov.İKP MK-nın Siyasi Bürosuna qondarma "erməni soyqırımı"nın 60 illiyi ilə əlaqədar 24 aprel tarixinin hər il SSRİ-də anım günü kimi qeyd olunması təklifi ilə müraciət etmişdi. Siyasi Büronun iclasını aparan M.S.Qorbaçov buna razılıq versə də, H.Əliyev, N.A.Tixonov və A.A.Qromıko bu təklifə sərt etiraz etmişdilər. 1987-ci il oktyabrın 20-də Heydər Əliyev SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırıldıqdan sonra ermənilərin öz çirkin və cinayətkar niyyətlərini reallaşdırmaq ümidləri daha da artdı. [182]

Qeyd edildiyi kimi, Heydər Əliyev Dağlıq Qarabağda daşnakların təsirinin artmasının və onun Ermənistan SSR-ə birləşdirilməsinin qarşısını aldığından erməni lobbisinin və diasporunun hücumlarının hədəfində idi. Bu mənada, ondan qisas almaq üçün Qorbaçov hakimiyyəti yaxşı fürsət idi. Heydər Əliyev 1987-ci ildə müsahibələrindən birində qeyd etmişdi ki, o, İqor Muradyan tərəfindən təhdid və təhqirlərlə dolu məktub alıb. Məktubun müəllifi Heydər Əliyevi DQMV-nin Ermənistana birləşdirilməsinə mane olmaqda günahlandırırdı. Məktubda erməni terrorunun qurbanı olan türk və azərbaycanlıların adları yer al-

181 Eldar Abbasov. Gösdərilən məqalə, s. 61.
182 Cəbi Bəhrəmov. Bir səhvin acı nəticələri. // "Azərbaycan" qəzeti, 10 yanvar 2013-cü il, № 4, s.6.; 11 yanvar, № 5, s.6.

mışdı.[183] İ.Muradyan sətiraltı şəkildə H.Əliyevin də eyni taleyə məruz qala biləcəyini bildirmişdi.

Maraqlıdır ki, 1987-ci ilin mart ayında Muradyan eyni məktubun surətini Siyasi Büro üzvü və "perestroyka" ideoloqu olan A. Yakovlevə də göndərmiş və orada Heydər Əliyevi "Şərqi Ermənistanın parçalanmasını dərinləşdirməkdə günahlandırmışdı". (Şərqi Ermənistan millətçi ermənilər tərəfindən Ermənistan SSR, DQMV və Naxçıvan Muxtar Respublikasını nəzərdə tuturdu).[184] Bununla kifayətlənməyərək, SSRİ Baş Prokurorluğunda İ.Muradyan və Zare Melik-Şahnazaryan tərəfindən Siyasi Büronun üzvü Heydər Əliyevə qarşı iddia qaldırılmışdı.[185] Nəticədə, erməni diasporu və lobbi təşkilatının təzyiqi ilə Heydər Əliyev 1987-ci il oktyabrın 19-da Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı.

Bu dövrdə ermənilər Qərbdəki və Rusiyadakı müttəfiqlərinin dəstəyini alaraq rəsmi Moskvaya təzyiq göstərməyə çalışırdılar. Moskvada keçmiş dissidentlərdən, radikal nümayəndələrdən yaradılmış qeyri-rəsmi müxalif qruplar, demokratikləşən kütlənin çoxsaylı ziyalıları və erməni tezislərini açıq şəkildə dəstəkləyən ABŞ və Qərbi Avropa dövlətləri təzyiq mənbəyi idilər. Zori Balayan o dövrdə ermənilərin Dağlıq Qarabağ üçün hərtərəfli təzyiqini belə izah edirdi: "1986-cı ilin ortalarından və 1987-ci il boyu Moskvaya dayanmadan teleqramlar və sifarişli məktublar göndərilirdi. Müəlliflər artıq onlardan soruşmur, Qarabağ məsələsinin həllini birbaşa tələb edirdilər".[186] 1986-cı

183 From interview with Haydar Aliyev. // "Ulduz", 1990, № 6, p. 71. Haydar Aliyev and Karabakh İssue in 1970-1980s. - https://story.karabakh.center/en/heydar-aliyev-and-the-karabakh-issue-in-1970-80s#21
184 Haydar Aliyev and Karabakh İssue in 1970-1980s. - https://story.karabakh.center/en/heydar-aliyev-and-the-karabakh-issue-in-1970-80s#21
185 Манвел Саркисян. Начало Карабахского Движения и формирование комитета «Карабах». - https://acnis.am/ru/analysis/06-2018-ru /17 fevral 2018/.
186 Зорий Балаян. Карабахское движение – это детище армянского народа. - https://www.golosarmenii.am/article/62937/karabaxskoe-dvizhenie-%E2%80%93-eto-detishhe-armyanskogo-naroda, 19.02.2018.

ildə 360 erməni ziyalısı Qorbaçova məktub yazaraq Metsamor Atom Elektrik Stansiyasından sızmaların dayandırılması və kimyəvi zavodlardan yayılan çirklənmədən şikayət edirdilər. Zori Balayana görə, Sovet İttifaqında ilk mitinqlər 1986-cı ildə Ermənistanda ekologiyanın qorunması məqsədilə başladı. Bu dövrdə eyni zamanda Qarabağda minlərlə erməninin imzası toplanılaraq Moskvaya göndərildi.[187] 1987-ci il dekabrın 1-də Sov.İKP MK-nın qəbul şöbəsinin müdiri A.Krının erməni nümayəndə heyətini qəbul etdi. 1988-ci il yanvarın 4-də İqor Muradyan DQMV-dən Moskvaya böyük bir nümayəndə heyəti ilə gəldi. Nümayəndə heyətini SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini P.N.Demiçev və ən əsası bir ay sonra Sov.İKP MK-nın yeni yaradılmış Millətlərarası münasibətlər şöbəsinin müdiri olacaq V.A.Mixaylov qəbul etdi. Fevralın əvvəlində Qarabağdan daha bir nümayəndə heyəti gəldi. Həmin nümayəndə heyəti SSRİ-nin xarici işlər naziri A.A.Qromıko tərəfindən qəbul edilmişdi".[188] Göründüyü kimi, Ermənistan və Dağlıq Qarabağdan olan heyətlər davamlı olaraq Moskvada məsələni gündəmdə saxlamaq üçün bütün vasitələrdən istifadə edirdilər.

Erməni tərəfinin aqressiv irredentist siyasəti Moskvanın tolerantlıq siyasəti ilə qarşılanırdı. Bu vəziyyət MKİ tərəfindən hazırlanan hesabatlarda da öz əksini tapmışdır: "Moskvanın ilkin olaraq erməni istəklərinin qarşısını ala bilməməsi erməni millətçilərini öz tələblərini israrla irəli sürməyə vadar etdi, onun getdikcə artan tələbləri hərəkatın radikallaşmasına səbəb oldu. Nəticədə artan etirazlar güzəştə getməyən və radikal liderlərin nəzarətinə keçdi".[189] MKİ-nin təhlilində qeyd olunur ki, Qor-

187 Yenə orada
188 Yenə orada
189 Unrest in the Caucasus and the Challenge of Nationalism. - https://www.cia.gov/readingroom/docs/CIA-RDP91B00776R000600150001-9.pdf, (accessable 19.01.2023).

baçovun erməni hərəkatına yumşaq davranmasının səbəbi onun etnik müxtəlifliyə və regional muxtariyyətlərə xoş münasibətlə yanaşaraq qeyri-rus əhalinin siyasi və iqtisadi yenidənqurma siyasətinə dəstək əldə etmək idi.[190]

## 4.3. Qarabağda separatçıların açıq şəkildə təşkilatlanması

Qorbaçovun hakimiyyətə gəlməsi ilə ermənilər artıq gələcək prosesləri planlaşdırmağa, Dağlıq Qarabağda təşkilatlanmağa hazır idilər. Görünür, Qorbaçovun "beyin komandası"nda yer alan ermənilər yeni siyasətin istiqamətini separatçılara sızdırdılar. SSRİ-nin hər yerində geniş icmalar onlara fəaliyyətlərini əlaqələndirmək üçün qeyri-rəsmi şəbəkə yaratmağa imkan verirdi. Bu şəbəkənin mərkəzi fiquru İqor Muradyan idi. Ermənilər Qorbaçovun islahatlarının verdiyi tarixi fürsətdən istifadə etməli idilər.[191] 1985-ci ildə sürətli şəkildə təşkilatlanma, fəaliyyət proqramı yazma, strategiya müəyyənləşdirmə və hərəkətə keçmə prosesi başladı. 1985-ci ildən İrəvanda iqtisad elmləri namizədi, Ermənistan SSR Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunun əməkdaşı İqor Muradyan fəal işə başladı. Bu institutun bir qrup aspirantının köməyi ilə Dağlıq Qarabağ problemi ilə bağlı sənədlərin hazırlanıb SSRİ-nin mərkəzi orqanlarına təqdim edilməsi istiqamətində işlər aparılırdı. Paralel olaraq Moskvadakı erməni alimləri və nüfuzlu şəxsləri (akademiklər Abel Aqanbekyan, Vladimir Yepiskoposyan, Serqey Mikoyan[192] və b.) ilə əlaqələrin qurulması istiqamətində fəaliyyətlər həyata keçirildi. Eyni proses Ermənistanda da davam etdirildi. Ermənistandakı məşhur

190 Yenə orada, s.IV.
191 Marina Kurkchiyan. The Armenians. Past and Present in the Making of National Identity, 2005. 1st Edition. 2015 by Routledge, p.16.
192 Anastas Mikoyanın oğlu.

ermənilər (təqaüddə olan hərbçilər, yazıçılar Zori Balayan, Silva Kaputikyan və b.)[193] bu prosesə sürətli bir şəkildə daxil oldular.

Bununla yanaşı, ermənilər Qərbdə də bu məsələni gündəmdə saxlamağa çalışırdılar. Aqanbekyanın açıqlamalarından başqa, erməni diasporunun Bostonda nəşr olunan "Mirror Spectator" və "Paykar" kimi qəzetləri mövzunu diqqətdə saxlayırdı. Bu yolla erməni diasporu Qərbdəki tərəfdarlarının vasitəsilə təzyiqləri artırmağa çalışırdı. 1988-ci il yanvarın 25-dən fevralın 20-dək erməni yazarları, elm adamları, rəssamlar və kino xadimlərindən ibarət böyük bir qrup (yüz nəfərdən çox) ABŞ-da səfərdə oldu. Nümayəndə heyətinə Sülhü Müdafiə Komitəsinin sədri Henrix Borovik rəhbərlik edirdi. Səfər "SSRİ-ABŞ-Xalq diplomatiyası" unikal proqramı çərçivəsində həyata keçirilirdi. Nümayəndə heyətinə dünya şöhrətli kimyaçı alim Nikolay Yenikolopov və "Latın Amerikası" jurnalının baş redaktoru Serqo Mikoyan da daxil idilər. Bu heyət kiçik qruplara bölünərək müxtəlif ştatlara səyahət edirdi.[194] Məqsəd Dağlıq Qarabağda başlayan separatçı tələblər üçün ABŞ-da legitim əsaslar hazırlamaq və silahlı münaqişə başlayacağı təqdirdə özlərini haqlı çıxarmaq idi.

Dağlıq Qarabağda fəaliyyət göstərən bu gizli təşkilatlar daşnaklarla birbaşa əlaqədə idilər. 1985-ci ildə Daşnaksütyun Partiyasının 23-cü Dünya Konqresində qəbul edilən "Siyasi platforma" ("Political Platform of the Armenian Revolutionary Federation Ratified by the 23rd World Congress") Ermənistan ərazisinin "Ermənistan Respublikası, Naxçıvan, Dağlıq Qarabağ və Axalkalakidən ibarət olduğunu, əsas düşmənin isə Türkiyə olduğunu" bəyan etdi.[195] "Böyük Ermənistan" xəyalı milli məfkurəyə döndü, ərazi iddiaları erməni siyasətinin əsas hədəfinə

193 Bu fəallar komandasına sözügedən institutun 15 aspirantı və əməkdaşı daxil idi: Artak Stepanyan, Aşot Yeqiazaryan, Artur Parunakyan, Tiqran Ambartsumyan, Tatul Krpeyan və b.

194 Зорий Балаян. Карабахское движение.

195 Michael M. Gunter, Armenian Terrorism: A Reappraisal, The Journal of Conflict Studies, Winter 2007, pp. 109-128, p. 115

çevrildi. Bu siyasi platforma, faktiki olaraq, "Böyük Ermənistan" uğrunda yeni savaşın elan edilməsi idi. Beləliklə, 1985-ci ildən başlayaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün yaradılmış ideoloji-təbliğat hərəkatı Dağlıq Qarabağda və Azərbaycanın ermənilər yaşayan rayonlarında gizli fəaliyyət göstərən kiçik qruplar vasitəsilə "Artsax"ın təhrif olunmuş tarixini həqiqət qiyafəsində yaymağa başladı. Problemləri həll etmək, əhalinin maarifləndirmə səviyyəsini yüksəltmək, həmfikirlər tapmaq, mübarizəyə yeni təkan vermək üçün vəsait toplamaq, həmvətənlərin fiziki təhlükəsizliyini qorumaq üçün silah-sursat almaq istiqamətində fəaliyyət göstərilirdi. Ermənilərin müasir ideyaları və problemləri ilə maraqlanan gənclər və tələbələr də gizli mübarizəyə cəlb olunurdular.[196]

Daşnakların ABŞ-da nəşr olunan "Armenian Weekly" ("Erməni həftəliyi") jurnalında nəşr olunan məqaləsində Andranik Qasbaryan bu haqda yazırdı: "Təsadüfi deyil ki, Mkrtçyan, Qasparyan Erməni İnqilabi Federasiyası (ARF, daşnaklar) ilə əlaqə saxlayırdılar. ARF Dağlıq Qarabağın silahlı mübarizəsinin təşkilində əsas element olub, döyüşçülərə silahlar, maddi-texniki və humanitar təchizat şəklində milyonlarla dollarlıq yardım göndərib".[197]

Qasparyan daşnakların dəstəyini belə izah edir: "Sonrakı iki-üç il ərzində partiya metodik olaraq aparıcı yerli fəalları öz sıralarına cəlb etməklə nüfuz qazandı və bununla da bütün "anklavda" bir qüvvə kimi meydana çıxdı. ARF bu işdə tək deyildi, lakin bəzi addımları onu ön plana çıxartdı: 1) Dağlıq Qarabağ Ermənistandan yalnız ara-sıra dəstək aldığı bir vaxtda çoxları

196 ՂԱՐԱԲԱՂՅԱՆ ՇԱՐԺՄԱՆ ՆԱԽԱՊԱՏՐԱՍՏԱԿԱՆ ՓՈՒԼԻ ՊԱՏՄՈՒԹՅՈՒՆԻՑ. ԹԱԹՈՒԼ ԿՐՊԵՅԱՆԻ ԵՎ ԻԳՈՐ ՄՈՒՐԱԴՅԱՆԻ ՀԱՄԱԳՈՐԾԱԿՑՈՒԹՅՈՒՆԸ Իրինա Բարսեղյան-Կրպեյան, (İrina Barseqyan-Krpeyan, "QARABAĞ HƏRƏKATININ HAZIRLIQ MƏRHƏLƏSİNİN TARİXİNDƏN. TATUL KRPEYAN VƏ İQOR MURADYANIN ƏMƏKDAŞLIĞI". «21-ci Əsr», № 5 (81), 2018-ci il). «21-րդ ԴԱՐ», թիվ 5 (81), 2018թ. s. 100.

197 Antranig Kasbarian. The Artsakh Struggle and the ARF. - https://armenianweekly.com/2016/02/09/the-artsakh-struggle-and-the-arf/, 09,02. 2016.

ehtiyacları, xüsusən də silahların alınması üçün ARF-in simasında daha etibarlı və sadiq bir təşkilat gördü; 2) Hərəkatın ilk illərində ARF ermənilərin məskunlaşdığı digər torpaqların müdafiəsində tarixi, az qala mifik roluna görə hələ də böyük nüfuza malik idi; 3) Bəzi sosialist məzmunlu şüarlara baxmayaraq, ARF mesajlarını Dağlıq Qarabağda vətənin müdafiəsinə yönəltmək üçün sadələşdirdi. Bu da dərhal nəticə əldə etməyə çalışan bir çox qarabağlını cəlb etdi. Onlardan birinin qeyd etdiyi kimi: "Bizim çoxumuz çox sadə bir deyimlə qoşulduq: Nijde daşnak idisə, mən də olmalıyam". Bundan əlavə, ARF öz adamlarını Dağlıq Qarabağa göndərmədi, lakin onun siyasətini və fəaliyyət metodlarını qəbul edən liderlər, o cümlədən Mkrtçyanın özü ilə və əsasən tanınmış fəal şəbəkələr vasitəsilə işləyirdi.[198] Göründüyü kimi, Qarabağdakı separatçı hərəkatla daşnaklar arasında olan çox yaxın əlaqələr birincilərin silahlanmasına və onların arasında daşnak ideologiyası təsirinin artmasına səbəb olmuşdu".

Bu dövrdə Hadrud və Xankəndidə eyni vaxtda iki təşkilat qurulmuşdu. Hadruddakı təşkilatın qurucusu İqor Muradyan, Xankəndidəki təşkilatın qurucusu isə Arkadi Karapetyan idi. Bu iki təşkilat da militarist istiqamətli olub, daşnaklarla birbaşa əlaqədə idi. Qorbaçovun Sovet İttifaqı Mərkəzi Komitəsinin baş katibi olmasından sonra Ermənistandan gələrək Hadrudda tarix-diyarşünaslıq muzeyinin direktoru təyin olunan Artur Mkrtçyan bu təşkilatın fəaliyyətində mühüm rol oynadı.[199] İqor Muradyan xatirələrində hərəkatı təşkil etmək üçün sovet hökumətinin qadağan etdiyi və gizli şəkildə fəaliyyət göstərən daşnaklarla əməkdaşlıq etdiyini, onların köməyi ilə xaricdən 1986-cı ilin yayında ilk yüngül silahların alındığını bildirir: "Silahlar daha son-

198 Yenə orada.
199 Mkrtçyan 1991-ci ildə qondarma "Dağlıq Qarabağ Respublikası"nın ilk prezidenti olub, lakin üç ay sonra öldürülüb.

ra müntəzəm şəkildə daxil oldu, onların arasında nədənsə çoxlu çex silahları var idi". Bu silahların çoxu birbaşa Dağlıq Qarabağa gedirdi: "Bütün təşkilatlar silahlı idi. Bütün komsomol [kommunist gənclər təşkilatı] silahlanmışdı".[200] Yuxarıda qeyd edildiyi kimi, İqor Muradyan daim Moskvada erməni alimləri və nüfuzlu şəxsləri (Aqanbekyan, Yenikolopov, Yepiskoposov, Mikoyan və b.), eləcə də Ermənistanın tanınmış simaları (təqaüddə olan hərbçilər, yazıçılar Zori Balayan, Silva Kaputikyan və b.) ilə əlaqə yaratmağa çalışırdı. Onun komandasına SSRİ Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunun 15 aspirantı və əməkdaşı daxil idi: Artak Stepanyan, Aşot Yeqiazaryan, Artur Parunakyan, Tiqran Ambartsumyan, Tatul Krpeyan və başqaları.[201] Ermənilərin məqsədi sadəcə DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi deyil, eyni zamanda bu regionda yaşayan azərbaycanlıları da buradan qovmaq idi. Muradyan Azərbaycanın mövqeyinə və Dağlıq Qarabağda yaşayan azərbaycanlıların mümkün reaksiyasına tamamilə məhəl qoymurdu. O, referendumdan söz düşəndə hətta bir neçə dəfə təkrarlamışdı: "Bizi bu insanların taleyi maraqlandırmır".[202]

Buna paralel olaraq, Arkadi Karapetyanın təklifi ilə 1986-cı ildə mərkəzi Xankəndidə və Qarabağın rayonlarında nümayəndələri olan yeni bir təşkilat yaradıldı. Karapetyan da uzun müddət gizli fəaliyyət göstərirdi. O, bu haqda deyir: "16 yaşında vətənimi türklərdən və digərlərindən azad etmək üçün and içdim. Sonra gizli fəaliyyət göstərən qrup təşkil etdim, özüm kimi adamları topladım, amma uşaq idim, qrup dağıldı, yenidən yı-

200 Thomas de Waal. Black Garden, Armenia and Azerbaijan, Through peace and war. New York University Press, 2003, p. 18.

201 1985-1988. Արցախյան շարժման ակունքներ, (Artsax hərəkatının mənşəyi), https://nooberella.home.blog/2020/11/06/1885-1888%e2%80%a4-%d5%a1%d6%80%d6%81%d5%a1%d5%ad%d5%b5%d5%a1%d5%b6-%d5%b7%d5%a1%d6%80%d5%aa%d5%b4%d5%a1%d5%b6-%d5%a1%d5%af%d5%b8-%d6%82%d5%b6%d6%84%d5%b6%d5%a5%d6%80/,

202 Том де Ваал. Глава 1. Февраль 1988 года. - http://news.bbc.co.uk/hi/russian/in_depth/news-id_4640000/4640183.stm

ğıldı, amma daimi üzvlər də var idi. Sonra daha ciddi təşkilata çevrildi".[203]

1986-cı ildə Xankəndidə qurulan təşkilatın adı "Artsax Birliyi" idi və 11 nəfərdən ibarət komitə tərəfindən idarə olunurdu. Təşkilatın proqramı və nizamnaməsi var idi. Komitənin rəhbəri Arkadi Karapetyan idi. Təşkilatın DQMV-nin rayonlarında da şöbələri yaradılmışdı. Bu təşkilat da ayrıca olaraq 1987-ci ilin yayında və payızında 80 mindən çox imza toplayaraq minimum proqramını yerinə yetirdi və noyabrın sonunda Sov.İKP Mərkəzi Komitəsinə təqdim etdi.

"Artsax Birliyi" də Hadrud təşkilatı kimi silahlı təşkilat hesab olunur. Arkadi Karapetyan silahlı müharibəyə hazırlaşdıqlarını belə qeyd edir: "Çoxlarından fərqli olaraq, biz bütün bunların sonda qan tökülməsinə səbəb olacağını yaxşı bilirdik və buna hazırlaşırdıq. Biz - mən, Oskolka, Aşot Sarkisyan, Roles Ağadjanyan asfalt zavodunda qumbaraatanların istehsalını təşkil etdik. Təbii ki, bizi ekstradisiya etdilər və uşaqları DTK-ya çağırmağa başladılar. Bu, elə bir vaxt idi ki, artıq bütün xalq mübarizəyə qalxmışdı".[204]

1988-ci ilin fevral ayının əvvəlinə bütün hazırlıqlar tamamlanmışdı. Dağlıq Qarabağda yaradılmış separatçı təşkilatlarla yanaşı, 1988-ci ilin fevral ayında ictimaiyyət arasında gücünü və təsirini artırmaq məqsədilə separatçılar qadınları da prosesə daxil edirdilər. Keçmiş Martuni Rayon Soveti İcraiyyə Komitəsinin Plan Komitəsinin sədri Ancelina Hovsepyan onlardan biri idi. 1987-ci

---

203 Karapetyan 1958-ci ildə Xankəndidə anadan olub. Аркадий Карапетян: В основе армянской идеологии должна стоять вера. Читать далее: https://realtribune.ru/arkadij-karapetyan-v-osnove-armyanskoj-ideologii-dolzhna-stoyat-verahttps://realtribune.ru/arkadij-karapetyan-v-osnove-armyanskoj-ideologii-dolzhna-stoyat-vera (30.04.2023).

204 Карабах – как все начиналось: Аркадий Карапетян, https://www.civilnet.am/news/180093-/%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%B1%D0%B0%D1%85-%D0%BA%D0%B0%D0%BA-%D0%B2%D1%81%D0%B5-%D0%BD%D0%B0%D1%87%D0%B8%D0%BD%D0%B0%D0%BB%D0%BE%D1%81%D1%8C-%D0%B0%D1%80%D0%BA%D0%B0%D0%B4%D0%B8%D0%B9-%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%BF%D0%B5%D1%82%D1%8F%D0%BD/, (18.02.2018).

ildə Ağdərə (Martuni) rayonunun təşkilatçıları və fəalları sıralarına qoşulan qadınlardan Rita Gevorkyan (Martuni Mərkəzi Kitabxanasının direktoru), Silva Balayan (Martuni rayon komitəsinin katibi), Silva Xaçatryan (jurnalist) iclasların gizli imzalanmasının təşəbbüskarı və həyata keçirilməsi, ideoloji işlərin aparılması, gizli görüşlərin təşkili işləri ilə məşğul olurdular. Gizli aparılan işlərin məqsədi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbinin artmasına kömək etmək idi. İstər Xankəndidə, istərsə də digər rayon mərkəzlərində gizli yığıncaqlar, konfranslar keçirilir, bu toplantılarda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərarlar qəbul edilirdi. Gizli qrupların prioritet vəzifələrindən biri də 1987-ci ildə həyata keçirilən təşəbbüs qruplarının yaradılması idi. Artıq sentyabr ayında belə qruplar Əsgəran rayonunun demək olar ki, bütün kəndlərində fəaliyyət göstərirdi. Onlar rayon mərkəzindəki tərəfdarları ilə fəal əməkdaşlıq edirdilər.[205]

Qondarma qurumun Dövlət Qulluğu Şurasının sədri Boris Aruşanyan (sovet dövründə Xankəndi Elektrotexnika zavodunun müdiri) bunu belə izah edir: “Hələ 1987-ci ilin sonu, 1988-ci ilin əvvəlində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün qeyri-qanuni referendumda imza toplamasına başlanılıb. Həmin günlərdə “gevorkovçuluğun” təzyiqi şəraitində hərəkata sadiq bir qrup şəxs idarə və müəssisələri dolaşaraq imza toplayırdılar. Qorbaçovun yenidənqurması bizə ümid və ədalətli tələbimiz naminə irəli çıxmaq imkanı verdi”.[206]

Separatçıların bu dövrdə Qarabağda başlatdığı hərəkatın aktiv iştirakçılarından Sergey Şahverdiyan hərəkatı bir neçə mərhələyə bölür: “Artsax hərəkatı ümumiyyətlə bir neçə mər-

205 ԻՍԿՈՒՀԻ ԱՎԱՆԵՍՅԱՆ , “ԿԱՆԱՆՑ ՄԱՍՆԱԿՑՈՒԹՅՈՒՆՆ ԱՐՑԱԽՅԱՆ ՇԱՐԺՄԱՆ ԸՆԴՀԱՏԱԿՅԱՓՈՒԼԻՆ (1986-1988ԹԹ.)” (İskuhi Avenisyan. Artsaxiya hərəkatının aralıq mərhələsində qadınların iştirakı (1986-1988). - http://artsakhconflict.blogspot.com/2018/02/1986-1988.html, (15.02.2018).

206 Наша борьба 88-го еще не завершена... - https://www.artsakhtert.com/rus/index.php/social/item/5236-%D0%BD%D0%B0%D1%88%D0%B0-%D0%B1%D0%BE%D1%80%D1%8C%D0%B1%D0%B0-88-%D0%B3%D0%BE-%D0%B5%D1%89%D0%B5-%D0%BD%D0%B5-%D0%B7%D0%B0%D0%B2%D0%B5%D1%80%D1%88%D0%B5%D0%BD%D0%B0, Февраль 21, 2011

hələdən ibarət idi. 1988-ci ilə qədər bu, gizli fəaliyyət mərhələsi olub, ictimai mübarizə və silahlı mübarizə mərhələsi olub. İnstitutda oxuduğumuz illərdə də biz milli məsələlərlə köklənmiş bir qrup tələbə olaraq Qarabağın gözlənilən azadlığına öz töhfəmizi verməyə çalışırdıq və o dövrdə mövcud olan rəsmi strukturlardan çox fəal istifadə etdik: Həmkarlar İttifaqı Komitəsi və Tələbə Şurası. Bu strukturlar vasitəsilə hərəkatımıza başladıq".[207]

## 4. 4. 1987-ci il: separatizm hücuma keçdi

Dağlıq Qarabağda təşkilatlanma işinin tamamlanması ilə birlikdə separatçı ermənilər əvvəlcədən hazırlanan strategiya çərçivəsində hərəkətə keçdilər. Əvvəlcə imzalar toplanıldı, Azərbaycandan ayrılmaq istəyən qruplara dəstəyi və təbliğatda aktiv iştirak edənlərin sayını artırmaq üçün fəaliyyətə başladılar. Bütün təşkilatlanma, imza toplama və mitinqlər Hadrutdan başladı. Bir növ Hadrud separatçı hərəkatın koordinasiya mərkəzi oldu. 1987-ci ilin əvvəllərində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün kolxoz, sovxoz və yerli təşkilatlarında ermənilər tərəfindən iclaslar keçirilərək, DQMV-nin Ermənistana birləşdirilməsi haqqında imzalar toplandı və Moskvaya göndərildi.[208] Bu, eyni zamanda Mixail Qorbaçovun "perestroyka" və "qlasnost" siyasətini rəsmi elan etdiyi tarixə təsadüf edirdi. 1988-ci ilin əvvəlinə qədər 75 min imza Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə təqdim edildi.[209]

Dağlıq Qarabağda başlayan imzatoplama kampaniyası paralel

207 Դեռ ժամանակ եւ ճանապարհ ունենք անցնելու. Սերգեյ Շահվերդյան, Hələ vaxtımız və yolumuz var. Sergey Şahverdyan. - https://aparaj.am/%D5%A4%D5%A5%D5%BC-%D5%AA%D5%A1%D5%B4%D5%A1%D5%B6%D5%A1%D5%AF-%D5%A5%D6%82-%D5%B3%D5%A1%D5%B6%D5%A1%D5%BA%D5%A1%D6%80%D5%B0-%D5%B8%D6%82%D5%B6%D5%A5%D5%B6%D6%84-%D5%A1%D5%B6%D6%81%D5%B6%D5%A5%D5%AC/

208 Нагорный Карабах: Историческая справка. Академия наук Армянской СССР, 1988 год, с. 59.

209 История Нагорно Карабахского конфликта. - https://tass.ru/info/8979501

olaraq Ermənistanda da davam etdirildi. 1987-ci ilin avqust ayında Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsi üçün Ermənistan Elmlər Akademiyası tərəfindən imza toplandı. Çardaxlı hadisələrindən sonra Ermənistanda yaşayan azərbaycanlılara qarşı hücumlar təşkil olundu. Beləcə, 1987-ci ilin oktyabr-noyabr aylarında və 1988-ci ilin yanvar-fevral aylarında Ermənistanda yaşayan azərbaycanlıların ilk kütləvi deportasiya prosesi baş verdi.[210]

Hərəkatın fəalları, iqtisadçı İqor Muradyan, tarixçi Artur Mkrtçyan, memar Manvel Sarkisyan və rəssam Emil Abramyan Hadrutdan olduğuna görə imzatoplama kampaniyası Hadrutdan başladı. Tezliklə onlara Qrişa Ayrapetyan, Qaqik Avanesyan, Nelli Kasparova və başqaları qoşuldu. 1987-ci ilin iyununda bu qrup DQMV-nin Hadrut kəndinin vətəndaşlarının adından “yenidənqurmanın atası” Mixail Qorbaçova müraciət edərək Dağlıq Qarabağ ermənilərinin hüquqlarını bərpa etmək tələbi ilə ilk kollektiv məktub göndərdi. Bu məktubla bağlı məlumatın yayılması DQMV və Ermənistanda ayrı-ayrı fəal qrupların birləşməsi prosesinə təkan verdi.[211]

Yerli hakimiyyətdə təmsil olunan erməni nümayəndələr separatçılara dəstək verir, lakin eyni zamanda Bakıdakı rəhbərliyin nə baş verdiyini öyrənib onları işdən çıxaracağından ehtiyat edirdilər. Ona görə də gah fəalları incitməyə üstünlük verir, gah da sadəcə olaraq baş verənlərə göz yumur, özlərini heç nədən xəbərləri yox imiş kimi aparırdılar.[212] Beləcə, yerli hakimiyyət orqanları ikili oyun oynayaraq əslində separatçı hərəkatı müəy-

---

210 Svante Cornell. Azerbaijan Since Independence, December 23, 2010, Routledge, pp. 48-49.

211 Манвел Саркисян. Начало Карабахского Движения и формирование комитета «Карабах». -https://acnis.am/ru/analysis/06-2018-ru, /17 февраль 2018/

212 Tatul Hakobyan. «Взрыв» в Нагорном Карабахе – год 88-ой. - https://www.civilnet.am/news/180071/%D0%B2%D0%B7%D1%80%D1%8B%D0%B2-%D0%B2-%D0%B-D%D0%B0%D0%B3%D0%BE%D1%80%D0%BD%D0%BE%D0%BC-%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%B1%D0%B0%D1%85%D0%B5-%D0%B3%D0%BE%D0%B4-88-%D0%BE%D0%B9/, (12.02.2018).

yən bir hazırlıq mərhələsinə gətirməyə və öz dəstəyini artırmağa çalışırdı.

Bundan az sonra, noyabrın 18-də Sov.İKP MK-nın baş katibi M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibədə DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olması və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi. Həmin ilin noyabrında M.Qorbaçov ABŞ-da səfərdə olarkən onun xanımı Raisa Qorbaçova erməni diasporunun nümayəndələri ilə görüşmüşdü. Görüşün təşkilində SSRİ-nin həmin vaxt ABŞ-dakı səfiri Yuri Dubininin xanımı Liana Zavenovna Dubinina xüsusi fəallıq göstərmişdi. Raisa Qorbaçovanın tamahına bələd olan ermənilər ona qiymətli hədiyyələr bağışlamış, M.Qorbaçovdan Dağlıq Qarabağ ermənilərinin tələblərini yerinə yetirməyi xahiş etmişdilər. Dekabrın 1-də Dağlıq Qarabağ ermənilərinin təmsilçiləri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etmişdilər.[213] Heydər Əliyev müsahibələrinin birində demişdi: "Abel Aqanbekyan "L`Humanite" qəzetinə müsahibəsində bildirmişdi ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir. O, bu məsələni (müsahibə) Qorbaçov ilə əvvəlcədən razılaşdırıb onun razılığını almışdı. Şübhəsiz ki, başqa çıxışları da olmuşdu. Orada Qorbaçova istinad vardı. Hər şey bu çıxışdan başladı və 8 il davam edən müharibəyə səbəb oldu".[214]

1987-ci ilin dekabrı ilə 1988-ci ilin fevral ayları arasında Qarabağda yaşayan ermənilərin üç nümayəndə heyəti minlərlə imza ilə Moskvaya getdi. Birinci heyət Moskvaya dekabrın

213 Nazim Mustafa. İrəvan şəhəri. Bakı, 2020. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi.
214 Heydər Əliyevin Fransa Beynəlxalq Magistrlər İnstitutunda "Azərbaycan və Qafqaz XXI əsrin astanasında" mövzusunda mühazirəsi. - https://files.preslib.az/projects/toplu/v2/f3_7.pdf, (13.01.1997), s. 30.

1-də getdi. Daha sonra ikinci heyət getdi. Nümayəndə heyətinin 13 nəfərlik üzvlərindən biri orta məktəb müəllimi Cəmil Martirosyan 2006-ci ildə verdiyi müsahibədə deyirdi: "Biz ayrı-ayrılıqda İrəvana getdik və orada İqor Muradyana qoşulduq. 1988-ci il yanvarın 5-də Moskvaya uçduq. Birinci gecə Moskvada təhsil alan erməni tələbələrin yataqxanasında qaldıq. Sonra yazıçı Zori Balayan və həkim Valeri Marutyan bizləri hotelə yerləşdirdilər". Siyasi Şura üzvü və SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini Pyotr Demiçev DQMV-nin Xalq Deputatları Sovetinin üzvü Vazgen Balayanı qəbul etdi. Lakin Balayan rus dilində axıcı danışa bilmədiyi üçün Hadrut muzeyinin direktoru Artur Mkrtçyan da ona qoşuldu. Onlar görüşdən Siyasi Şuranın Dağlıq Qarabağ ermənilərinin tələbini rədd etməyəcəyi ümidi ilə çıxdılar. Lakin onlar geri qayıdanda Azərbaycan SSR-in tələbi ilə yerli kommunist rəsmilər və DTK tərəfindən görüşə çağırıldılar, lakin əvvəlki illərdə olduğu kimi onlara qarşı sərt tədbirlər görülmədi.[215]

Beləcə, 1987-ci ilin əvvəli separatçıların açıq şəkildə fəaliyyətə başladığı dövr oldu. Bu tarixdə ermənilərin hərəkətə keçməsinə iki hadisə səbəb oldu: birincisi, Qorbaçovun elan etdiyi "şəffaflıq və yenidənqurma" siyasəti; ikincisi, Qorbaçovun ətrafındakı "beyin komandası"nda ermənilərin olması. Bunun üçün ilk təxribatı da "Şimali Artsax" olaraq gördükləri Şəmkir rayonunun Çardaxlı kəndində törətdilər.

## 4.5. İlk çaxnaşmalar: Çardaxlı

Qorbaçovun hakimiyyətə gəlməsi və Moskvada ermənilərin rolunun artması Azərbaycan daxilindəki separatçıları da

215 Emil Sanamyan. Karabakh Armenians' Appeals to Politburo and the Crimean Tatar Precedent.- https://armenian.usc.edu/karabakh-armenians-appeals-to-politburo-and-the-crimean-tatar-precedent/ /January 10, 2018/

cəsarətləndirdi. Ermənilər 1987-ci ilin əvvəllərində Şəmkir rayonunun Çardaxlı kəndində fitnəkarlığa əl atdılar. Bu rayon DQMV-nin sərhədlərindən kənarda, ermənilər üçün "Şimali Artsax" adlandırılan bölgənin sərhədləri daxilində idi. 2004-cü ildə ilk olaraq erməni dilində Samvel Karapetyan tərəfindən bu iddiaları kitab halına salan ermənilər 2008-ci ildə bu kitabı ingilis dilinə tərcümə etdilər və Moskvadakı Ermənistan Respublikasının səfirliyində təqdimatını keçirdilər.[216] Ermənilərə görə, "Şimali Artsax" "Cənubi Artsax"ın ayrılmaz bir hissəsi idi və oranı guya Azərbaycan işğal etmişdi.

1987-ci ildə bu kənddə ermənilər üç təxribatçı tədbir keçirməyə cəhd etdilər. 1987-ci ilin aprelin 24-də qondarma "soyqırımın", həmin ilin avqustun 25-də Andranikin, dekabrın 1-də isə marşal Bağramyanın 90 illik yubileyi ilə bağlı tədbirin keçirilməsini nəzərdə tutmuşdular. 1987-ci ildə Şəmkir Rayon Partiya Komitəsinin birinci katibi olmuş Əjdər Əsədov bununla bağlı bildirirdi: "Əvvəlcədən məlumatlar olub ki, bu hadisələri bəhanə edən ermənilər hər 3 hadisədən də Azərbaycanın əleyhinə istifadə edəcəklər və dekabrın 1-dəki tədbirlə isə fəaliyyətə başlayacaqlar".[217] Lakin görülən tədbirlər Şəmkirdəki hadisələrin qarşısının alınmasına səbəb oldu. 1987-ci ilin oktyabr ayında Çardaxlı kəndinin kolxoz sədrliyinə azərbaycanlının seçilməsi ermənilər arasında etiraza səbəb oldu. Bu etiraz sonradan polislə qarşıdurmaya çevrildi. Nəticədə qarşıdurmada iştirak edən bəzi ermənilər həbs olundu.

Lakin bu dəfə İrəvanda keçirilən mitinqlərdə Çardaxlı təxribatını dəstəkləyən yeni şüarlar ortaya çıxdı. Belə ki, 1987-ci ilin oktyabr ayında İrəvanda "ekoloji" tələblərlə başlayan mitinqlər

216 «Северный Арцах»: армянские территориальные претензии идут в направлении Грузии и Тбилиси! - https://www.kavkazplus.com/news.php?id=20421#.Y_ipuHZByUk, (28.05.2018).
217 Bu məmurumuz ermənilərin Azərbaycanda 50 minlik mitinqinin qarşısını aldı-Amma... https://moderator.az/az/ekskluziv/566480/bu-memurumuz-ermenilerin-azerbaycanda-50-minlik-mitinqinin-qarsisini-aldi-amma/, (03.11.2022).

bir anda Muradyan komandasının inisiativliyi ilə azərbaycanlılara qarşı çevrildi. Bunun ardından isə bu proses Xankəndidə davam etdirildi. Əslində, hər şeyin əvvəlcədən hazırlandığını hadisələrin aktiv iştirakçısı olan ermənilər sonradan öz yazılarında etiraf edirdilər: "Ekoloji çağırışlarla yanaşı, siyasi tələblərin də irəli sürüldüyü ilk mitinqlər 1987-ci ilin oktyabr ayında oldu. Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı siyasi tələb ilk dəfə oktyabrın 18-də İqor Muradyanın rəhbərliyi ilə İrəvanda təşkil olunan mitinqdə səsləndirilib". İrina Krpeyan yazısında qeyd edir: "İrəvandakı ilk nümayişlərin plakatları daha çox yataqxana otaqlarında yazılırdı". [218]

Aşot Yeqiazaryan o dövrü belə xatırlayır: "İqor Muradyanla mən hər şeyi əvvəlcədən düşündük. Yataqxanada azadlıq, müstəqillik və ekoloji təhlükəsizlik çağırışları yazılan bannerlər hazırladıq və Bağramyan prospektinin aşağısından yuxarı qalxmağa başladıq, o vaxta qədər gizlətdiyimiz və üzərində "Lenin, Partiya, Qorbaçov" yazdığımız Qorbaçovun şəkillərini də göstərdik. Yenidənqurma siyasətinin ədalət tələb etməyə imkan verdiyini göstərmək üçün "Berekamutyun" metro stansiyasından enənlər Çardaxlı hadisələrinin günahkarlarını cəzalandırmaq çağırışları ilə bizə qoşuldular".[219] 1987-ci il noyabrın 4-də İrəvandakı mitinqdə Qarabağ komitəsinin fəal üzvü və sonralar Ermənistan Milli Elmlər Akademiyasının akademiki olan Rafael Kazaryan belə bir açıqlama vermişdi: "Bu onilliklər ərzində ilk dəfə Ermənistanı türklərdən təmizləmək üçün bizə unikal imkan verildi. Bunu bu on ayda apardığımız mübarizənin ən böyük nailiyyəti hesab edirəm".[220] Beləcə əslində ermənilər əvvəlcədən Ermənistanda

218 ՂԱՐԱԲԱՂՅԱՆ ՇԱՐԺՄԱՆ ՆԱԽԱՊԱՏՐԱՍՏԱԿԱՆ ՓՈՒԼԻ ՊԱՏՄՈՒԹՅՈՒՆԻՑ. ԹԱԹՈՒԼ ԿՐՊԵՅԱՆԻ ԵՎ ԻԳՈՐ ՄՈՒՐԱԴՅԱՆԻ ՀԱՄԱԳՈՐԾԱԿՑՈՒԹՅՈՒՆԸ Իրինա Բարսեղյան-Կրպեյան, (İrina Barseqyan-Krpeyan. Qarabağ hərəkatının hazırlıq mərhələsinin tarixindən. Tatul Krpeyan və İqor Muradyanın əməkdaşlığı". «21-ci Əsr», № 5 (81), 2018-ci il). "21-րդ ԴԱՐ», թիվ 5 (81), 2018թ. s. 102-103

219 Yenə orada, s.102-103

220 Ризван Гусейнов. "Region plyus", 2013, №16, с.12-14; "Армения: двадцать месяцев борьбы". Сборник документов. Самиздат АОД. Ереван, 1989, с. 15.

yaşayan azərbaycanlıların qovulması və Qarabağın Ermənistana birləşdirilməsi tələbləri üçün hazırlaşmışdılar. Onlar ekoloji məsələləri, Çardaxlı hadisələrini və Qorbaçovun yenidənqurma siyasətini bu istiqamətdə fürsət olaraq istifadə etdilər.

Bu mitinqlər Qafan və Meğri rayonlarında azərbaycanlı əhaliyə qarşı hücumların təşkil olunmasına yol açdı. 1987-ci ilin noyabr ayında Qafandan qovulan və içərisi azərbaycanlılarla dolu iki yük maşını Bakının dəmiryolu vağzalına gəldi. Bakıda yaşayan erməni qadın Sveta Paşayeva Bakıya gələn azərbaycanlı qaçqınlara geyim əşyaları və qida gətirməsi haqqında danışırdı: "Qafandan gələn insanların geyimləri və yeməkləri yox idi. Orada iki yük maşını vardı. Biz onlar üçün paltar topladıq və verdik". Bundan sonra 1988-ci il yanvarın 25-də Elmlər Akademiyasına işə gedən Arif Yunusov Qafandan qovulan azərbaycanlıları Bakıda görmüşdü: "Dörd qırmızı "İkarus" markalı avtobus binanın yaxınlığında durmuşdu. Onlar çox qorxulu vəziyyətdə idilər. Tamamən qadınlar, uşaqlar və yaşlılardan ibarət idilər. Onların çoxu döyülmüşdü".[221]

1987-ci ilin əvvəllərində prosesə imzatoplama kampanyası ilə başlayan ermənilər Qarabağda separatizmi bir il ərzində yaymağı bacardılar. Digər tərəfdən, Çardaxlıda təxribat törədərək bunu Ermənistanda yaşayan azərbaycanlıların qovulması üçün bir fürsət olaraq istifadə etdilər. Nəticədə, 1987-ci ilin sonlarında artıq Ermənistandan azərbaycanlıların bir hissəsi qovulmuşdu.

### 4.6. 1988-ci il: Qarabağda ilk qan töküldü

1988-ci ilin fevralına qədər bu kampaniyanın mexanizmi, nəhayət ki, dəqiqləşdirildi və işə salınmağa hazır oldu. Janna

221 Thomas de Waal. Black Garden, Armenia and Azerbaijan, Through peace and war. New York University Press, 2003, pp. 18-19.

Qalstyanın rəhbərliyi ilə yazıçı və rəssamlardan ibarət Qarabağdan olan üçüncü nümayəndə heyəti Moskvaya getdi. Tədbirlər elə əlaqələndirildi ki, onların başlanğıcı Qarabağ nümayəndə heyətinin Moskvadan qayıtması ilə üst-üstə düşdü. Muradyan bununla bağlı qeyd edir: “Fevralın 12-dən 13-nə keçən gecə 10 min vərəqə istisnasız olaraq Xankəndinin (Stepanakert) bütün poçt qutularına daxil oldu. Bizim ciddi problemimiz olmadı. Fevralın 12-si günortaya yaxın başa düşdük ki, şəhər bizimdir”.

1988-ci il fevralın 12-də İrəvanda böyük antitürk mitinqi keçirildi. Mitinqdə “Ermənistandan türkləri təmizləməli!”, “Ermənistanda yalnız ermənilər yaşamalıdır!” və s. bu kimi millətçi şüarlar səsləndirilirdi. Fevralın 16-dan martın 2-dək keçmiş DQMV-də bir neçə mitinq təşkil edildi. Mitinqlərin ardından fevral ayının 20-də keçmiş DQMV-nin Xalq Deputatları Sovetinin erməni əsilli deputatları azərbaycanlıların iştirak etmədiyi bir iclasda vilayətin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs verdilər. İyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxıb Ermənistan SSR-in tərkibinə qəbul edilməsi xahişi ilə bağlı müraciətinə müsbət cavab vermək haqqında qərar qəbul etdi.[222]

Qəbul edilən qərarlar SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına zidd olduğu üçün qeyri-qanuni idi. 1977-ci ildə qəbul edilmiş SSRİ Konstitusiyasına görə, SSRİ-nin daxilində yer alan respublikaların tərkibindəki muxtar regionlara ayrılma hüququ tanınmamışdır. Keçmiş DQMV Azərbaycan SSR tərkibində yer alan bir muxtar vilayət olduğu üçün onun da ayrılma hüququ yox idi.  Hətta 1977-ci il SSRİ Konstitusiyasının 72-ci və 73-cü maddələrinə görə, hər hansı

222 Xronologiya, 20 yanvara aparan yol. Azərbaycan Respublikasının Prezident Kitabxanası. - https://files.preslib.az/projects/aggression/az/a3.pdf, (02.04.2024).

sərhəd dəyişikliyinə qarşı Azərbaycanın etiraz etmək hüququ var idi. Keçmiş DQMV-nin Azərbaycandan ayrılıb Ermənistan SSR-ə birləşməsi üçün Azərbaycan SSR və Ermənistan SSR arasında razılaşma əldə olunmalı və SSRİ mərkəzi idarəsi də bunu təsdiq etməli idi. Halbuki, keçmiş DQMV-nin Ermənistana birləşdirilməsi haqqında 20 fevral 1988-ci il tarixli qərar həm Azərbaycan SSR Ali Soveti, həm də SSRİ Ali Soveti tərəfindən rədd edilmişdi.[223]

Qarabağdakı separatçılar sadəcə hüququ heçə saymadılar, eyni zamanda təxribatlara davam edərək iki xalq arasında qan tökmək yolu ilə düşmənçilik yaratdılar. Belə ki, fevralın 22-də Xankəndi-Ağdam avtomobil yolunun üzərində yerləşən Əsgəran şəhəri yaxınlığında erməni silahlıları DQMV Xalq Deputatları Sovetinin ayrılma qərarına etiraz edən mülki azərbaycanlılara atəş açdılar. Əli və Bəxtiyar adlı iki gənc "Qarabağ hadisələri"nin ilk qurbanları oldular. SSRİ prokurorluğu hadisəni törədənləri həbs etdi. Beləliklə, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin ilk nəticəsi Əsgəranda iki azərbaycanlı gəncin qətlə yetirilməsi oldu.[224]

Bəxtiyar Quliyev və Əli Hacıyevin qətlə yetirilməsindən sonra Xankəndi-Ağdam yolunda Ağdam rayonunun sakinləri ilə Əsgəran rayonunun sakinləri arasında qarşıdurma baş verdi. Nəticədə 19 nəfər yaralandı. Belə bir şəraitdə fevralın 25-də DQMV Partiya Komitəsinin birinci katibi Boris Kevorkov vəzifədən azad edildi və onun yerinə Xalq Deputatları Soveti sədrinin müavini, DQMV-nin Kənd Təsərrüfatı-Sənaye İdarəsinin sədri vəzifəsində çalışan Nikolay Poqosyan təyin edildi. [225]

Fevralın 25-də azərbaycanlıların Qarabağdan ilk köç dalğası

223 Cavid Abdullahzade. Hukuki Yönleriyle Dağlık Karabağ Sorunu, Ankara, 2013. Adalet, s. 101-104.
224 Azerbaycan KP MK Bürosu'nun toplantısı. G.A.Pogosyan yoldaş ve Kevorkov hakkında. /25.02.1988/. ACSBA, f. 1, l. 83, d. 83, v. 13.
225 Yenə orada

başladı. DQMV-nin ərazisində ermənilərin təzyiq və təhqirlərinə tab gətirməyən 540 ailə (təqribən 2,5 min nəfər) Ağdam rayonuna, 150 ailə isə (təqribən 500-600 nəfər) Ağcabədi rayonuna pənah gətirmişdi. İrəvanda fəaliyyət göstərən "Qarabağ" komitəsinin rəhbərləri Silva Kaputikyan və Zori Balayan fevralın 24-də Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, MK-nın katibi Aleksandr Yakovlevlə üç saata yaxın danışıq aparmışdılar. Fevralın 26-da isə M.Qorbaçovun köməkçisi Georgi Şahnazarovun və A.Yakovlevin ("Latinskaya Amerika" jurnalının redaktoru Serqo Mikoyanın qaynı A.Yakovlevin köməkçisi idi) müşayiəti ilə Sov. İKP MK-nın baş katibi M.Qorbaçov S.Kaputikyanı və Z.Balayanı qəbul etdi. Saat yarım davam edən görüşdə onlar M.Qorbaçova türk dünyasının xəritəsini və saxta tarixi arayışlar təqdim etdilər və onu DQMV-nin Azərbaycanın tərkibində qalmasının mümkünsüzlüyünə inandırmağa çalışdılar. Lakin Qorbaçov onlara Dağlıq Qarabağın Ermənistana veriləcəyini vəd etmədi. Əvəzində DQMV-nin sosial-iqtisadi inkişafı üçün o dövrün miqyasına görə çox böyük bir məbləğ olan 400 milyon rubl ayrılacağına söz verdi. Çünki Qorbaçov bilirdi ki, SSRİ ərazisində 19 potensial milli münaqişə ocağı mövcuddur və sərhədlərin dəyişdirilməsi yolu ilə Dağlıq Qarabağın Ermənistana verilməsi SSRİ-nin süqutuna gətirib çıxara bilərdi. Həmin görüşdə G.Şahnazarov S.Kaputikyan və Z.Balayana demişdi: "Gedin İrəvanda deyin ki, tezliklə milli məsələyə həsr olunacaq Ümumittifaq konfransı keçiriləcək və o zaman qərar qəbul ediləcək". Bundan sonra İrəvanda və Xankəndidə yeni mitinqlər dalğası başlamışdı. Fevralın 27-də Sov.İKP MK-nın Beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutens Xankəndiyə gələrək erməni separatçılarının rəhbərləri ilə tam məxfi görüş keçirmiş, onlara təzyiqləri artırmağı və tələblərindən geri çəkilməməyi məsləhət görmüşdü.[226] Mosk-

226 Nazim Mustafa. "Ön söz", Yazar. Eldar İsmayılov, Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı, 2014, s. 6-10.

vaya gələn erməni heyətlər hər dəfə məqsədli şəkildə separatçıları ruhlandırmaq və Azərbaycanla qarşıdurma yaratmaq məqsədilə DQMV-nin ayrılması üçün mərkəzdən razılıq alındığı iddialarını yayırdılar. Təbii ki, Kreml qapılarının erməni separatizmi nümayəndələrinin üzünə açılması və Moskvanın onlara qarşı ifrat səbirli davranışı Azərbaycanda xalq arasında ciddi narahatlıqla qarşılanırdı. Xalq bu məsələnin həllində Moskvadan ümidini kəsərək problemi özünün həll etməli olduğunu düşünürdü.

## 4.7.Azərbaycanlıların dördüncü dəfə Ermənistandan qovulması

Qarabağda yaşanan bu hadisələr İrəvanda da azərbaycanlılara qarşı hücumlara çevrildi. Fevralın 21-də ermənilər İrəvanda qalmış son məscidə hücum edib onu dağıtdılar. Azərbaycan aşıq sənətinin dahisi, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuş və 1926-cı ildə elə oradaca - Ağkilsədə vəfat etmiş Aşıq Ələsgərin qəbri təhqir edildi. Böyük şair Səməd Vurğunun abidəsi uçuruldu.[227] İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vuruldu. Ermənistandan azərbaycanlıların sıxışdırılması prosesi sürətləndi. Fevralın 21-də qatı millətçi ermənilərin təzyiq və təqiblərindən Qafandan qaçmağa məcbur olan 70 nəfər azərbaycanlı KP MK-nın qəbul otağına gələrək Ermənistanda yaşamağın mümkün olmadığını bildirdilər. Onları qəbul edən məsul işçilər Ermənistan rəhbərliyinə müraciət etməyi tövsiyə etdilər.[228]

Ermənistandan qovulan azərbaycanlılar Sumqayıt və Bakı şəhərlərinə yerləşdirildilər. Sumqayıt və Bakı eyni zamanda er-

227 Rəftar İmanov. Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən. Bakı, 2006, s. 197; Qafarov T. Azərbaycan tarixi. Bakı, 1999, s. 229.

228 Меморандум по информации КГБ республики (1987-1989) об обстановке в Армении, Азербайджане и Нагорном Карабахе.// ARMTNA, № PF-872,v. 4; Musa Qasımlı. Göstərilən əsəri, s. 423.

mənilərin də yaşadığı şəhərlər idi. Qafan və Dağlıq Qarabağdan qaçqınların bir hissəsinin bu şəhərlərə yerləşməsi və Qarabağda artan gərginlik xəbərlərinin şəhərlərdə dolaşması qarşıdurma ehtimalını artırırdı. Belə bir şəraitdə fevralın 21-də Əsgərənda iki azərbaycanlının öldürülməsi xəbəri radioda 1 həftə gec verildi. Bu hadisə Sumqayıtda azərbaycanlılar və ermənilər arasında qarşıdurma yaratdı. Bu qarşıdurma nəticəsində 32 nəfər həyatını itirdi. Bunlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı idi. Bu azərbaycanlıların bəziləri Bakıdan Sumqayıta əsgərləri gətirən avtobusun erməni əsilli sürücüsünün avtobusu insanların üstünə sürməsi nəticəsində həyatını itirmişdi.[229] Hadisə baş verdiyi zaman bəzi ermənilər azərbaycanlı qonşularının evlərində gizlənmişdi.

İxtişaşlar nəticəsində səbəbkarlar həbs olundu. Maraqlıdır ki, bu qrupun lideri erməni çıxdı. Bu, hadisənin erməni təhlükəsizlik orqanları tərəfindən məqsədli şəkildə törədilməsi haqqında şayiələri artırdı. Lakin bilinən bir həqiqət vardır ki, azərbaycanlılar heç zaman bu hadisəni dəstəkləmədilər, tam əksinə, hər zaman bu hadisənin baş verməsində üçüncü qüvvələri günahlandırdılar. Xoşbəxtlikdən bu hadisəni törədənlər həbs olundu və hətta bəziləri ölüm hökmü ilə cəzalandırıldı. Lakin Ermənistanda azərbaycanlıların öldürülməsinə görə indiyə kimi heç kim cəzalandırılmayıb.

Sumqayıt hadisələrindən sonra Ermənistanda yaşayan azərbaycanlılara qarşı hücumlar daha da artmışdı. Zəngibasarın (Masis) Mehmandar kəndində martın 10-da 5 nəfər, aprelin 8-də 3 nəfər azərbaycanlı qətlə yetirilmiş, onlarla azərbaycanlı yaralanmışdı. Mayın 1-də Ermənistandan Azərbaycana minlərlə azərbaycanlı qaçqın gəlmişdi. Mayın 10-da ermənilər Vedi rayonu Şirazlı kəndinə hücum edərək 2 nəfəri qətlə yetirmiş və onlarla azərbaycanlını yaralamışdılar. Ümumiyyətlə, 1988-ci il

229 Eyruz Məmmədov, Ramazan Məmmədov. Sumqayıt 1988: cinayət və cəza. Bakı: Nurlar, 2014, s.120

noyabrın 22-dən dekabrın 7-dək sırf azərbaycanlıların yaşadığı 22 rayonda 170 və 94 qarışıq (ermənilərlə) yaşayış məskəni boşaldılmış, nəticədə 200 mindən çox azərbaycanlı Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca çoxsaylı bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdu.[230]

Nəticədə, SSRİ-də Mixail Qorbaçovun hakimiyyətə gəlməsi Ermənistanda irredentistlər, Qarabağda isə separatçılar üçün yeni imkanlar yaratdı. Onlar ilk növbədə Moskva üzərində ictimai təzyiq qurmaq yolu ilə mərkəz vasitəsilə Qarabağın Ermənistana verilməsinə nail olmaq istədilər. Sonrakı prosesdə SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyasına zidd qərarlar qəbul etdirmək yolu ilə regionda azərbaycanlılar və ermənilər arasında iki müharibəyə səbəb oldular.

230 Xronologiya, 20 yanvara aparan yol. Azərbaycan Respublikasının Prezident Kitabxanası. - https://files.preslib.az/projects/aggression/az/a3.pdf, (02.04.2024)

## NƏTİCƏ

Son 115 il ərzində Cənubi Qafqazın iki qonşu xalqı - ermənilər və azərbaycanlılar arasında dörd qanlı toqquşma baş vermişdir. Bunun başlıca səbəbi erməni cəmiyyəti arasında radikal və marginal qrupların XIX əsrdən etibarən liderliyi ələ alması oldu. "Böyük Ermənistan" düşüncəsini müdafiə edənlər 1920-ci ildə Ermənistanda qurulan bolşevik hökuməti ilə fəaliyyətlərinə müvəqqəti olaraq fasilə versələr də, İkinci Dünya müharibəsindən sonra irredentizm düşüncəsi ilə yenidən ortaya çıxdılar.

Ermənilər Azərbaycanın Naxçıvan Muxtar Vilayətini və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini "Böyük Ermənistan"ın sərhədlərinə daxil etmişdilər. 1920-ci ildən sonra xaricə köçən Erməni İnqilab Federasiyası üzvlərinin Yaxın Şərqdə Türkiyədən köçən ermənilərlə birləşərək radikal düşüncələrini yaşatmaq üçün imkan və şərait tapması, həmçinin İkinci Dünya müharibəsində Faşist Almaniyası ilə qurulmuş əməkdaşlıq "Böyük Ermənistan" düşüncəsini yenidən canlandırdı.

İkinci Dünya müharibəsində Faşist Almaniyası məğlub olsa da, onlarla əməkdaşlıq edən ermənilərin aqibətinə heç bir mənfi təsir göstərmədi, əksinə ermənilər bununla yeni fürsətlər əldə etdilər. Belə ki, İkinci Dünya müharibəsindən sonra Sovet İttifaqının Türkiyəyə qarşı ərazi iddiaları irəli sürməsi ilə bu düşüncələr yenidən canlandı. Bu tələbləri eyni zamanda xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi qərarı izlədi. Balkanlarda, Yaxın Şərqdə yaşayan erməni diaspor nümayəndələri Ermənistana köçürüldü. Onlar radikal millətçi və "Böyük Ermənistan" düşüncələrini də özləri ilə Ermənistan SSR-ə gətirdilər. Bu, eyni zamanda Ermənistan SSR-də "basdırılmış millətçi duyğular"ın yenidən canlanmasına səbəb oldu.

Bu prosesdən ən çox zərər görənlər isə azərbaycanlılar oldular. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Qriqor Arutinov Moskvaya məktub yazaraq DQMV-nin Azərbaycandan alınaraq Ermənistana verilməsini istədi. Bu istək Azərbaycanın haqlı narazılığı ilə uğursuzluğa düçar oldu. Lakin Azərbaycanın bu etirazı sonrakı prosesdə Ermənistanda yaşayan 100 min azərbaycanlının tarixi torpaqlarından qovulmasının qarşını almağa yetmədi. Nəticədə, azərbaycanlılar XX əsrdə üçüncü dəfə öz torpaqlarından qovuldular.

Stalinin Türkiyəyə qarşı ərazi iddiası Qərbdən də dəstək ala bilmək üçün irəli sürülmüşdü. Lakin o, qısa müddət sonra Qərbdən dəstək ala bilmədi və əksinə Türkiyəyə Qərbin dəstəyi artdı. Stalinin Türkiyəyə qarşı tələblərindən imtina etməsi Ermənistana köçən ermənilərlə sovet hakimiyyəti arasında münasibətlərin korlanmasına səbəb oldu. Daşnaklar bu vəziyyətdən istifadə edərək, ABŞ-la yaxınlaşmağa çalışdılar.

Bu, eyni zamanda Yaxın Şərqdə ABŞ ilə Sovet İttifaqı arasında soyuq müharibənin davam etdiyi dövr idi. Hər iki tərəf Yaxın Şərqdəki erməni diaspor təşkilatlarını geosiyasi maraqları üçün istifadə edirdilər. Bu rəqabət daşnaklarla Sovet İttifaqı arasında münasibətlərin yenidən qurulmasına səbəb oldu. Eyni zamanda bu dövrdə Ermənistan SSR-də dissident təşkilatlar aktivləşdi. Bu təşkilatlar daşnakların ciddi təsiri altında idi. Onlar şüarlarında Türkiyə ərazilərinin, Azərbaycanın Naxçıvan və Qarabağ torpaqlarının daxil edildiyi "Böyük, azad və demokratik Ermənistan" yaratmağı hədəfləyirdilər.

İlk gizli dissident təşkilatları 1962-1963-cü illərdə "Yeddi patriot" adı ilə ortaya çıxdı. Onların ciddi bir plan və proqramları yox idi, lakin hədəfləri var idi. Bu proses 1965-ci il mitinqi ilə

davam etdirildi. 1965-ci ildə Ermənistan SSR rəhbərliyi 1915-ci il hadisələrinin 50-ci ildönümü ilə əlaqədar tədbirin keçirilməsinə icazə almağı bacardı. Bu, əslində Ermənistandakı gizli təşkilatların aktivləşməsi və tədbirin təşkili üçün fürsət yaratdı. 1965-ci ildə keçirilən mitinqdə Azərbaycanın DQMV və Naxçıvan Muxtar Vilayətinə qarşı tələblər gündəmə gətirildi. Bu mitinqdə həbs olunanlar həbsxanada olarkən əlaqələrini genişləndirərək sonrakı dövrlərdə daha çox təşkilatlar qurmaq yolu ilə daha açıq tələblər gündəmə gətirdilər.

Ermənistanda başlayan proses daha sonra məqsədli şəkildə Azərbaycan ərazilərinə daxil edildi. Erməni millətçilər orta məktəb şagirdlərindən bu prosesdə aktiv şəkildə istifadə edirdilər. Bunun özünəməxsus səbəbləri var idi: 1. Şagirdlərin beyinlərinə "Böyük Ermənistan" kimi düşüncələri yerləşdirmək daha asan idi; 2. Şagirdlərə qarşı cinayət işi açmaq çətin idi.

1969-cu ildə Azərbaycanda Heydər Əliyevin hakimiyyətə gəlməsi Qarabağdakı erməni separatçılarının fəaliyyətlərinin Azərbaycan mərkəzi hakimiyyəti tərəfindən nəzarətə götürülməsinə səbəb oldu. Lakin  bu dəfə ermənilərin yaratdıqları təşkilatlar sonradan ASALA terror təşkilatının da təsiri altında qalaraq terroru bir metod olaraq seçdilər. Bütün bunlar 1987-ci ildə Ermənistandan dəstək alaraq Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçılar tərəfindən başladılan prosesin yaratmış olduğu nəticələrə səbəb oldu.

Beləliklə, belə bir nəticəyə gəlmək olur ki, Ermənistanla Azərbaycan arasında yaşanan Birinci Qarabağ (1991-1994) və İkinci Qarabağ (2020) müharibələrinin səbəbi İkinci Dünya müharibəsindən sonra Ermənistanda artan "Böyük Ermənistan" ideologiyası və irredentist millətçilik duyğuları olmuşdur. Lakin ermənilər həmin dövrdə özlərinin başlatdıqları bu prosesdə

azərbaycanlıları günahlandıraraq beynəlxalq aləmdə bunu öz istədikləri şəkildə təqdim etməyə çalışdılar.

Sovet dövrü eyni zamanda onu göstərir ki, 1920-1945-ci illərdə Ermənistanda Azərbaycana qarşı ərazi iddialarının qaşısı vaxtında alınsa da, 1945-ci ildən ermənilərin bu istəkləri yenidən "qabarmağa" başladı və nəticədə hadisələrin axarı Birinci Qarabağ müharibəsinin baş verməsinə gətirib çıxartdı. Son dövrlər Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına cəhdlər artsa da, o da unudulmamalıdır ki, Ermənistanda radikal erməni millətçiliyinin yenidən canlanması ehtimali var. Bugünkü Ermənistandakı millətçilik 1945-1988-ci illərdə olduğu kimi xaricdən "bəslənir" və bunun qarşısı alınmazsa, regionun gələcək təhlükəsizliyinə təhdidlər həmişə olacaqdır.

Azərbaycan və Ermənistan arasında davamlı sülhün əldə olunması üçün Ermənistan dövlətinin ideologiyasının dəyişməsi zəruridir. Təqdim edilən bu araşdırma zərərli erməni ideologiyasının tarixən regionda yaratdığı fəsadları izləmək baxımından yaxşı bir nümunədir. Çünki sovet dövründə istər Qarabağda, istər Ermənistanda, istərsə də Azərbaycan SSR ərazisində sıravi azərbaycanlılar və ermənilər birgə yaşaya biliblər. Lakin ermənilər arasında yayılan və çox zaman kənardan təlqin edilən zərərli ideogologiya qısa bir dövrdə bu yaxşı təcrübəni unutdurmağa və tərəfləri düşmənə çevirməyə nail ola bilib.

Bu mənada, İkinci Qarabağ müharibəsindən sonra Ermənistan və Azərbaycan arasında rüşeyimləri yaranmağa başlayan normallaşma prosesi həm Ermənistan, həm də Azərbaycan tərəfindən Birinci Qarabağ müharibəsindən əvvəl yaşanan hadisələr nümunə götürülərək davam etdirilməlidir.

Onu da xüsusi qeyd edək ki, Ermənistanda artan ifrat millətçiliyin yüksəlişi sadəcə Azərbaycan torpaqlarının işğalı ilə ye-

kunlaşmadı, eyni zamanda, 1945-1990-cı illər ərzində öz tarixi torpaqlarında yaşayan azərbaycanlıların doğma yurdlarından qovulmasına da səbəb oldu. Bu azərbaycanlılar öz torpaqlarından Ermənistan hakimiyyyətinə qarşı heç bir silahlı hücum etmədiyi və ya təşkilatlanmadığı bir dövrdə qovuldular.

İkinci Qarabağ müharibəsindən sonra iki qonşu xalq arasında tam normallaşmanın təmin olunması üçün azərbaycanlılar vaxtilə qovulduqları doğma torpaqlarına qayıtmalıdırlar. Vaxtilə Ermənistandan – öz doğma yurd yerlərindən qovulmuş bu insanlar müharibədən sonra bir icma daxilində təşkilatlandılar. Onlar Ermənistan rəhbərliyinə müraciət edərək öz torpaqlarına qayıtmaq arzularını ifadə etdilər.  Bu insanlar öz torpaqlarına sülh yolu ilə qayıtmaq istəyirlər, beynəlxalq insan hüquqları da bu haqqı onlara verir. Lakin təəssüflər olsun ki, sadəcə erməni radikal millətçiləri deyil, eyni zamanda indiki Ermənistan hakimiyyəti də onların öz torpaqlarına geri qayıtmasına maneələr yaradır.

Vaxtilə Birinci Qarabağ müharibəsinin nəticələrindən faydalanan irredentist millətçilər Ermənistanda hakimiyyəti güc yolu ilə ələ keçirərək Ermənistan əhalisinin iradəsini əsir aldılar. Bu hadisələr Qarabağ ermənilərinin də yaşam tərzinə, taleyinə öz mənfi təsirini göstərdi. 30 illik işğal dövründə Qarabağda yaşayan ermənilərin iradələri oradakı hərbi xunta rejimi tərəfindən istismar edildi. Ermənistanda və işğal altındakı Azərbaycan torpaqlarında nəzarəti ələ keçirən irredentist millətçilər Qarabağ məsələsinin həlli üçün 30 il boyunca davam edən Ermənistan-Azərbaycan danışıqlarında da maksimalist tələbləri ilə məsələnin həllinə mane oldular. Onların bu inadkar işğalçı mövqeyi İkinci Qarabağ müharibəsinin baş verməsinə gətirib çıxartdı.

Göründüyü kimi, erməni irredentist millətçiliyi insan fəlakətlərinə səbəb olmaqla yanaşı, Cənubi Qafqazda regional əməkdaşlığın qarşısında böyük maneələr yaratdı. Azərbaycan və Gürcüstan Cənubi Qafqazda üçlü əməkdaşlıq platformalarında iştirak etdikləri halda Ermənistan bu platformalardan, eyni zamanda regional enerji və nəqliyyat layihələrindən kənarda qaldı. Bu isə Ermənistan üçün sosial-iqtisadi problemlərlə yanaşı, xarici siyasət və milli təhlükəsizlik problemlərini də yaratmış oldu.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası.- https://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf .
2. Balayev A, Mirzə R. 20 Yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000). Bakı: Çaşıoğlu, 2000.
3. Bu məmurumuz ermənilərin Azərbaycanda 50 minlik mitinqinin qarşısını aldı - Amma... https://moderator.az/az/ekskluziv/566480/bu-memurumuz-ermenilerin-azerbaycanda-50-minlik-mitinqinin-qarsisini-aldi-amma/
4. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Qriqor Arutinovun İosif Stalinə məktubu. - https://global.oup.com/us/companion.websites/fdscontent/uscompanion/us/static/companion.websites/9780197605769_kane/19.1_Armenian_leaders_write_to_Stalin_1945.pdf
5. Ermənistan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri M.A.Yüzbaşyanın Ermənistan KP MK Bürosuna hesabatı. - https://digitalarchive.wilsoncenter.org/document/report-chairman-committee-state-security-armenian-socialist-soviet-republic-m-yuzbashyan, 14. Mart 1979.
6. Heydər Əliyevin Fransa Beynəlxalq Magistrlər İnstitutunda "Azərbaycan və Qafqaz XXI əsrin astanasında" mövzusunda mühazirəsi. - https://files.preslib.az/projects/toplu/v2/f3_7.pdf
7. Xronologiya, 20 yanvara aparan yol. Azərbaycan Respublikasının Prezident Kitabxanası. - https://files.preslib.az/projects/aggression/az/a3.pdf
8. İmanov R. Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən. Bakı, 2006
9. İsaxanlı H. Sovet dövründə Dağlıq Qarabağ, IV hissə. - https://525.az/news/163286-sovet-dovrunde-dagliq-qarabag-vi-hissePAYLA%C5%9E

10. İsmayılov E. Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı, 2014.
11. Qafarov T. Azərbaycan tarixi. Bakı, 1999.
12. Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları, 1920-1994-cü illər./ Elmin İnkişafı Fondu, 2016.
13. Qasımlı M. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti məşriyyatı, 2006.
14. Qasımlı M. SSRİ-Türkiyə münasibətləri, Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək. Bakı: Adiloğlu, 2007.
15. Məmmədov E., Məmmədov R. Sumqayıt - 1988: cinayət və cəza. Bakı: Nurlar, 2014.
16. Mustafa N. 1988-ci ilədək Dağlıq Qarabağ Muxtar Vilayətində sosial-iqtisadi vəziyyət Azərbaycanın digər regionlarından aşağı səviyyədə olub. /Redaktorlar: N. Mustafa, A.Qurbanov və E.Əlili. Erməni saxtakarlığı: Yalan üzərinə qurulan tarix. Bakı, 2018, ss. 208-222.
17. Mustafa N. Azərbaycan xalqına qarşı böyük ədalətsizlik – 1948-1953-cü illər deportasiyası. // "Xalq qəzeti", 23 dekabr 2022-ci il, № 281, s. 10.
18. Mustafa N. İrəvan şəhəri. Bakı, 2020. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi.
19. Mustafa N., Qurbanov A.və Əlili E. Erməni saxtakarlığı: Yalan üzərinə qurulan tarix. Bakı, 2018.
20. Şəfiyev F. Rusiya-Sovet məskunlaşdırma siyasəti və Cənubi Qafqazda münaqişə. Bakı, 2021. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi.

**Türk dilində:**

21. Abdullahzade C. Hukuki Yönleriyle Dağlık Karabağ Sorunu. Ankara, 2013.
22. Arslan Ali. Kadim Ermeni Papalığı, Eçmiyazin Kilisəsində Stratejik Savaşlar. İDİL, İstanbul, 2013.

23. Azerbaycan KP MK Bürosu'nun toplantısı. G.A.Pogosyan yoldaş ve Kevorkov hakkında. /25.02.1988/. ACSBA, f. 1, l. 83, d. 83, v. 13.
24. Kara Füsun. Almaatada 1986 Aralık Olayları: Jeltoksan. Turkish Studies - International Periodical for The Languages, Literature and History of Turkish or Turkic, Volume 7/4, Fall 2012, pp. 417-426.
25. Paşayeva Gülşen, Bağırova İradə və diyərləri. SSCB`de Yarı Özerkliğin hukuki durumu: Dağlık Karabağ Özerk Bölgesi Örneği. // Uluslararası Suçlar ve Tarih, 2013, Sayı: 14, ss. 69-103.
26. Sander O. Siyasi Tarih. 1918-1920. İmge, 1994. 7-ci neşr.
27. Türkiye-Avrupa Birliği İlişkilerinin Tarihçesi. https://www.ab.gov.tr/turkiye-ab-iliskilerinin-tarihcesi_111.html

**İngilis dilində:**

28. Abbasov E. Armenian İrredentist Nationalism and Its Transformation into the mass Karabakh Movement "MIATSUM" (1965-1988). / Edit., pp. 59-87.
29. Ambrosio, T. Irredentism: Ethnic Conflict and International Politics. Greenwood Publishing Group. 2001
30. Anastas İvanovich Mikoyan. - https://www.britannica.com/biography/Anastas-Ivanovich-Mikoyan
31. Anastas Mikoyan. Armenia and Karabakh: Q&A With Pietro Shakarian. - https://www.civilnet.am/en/news/381020/anastas-mikoyan-armenia-and-karabakh%D6%89-qa-with-pietro-shakarian/
32. Antranig Kasbarian. The Artsakh Struggle and the ARF. - https://armenianweekly.com/2016/02/09/the-artsakh-struggle-and-the-arf/
33. Ara Sanjian. Armenian Immigration to the USSR from Arab Countries (1946–1949). /Ed. Eileen Kane,
34. Ara Sanjian. Homeland-Diaspora Relations under Khrushcev and Brezhnev: Soviet embassy reports from Beirut on the Armenian Community in Lebanon 1959-1982. / Edit. Michael Bruneau, İoan-

nis Hassiotis, Martine Hovanessian et Claire Mouradian, Arméniens et Grecs en diaspora: approaches comparatives, Actes du colloque européen et international à l'École française d'Athènes, Athènes, 2007, ss, 273-282.

35. Ara Sanjian. Irredentism at the Crossroads of Nationalism, Communism and Diverging Interpretations of the Soviet Experience: The Armenian Diasporan Press on Mountainous Karabagh, 1923-1985, https://entriessas.com/articles/armenian-diaspora/ (06.01.2021).
36. Armenak Manukyan. An Alternative to the Dissident Paradigm and Interesting Civil Protests in Soviet Armenia: Equal but Different? // Journal of Political Science: Bulletin of Yerevan University, Vol. 1 (3), December 2022, pp. 73-89.
37. Armenian Helsinki Group. - https://museum.khpg.org/en/1163033553
38. Armine Ishkanian. Diaspora and Global Civil Society: The Impact of Transnational Diasporic Activism on Armenia's Post-Soviet Transition, In Central Asia and the Caucasus: Transnationalism and Diaspora. Edited by Atabaki, T. and S. Mehendale (London: Routledge, 2005), pp. 113-139.
39. Arnold N. Pronto, "Irredentist Secession in International Law", The Fletcher Forum of World Affairs, Vol 40: 2. Summer 2016, pp. 103-122.
40. Berberian H. From Nationalist-Socialist to National Socialist? The Shifting Politics of Abraham Giulkhandanian. /In Bedross Der Matossian, ed. The First Republic of Armenia (1918-1920) on Its Centenary: Politics, Gender, and Diplomacy. Fresno: Armenian Series of The Press at California State University, Fresno, 2020.
41. Celestine Bohlen. Crimean Tatars End Kremlin Protests. // The Washington Post, July 26, 1987.
42. Celestine Bohlen. Gorbachov`s Nightmare. // The Washington Post, 28.03.1988.
43. Christopher Gunn. Secret Armies and Revolutionary Federations: The Rise and Fall of Armenian Political Violence, 1973-1993.

44. Christopher Gunn. The Armenian Question, TASAM, Coastal Carolina University, TASAM. 26 May 2014.
45. Chronology. - https://files.preslib.az/projects/aggression/en/a3.pdf
46. Conversation with General Dro. - https://www.cia.gov/readingroom/docs/KANAYAN%2C%20DROSTAMAT_0014.pdf
47. Cornell S Azerbaijan Since Independence, December 23, 2010, Routledge.
48. David Carment, The International Dimensions of Ethnic Conflict: Concepts, Indicators, and Theory. // Journal of Peace Research, vol.30, no.2, (1993). SS. 137-150.
49. Dimension of Civil Unrest in Soviet Union, CIA Report. - https://www.cia.gov/readingroom/docs/19830401.pdf
50. Donald L. Horowitz. Ethnic Groups in Conflict, Berkeley. University of California. 1985.
51. Erel Tellal. Relations with USSR. / Ed. Turkish Foreign Policy, 1919-2006. Translated. Aksin Mustafa. University of Utah Press, 2010, pp. 298-310.
52. From interview with Haydar Aliyev. // “Ulduz”, 1990, № 6, p.
53. German Kim. Irredentism in Disputed Territories and Its Inluence on the Border Conlicts and Wars, The Journal of Territorial and Maritime Studies, Voluma 1, Number 2. Summer Fall 2014, pp.87-101.
54. Gigi Gokcek. Irredentism versus Secessionism: The Potential for International Conflict. Western Political Science Association Annual Conference, San Francisco, California, April 1-3, 2010.
55. Gorbachev’s Economic Programs: The Challenges Ahead, National Intelligence Estimate. -https://www.cia.gov/static/At-Cold-Wars-End2-The-Soviet-Crisis-Gorbachev-and-Perestroika.pdf
56. Harold E. Rogers. Glasnost and Perestroika: An Evaluation of the Gorbachev Revolution and Its Solution and Its Opportunities for the West. // Denvar Journal International Law & Policy.Volume 16. Number 2. Winter\Spring. (1988), pp. 209-246.
57. Haydar Aliyev and Karabakh İssue in 1970-1980s. - https://story.

karabakh.center/en/heydar-aliyev-and-the-karabakh-issue-in-1970-80s#21

58. Horowitz, D. L. Irredentas and secessions: Adjacent phenomena, neglected connections. In N. Chazan (Ed.), Irredentism and International Politics. Boulder, CO: Lynne Rienner. (1991), p. 9-10.
59. James R. Russell. Remembering an Unsung Hero of the Holocaust Era. // Armenian Mirror-Spectator, September 17, 2022.
60. Jo Laycock. Belongings: People and Possessions in the Armenian Repatriations 1945 – 1949. // Kritika: Exploration in Russian and Eurasian History, 18 (3), pp. 511-537.
61. Julianna Christa Elisabeth Fuzesi. Explaining irredentism: the case of Hungary and its transborder minorities in Romania and Slovakia. London School of Economics and Political Science University of London, 2006.
62. Kurkchiyan M. The Armenians. Past and Present in the Making of National Identity, 2005. 1st Edition. 2015. Routledge.
63. Lilita Dzirkals. Glasnost and Soviet Foreign Policy. // RAND Corporation, January 1990, pp.33-34.
64. M. Hakan Yavuz and Michael M. Gunter. The Nagorno Karabakh Conflict: Historical and Political Perspectives. Routledge, New-York, 2023.
65. Markarian S. The Origins and Developments of Armenian Nationalist Sentiment in Soviet Armenia. Indiana University South Bend, 1989.
66. Masha Kirasirova, Margaret Litvin, Russian-Arab Worlds: A Documentary History, Oxford University Press.
67. Mehmet Perinchek. Nazi - Dashnak Collaboration During World War II. // Center for Eurasian Research, Turkish-Russian Academics A Historical Study on the Caucasus. Terazi, April 2016, pp. 199-232.
68. Michael M. Gunter. Armenian Terrorism: A Reappraisal. // The Journal of Conflict Studies, Winter 2007, SS. 109-128.
69. Nairi Mercadanti. Nerkaght and the Concept of Homeland, Arme-

nia. // Caucaso e Asia Centrale Ricerche, 2022, Eurasiatica 19, pp. 143-160.

70. Naomi Chazan. Irredentism and International Politics. Boulder, CO: Lynne Rienner. 1991
71. Natalia Horlo. International Political Context of Irredantism, Scientific Journal of Polina University, 40 (2002) 3. pp. 205-212.
72. Nona Shahnazarian. Letters from the Soviet 'Paradise': The Image of Russia among the Western Armenian Diaspora, Journal of Eurasian Studies. Volume 4, Issue 1, January 2013. pp. 8-17.
73. Panossian R. The Armenians: From Kings and Priests to Merchants and Comissars, Hurst and Company. London, 2006.
74. Panossian R. Post-Soviet Armenia, Nationalism and its (dis) contents. /Edit. Lowell Barrington, After Independence Making and Protecting the Nation in Postcolonial and Postcommunist States, University of Michigan Press; First Edition, March 31, 2006
75. Reports of Helsinki Accord Monitors in the Soviet Union. Volume three of the Documents of the Public Group to Promote Observance of the Helsinki Agreements in the USSRP/ 182/. 7 November 1978. Accessible at: https://www.csce.gov/wp-content/uploads/2016/10/Reports-of-Helsinki-Accord-Monitors-in-the-Soviet-Union-1978.pdf. pp. 177-183.
76. Roberts, Jason A. The Anti-Imperialist Empire: Soviet Nationality Policies under Brezhnev (2015). Graduate Theses, Dissertations, and Problem Reports
77. Ruben Melkonyan & Vahram Ter-Matevosyan. Stranded in geopolitics: the question of Turkish Armenians in Soviet-Turkish Relations. // Middle Eastern Studies, 20.04.2020, pp. 1-12.
78. Sahakyan V. Between Host-Countries and Homeland: Institutions, Politics and Identities in the Post-Genocide Armenian Diaspora (1920s to 1980s), Doctor of Philosophy (Near Eastern Studies) in the University of Michigan 2015.
79. Sanamyan E. Karabakh Armenians' Appeals to Politburo and the Crimean Tatar Precedent.- https://armenian.usc.edu/karabakh-ar-

menians-appeals-to-politburo-and-the-crimean-tatar-precedent/ / January 10, 2018/

80. Sanjian A. Armenians and the Global Cold War: History, Memory and Legacies, Center for Western Armenian Studies /16.10.2018/ - https://cfwas.org.uk/2018/10/12/armenians-and-the-global-cold-war-history-memory-and-legacies/
81. Sanjian A. How Are Diasporans Informed About Contemporary Armenia?, Policy Forum Armenia's 2nd Annual Forum "Armenia-Diaspora Relations", Georgetown University, Washington, DC, March 1, 2010. - https://www.pf-armenia.org/sites/default/files/uploads/pfa_uploads/Diaspora_Forum/Sanjian-Diaspora_Armenia.pdf
82. Saparov, Arsène. Re-negotiating the Boundaries of the Permissible: The National(ist) Revival in Soviet Armenia and Moscow's Response. // Europe-Asia Studies, 70:6, 2018, pp. 862-883.
83. Shakarian, Pietro A. Yerevan 1954: Anastas Mikoyan and Nationality Reform in the Thaw, 1954-1964. Peripheral Histories, https://www.peripheralhistories.co.uk/post/yerevan-1954-anastas-mikoyan-and-nationality-reform-in-the-thaw-1954-1964
84. Shakarian, Pietro Annanias. An Armenian Reformer in Khrushchev's Kremlin Anastas Mikoyan and the Politics of Difference in the USSR, 1953-1964, The Ohio State University 2021, Dissertation.
85. Suleyman Seydi. "Armenian Question in the Early Cold War, Repatriation Scheme"// Review of ARMENIAN STUDIES, Number 3, Volume 1 – 2003. SS. 42-55.
86. Suny, Ronald Grigory. Looking Toward Ararat; Armenia in Modern History, Indiana University Press, 1993.
87. Ter-Matevosyan V. The Legacy of the First Republic of Armenia during the Soviet Era: The Tumultuous 1960s. - https://armenianweekly.com/2018/05/27/the-legacy-of-the-first-republic-of-armenia-during-the-soviet-era-the-tumultuous-1960s/
88. Thomas de Waal. Black Garden, Armenia and Azerbaijan: Through peace and war. New York University Press, 2003

89. Unrest in the Caucasus and the Challenge of Nationalism, https://www.cia.gov/readingroom/docs/CIA-RDP91B00776R000600150001-9.pdf

**Rus dilində:**

90. Акопян Т. «Взрыв» в Нагорном Карабахе – год 88-ой. - https://www.civilnet.am/news/180071/%D0%B2%D0%B7%D1%80%D1%8B%D0%B2-%D0%B2-%D0%BD%D0%B0%D0%B3%D0%BE%D1%80%D0%BD%D0%BE%D0%BC-%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%B1%D0%B0%D1%85%D0%B5-%D0%B3%D0%BE%D0%B4-88-%D0%BE%D0%B9/

91. Аркадий Карапетян: В основе армянской идеологии должна стоять вера. Читать далее: https://realtribune.ru/arkadij-karapetyan-v-osnove-armyanskoj-ideologii-dolzhna-stoyat-verahttps://realtribune.ru/arkadij-karapetyan-v-osnove-armyanskoj-ideologii-dolzhna-stoyat-vera

92. Армянское национальное движение. - http://old.memo.ru/history/diss/books/alexeewa/chapter6.htm

93. Балаян З. Карабахское движение – это детище армянского народа, https://www.golosarmenii.am/article/62936/karabaxskoe-dvizhenie-%E2%80%93-eto-detishhe-armyanskogo-naroda

94. Гусейнов Р. “Region plyus”, 2013, №16, с.12-14.

95. История Нагорно Карабахского конфликта. - https://tass.ru/info/8979501

96. История СССР. Перестройка (1985–1991). - https://bigenc.ru/c/glasnost-v-sssr-d3af39

97. К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР (1918-1920). Баку: Азербайджанское Государственное Издательство, 1989. / Редактор. Д.П.Гулиева “Из протокола заседания пленума Кавбюро НК РКП(б)”/

98. Карабах – как все начиналось: Аркадий Карапетян, https://www.civilnet.am/news/180093/%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%B1%D0%B0%D1%85-%D0%BA%D0%B0%D0%BA-%D0%B2%D1%81%D0%B5-%D0%BD%D0%B0%D1%87%D0%B8%D0%BD%D0%B0%D0%BB%D0%BE%D1%81%D1%8C-%D0%B0%D1%80%D0%BA%D0%B0%D0%B4%D0%B8%D0%B9-%D0%BA%D0%B0%D1%80%D0%B0%D0%BF%D0%B5%D1%82%D1%8F%D0%BD/

99. Кузнецов О. Взрыв на проспекте Нариманова: Террористический акт на общественном транспорте Баку 8 сентября 1984 года, IRS-Наследие, https://irs-az.com/new/pdf/201503/1426337917654263974.pdf, ss. 52-57.

100. Манукян С. Возникновение националистического дискурса и подпольного движения в Армении в начале 1960-ых годов. - https://ge.boell.org/en/2006/09/24/vozniknovenie-nacionalisticheskogo-diskursa-i-podpolnogo-dvizheniya-v-armenii-v-nachale#_ftn35

101. Нагорный Карабах: Историческая справка. Академия наук Армянской СССР, 1988.

102. Наша борьба 88-го еще не завершена... - https://www.artsakhtert.com/rus/index.php/social/item/5236-%D0%BD%D0%B0%D1%88%D0%B0-%D0%B1%D0%BE%D1%80%D1%8C%D0%B1%D0%B0-88-%D0%B3%D0%BE-%D0%B5%D1%89%D0%B5-%D0%BD%D0%B5-%D0%B7%D0%B0%D0%B2%D0%B5%D1%80%D1%88%D0%B5%D0%BD%D0%B0, Февраль 21, 2011

103. Нифталиев И. Притязания Армении на Нагорный Карабах в период руководства Азербайджаном Гейдара Алиева (60-начало 80-х гг. XX века). // Известия НАН Азербайджана. Серия общественных наук, 2015, №2, сс. 16-38.

104. Овсепян В. Гарегин Нжде и КГБ: воспоминания разведчика, Нораванк, Ереван, 2007.

105. Помпеев Ю. Кровавый омут Карабаха. Баку,1992.

106. Саркисян М. Начало Карабахского Движения и формирование

комитета «Карабах». - https://acnis.am/ru/analysis/06-2018-ru /17 fevral 2018/.

107. “Северный Арцах”: армянские территориальные претензии идут в направлении Грузии и Тбилиси! - https://www.kavkazplus.com/news.php?id=20421#.Y_ipuHZByUk
108. Том де Ваал. Глава 1. Февраль 1988 года. - http://news.bbc.co.uk/hi/russian/in_depth/newsid_4640000/4640183.stm
109. Ярмощук Т. Говорить не о Карабахе, а о независимости. Национальные движения в республиках накануне распада СССР. Часть двенадцатая: Армения. - https://www.currenttime.tv/a/armenia-ussr/32155917.html

**Erməni dilində:**

110. 1985-1988. Արցախյան շարժման ակունքներ, (Artsax hərəkatının mənşəyi), https://nooberella.home.blog/2020/11/06/1885-1888%e2%80%a4-%d5%a1%d6%80%d6%81%d5%a1%d5%ad%d5%b5%d5%a1%d5%b6-%d5%b7%d5%a1%d6%80%d5%aa%d5%b4%d5%a1%d5%b6-%d5%a1%d5%af%d5%b8%d6%82%d5%b6%d6%84%d5%b6%d5%a5%d6%80/, (06.11.2020).
111. Դեռ ժամանակ եւ ճանապարհ ունենք անցնելու. Սերգեյ Շահվերդյան, (Hələ vaxtımız və yolumuz var. Sergey Şahverdyan). - https://aparaj.am/%D5%A4%D5%A5%D5%BC-%D5%AA%D5%A1%D5%B4%D5%A1%D5%B6%D5%A1%D5%AF-%D5%A5%D6%82-%D5%B3%D5%A1%D5%B6%D5%A1%D5%BA%D5%A1%D6%80%D5%B0-%D5%B8%D6%82%D5%B6%D5%A5%D5%B6%D6%84-%D5%A1%D5%B6%D6%81%D5%B6%D5%A5%D5%AC/, (03.05.2013).
112. ԻՍԿՈՒՀԻ ԱՎԱՆԵՍՅԱՆ , “ԿԱՆԱՆՑ ՄԱՍՆԱԿՑՈՒԹՅՈՒՆՆ ԱՐՑԱԽՅԱՆ ՇԱՐԺՄԱՆ ԸՆԴՀԱՏԱԿՅԱՓՈՒԼԻՆ (1986-1988ԹԹ.)” (İskuhi Avenisyan.

Artsaxiya hərəkatının aralıq mərhələsində qadınların iştirakı (1986-1988). - http://artsakhconflict.blogspot.com/2018/02/1986-1988.html

113. ՂԱՐԱԲԱՂՅԱՆ ՇԱՐԺՄԱՆ ՆԱԽԱՊԱՏՐԱՍՏԱԿԱՆ ՓՈՒԼԻ ՊԱՏՄՈՒԹՅՈՒՆԻՑ. ԹԱԹՈՒԼ ԿՐՊԵՅԱՆԻ ԵՎ ԻԳՈՐ ՄՈՒՐԱԴՅԱՆԻ ՀԱՄԱԳՈՐԾԱԿՑՈՒԹՅՈՒՆԸ Իրինա Բարսեղյան-Կրպեյան, (İrina Barseqyan-Krpeyan. Qarabağ hərəkatının hazırlıq mərhələsinin tarixindən. Tatul Krpeyan və İqor Muradyanın əməkdaşlığı". "21-ci Əsr", № 5 (81), 2018-ci il). "21-րդ ԴԱՐ», թիվ 5 (81), 2018թ. s. 102-103.

## QEYD ÜÇÜN

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

# ERMƏNİ MİLLƏTÇİ İRREDENTİZMİ VƏ QARABAĞ MÜHARİBƏLƏRİ

Dr. Cavid Vəliyev

Oktyabr - 2024